Bu bir xalq qəzetidi

ƏDALƏT

## Sakinlər evlərindən İlham Əliyev və Mehriban Əliyevanı salamladılar



**Oktyabrın 22-də Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışından sonra maraqlı anlar yaşanıb.**

Belə ki, Mərkəzin yaxınlığındakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı və qızları Leyla Əliyevanı salamlayıblar.

## Hikmət Hacıyev: "Azərbaycanın qarşısında yeni məqsəd durur"



**Vətən müharibəsində qələbədən sonra Azərbaycanın qarşısında yeni bir məqsəd durur və bu da Qarabağın yenidən qurulması və bərpa olunmasıdır.**

Adalet.az-ın məlumatına görə, bunu Prezidentin köməkçisi Hikmət Hacıyev İstanbulda Türk Şurasının Media forumunda çıxışı zamanı deyib. H.Hacıyev deyib ki, Azərbaycan torpaqlarının 20 faizi 30 ilə qədər müddətdə erməni işğalı altında olduğu zaman şəhərlərimiz, kəndlərimiz tamamilə dağıdılıb: "21-ci əsrdə bu qədər dağıntılar törətmək ağlasığan deyil. Bizim məqsədimiz sülhə çağırışdır, gələcəkdə bu cür hadisələrin qarşısını almaqdır".

H.Hacıyev əlavə edib ki, işğal altında olmuş torpaqlarda mədəni irsimiz məhv edilib: "67 məscid dağıdılıb və İslamı təhqir etmək üçün məscidlərdə heyvanlar saxlanlıb".

## DİN Bakıda əməliyyat keçirdi: 48 nəfər saxlanıldı

Bax:səh-3

## Ərdoğan: "Qarabağ müharibəsində medianın ikiüzlu davranışının şahidi olduq"



**"44 gün davam edən Qarabağ müharibəsində beynəlxalq medianın ikiüzlu davranışın şahidi olduq".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Şurasının Media forumunda çıxışı zaman deyib.

Türkiyə lideri bildirib ki, Ermənistan ordusunun Azərbaycanın mülki vətəndaşlarını ballistik raketlərlə qətlə yetirməsi heç gündəmə gətirilmədi. Onun sözlərinə görə, media müstəqilliyindən və obyektivlikdən bəhs edən beynəlxalq media orqanları Ermənistanın rəsmi xəbər agentlikləri kimi hərəkət etdi.

## Azərbaycanda 3477 şagird COVID-19-a yoluxub

**İndiyədək 1 595 108 şagirddən 3477-si (0,2 faiz), məktəblərdə çalışan 229 871 nəfər heyətdən 2494-ü (1 faiz) COVID-19-a yoluxub.**

Adalet.az xəbər verir ki, bu barədə Təhsil və Səhiyyə Nazirlikləri birgə məlumat yayıb.

"I-IV siniflər üzrə yoluxma sayı 637 nəfər, V-IX siniflər üzrə 1755 nəfər, X-XI siniflər üzrə yoluxma sayı isə 898 nəfər təşkil edib", - məlumatda bildirilib.

## PREZİDENT İLHAM ƏLİYEV: ""QARABAĞ" HAMIMIZINDIR!"

**Bu günlərdə prezident İlham Əliyevin Füzulidə ziyalılarla görüşündə "Qarabağ"ın və millinin futbolçusu Qara Qarayevlə səmimi söhbəti haqqında bir köşə yazmışdım.**

Təkrar etmək istəmirəm, amma Möhtərəm Prezidentin bir fikrini yenidən xatırlatmaq istədim.



Prezident Qara Qarayevə dedi: ""Qarabağ" hamımızın komandasıdı, komandanı hamımız sevirik və həmişə uğurlar arzulayırıq".

Bəli, "Qarabağ" Möhtərəm Prezidentin bu fikirlərini doğrultdu. "Kayrat"la oyunda bir daha sübut etdi ki, o təkcə ağdamlıların deyil, hamımızın komandasıdır!

Qurbanın köhlən atları 44 günlük Vətən müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş YAŞMA kimi çarpışdı meydanda. Əsgər və zabitlərimizin müharibədə göstərdiyi şücaəti Qurbanın uşaqları da meydanda göstərdi.

**"Qarabağ" hamımızındır!**
**"Qarabağ" Azərbaycandır!**
**Uğurlar "Qarabağ"!**

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 91 (5923) 23 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

## İran-Azərbaycan münasibətlərindəki gərginlik yumşalır

Bax:səh-2

# Prezident açılışlar etdi




Bax:səh-2

## Yol polisi bu sürücülərə xəbərdarlıq etdi



**Bakı Şəhər Dövlət Yol Polisi "saxla" əmrinə tabe olmayan sürücülərə xəbərdarlıq edib.**

Bu barədə Adalet.az-a açıqlamasında idarənin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib.

Onun sözlərinə görə, son zamanlar bəzi sürücülərin yol polisi tərəfindən nəqliyyat vasitəsinin saxlanmaq tələbini yerinə yetirməməsi kimi hallarla rastlaşılır:

"Bu cür hallar daha sonra polis işçisinin ictimai qaydanın mühafizəsi vəzifəsini icra edərkən onun qanuni tələblərinə qəsdən tabe olmaması hallarına gətirib çıxarır. Bu vəziyyət isə yollarda sürücülərin və hərəkətin digər iştirakçılarının həyat və sağlamlıqları üçün ciddi təhlükə yaradır. Belə məsuliyyətsiz addımları atan sürücüləri cərimə ilə yanaşı, inzibati həbs cəzası da gözləyir.

Bir daha sürücülərə müraciət edirik ki, hüquqla qorunan qaydalara hörmətlə yanaşsınlar, özlərini və ətrafdakı insanları təhlükəyə atmasınlar. Qanunların tələbləri çərçivəsində həyat tərzi keçirmək bizi məsuliyyətdən və bədbəxt hadisədən qoruyur".

## Fəxrəddin Altun Ermənistanın təxribatlarından danışdı



**"Vətən müharibəsində Azərbaycan Ordusu erməniləri məğlubiyyətə uğratdıqca, Ermənistan mülki əhaliyə və infrastruktura qarşı hərbi cinayətini davam etdirirdi".**

Adalet.az-ın məlumatına əsasən, bunu Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fəxrəddin Altun İstanbulda keçirilən Türk Şurası Media Forumunda bildirib. O deyib ki, Ermənistan beynəlxalq konvensiyalarla qadağan olunmuş silahlardan istifadə etməklə cinayət törədib. "Ermənistan Gəncə, Mingəçeviri atəşə tuturdu. Bir il öncə ermənilər silahlarını günahsız insanlara yönəltmişdi, gözlərini Azərbaycan torpaqlarına, iqtisadiyyatına, enerji xətlərinə dikmişdi", - deyə o əlavə edib. Fəxrəddin Altunun sözlərinə görə, Türkiyə Vətən müharibəsində Azərbaycanla birgə mübarizə aparmaq şərəfinə nail olub: "44 gün boyunca bir yandan Azərbaycanın haqlı mübarizəsinin dünyaya çatdırılmasına töhfə verərkən, digər tərəfdən də dezinformasiyalara qarşı birgə mübarizə apardıq".

## Bakıdan "Kayrat"ı aparan təyyarə qəzaya uğradı

**Konfrans Liqasının qrup mərhələsinin III turunda "Qarabağ"la qarşılaşan "Kayrat" Bakıdan Qazaxıstana qayıdanda qəzaya uğrayıb.**

Adalet.az Qazaxıstan mətbuatına istinadən xəbər verir ki, komandanı ölkəyə qaytaran hava gəmisi Almatı Hava Limanında avtomobillə toqquşub.

Yerli vaxtla səhər saat 7 radələrində baş verən fövqəladə hadisə zamanı "Renault" markalı avtomobil "FlyJet" şirkətinə məxsus təyyarənin altında qalıb. Hadisənin hansı şəraitdə baş verdiyi araşdırılır və bununla bağlı istintaq başladılıb. Toqquşmadan sonra sərnişinlər təcili təxliyəni gözləyərək bir saatdan çox təyyarədə qalıblar. Ölən və yaralanan yoxdur.

## Qəzada həlak olan şəhid xanımı maşını özü sürürmüş



**Daxili İşlər Nazirliyi Kürdəmir rayonunda baş vermiş və şəhidin həyat yoldaşının ölümü ilə nəticələnən qəza ilə bağlı məlumat yayıb.**

Nazirliyin Mətbuat Xidmətindən Adalet.az-a verilən məlumata görə, oktyabrın 21-də saat 14:00 radələrində Kürdəmir rayonunun Şüşün kəndi ərazisində Bakı şəhər sakini Günel Ələsgərova (şəhid Rəhim Hüseynovun arvadı) idarə etdiyi "Ford" markalı avtomobili aşırıb. Nəticədə özü və sərnişini Emin Tağıyev hadisə yerində ölüb. Hadisə ilə əlaqədar Kürdəmir Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## AUKUS -un yaranması region üçün təhlükədir

*Nüvə statusu olmayan Avstraliyada, ABŞ və Böyük Britaniyanın iştirakı ilə hərbi nüvə infrastrukturunun yaradılması, regionda təhlükə riskini artırır. Bu barədə RİA Novostiyə müsahibə verən Rusiya XİN -in xüsusi tapşırıqlar üzrə səfiri Qriqori Maşkov bildirir ki, " AUKUS əməkdaşlığının yaranmasını diqqətlə izləyirik. Burada nüvə ölkəsi olmayan dövlətin ərazisində nüvə infrastrukturuna malik hərbi bazanın yaradılması, beynəlxalq və regional təhlükəsizlik üçün real risk yaradır". ABŞ, Böyük Britaniya və Avstraliyanın AUKUS alyanısının yaradılması, regionun digər dövlətlərinin də potensial təhlükə qarşısında buna bənzər hərbi alyans yaratmaq məcburiyyətində qoyur. "Rusiya bu əməkdaşlığı diqqətlə araşdırır və yaqin ki, cavab addımlarını atılacaq"- deyə Maşkov bildirib.*

## "İndiyədək 18 min hektardan çox ərazi təmizlənib"



**2020-ci il 10 noyabr üçtərəfli bəyanatından indiyədək 18 min hektardan çox ərazi təmizlənib.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Türkiyənin "Anadolu" Agentliyinə müsahibəsində deyib.

O qeyd edib ki, Azərbaycanın işğaldan azad etdiyi Qarabağ bölgəsi və ətraf ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın müddətdə döşənən minaların təmizlənməsi tədbirləri davam edir:

"İkinci Qarabağ müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan 2021-ci il oktyabrın 15-dək 18302 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib:

Həmin ərazilərdə 22 230 partlamamış hərbi sursat, 17 426 piyada əleyhinə mina, 8 755 tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. İşğaldan azad edilən ərazilərdə minatəmizləmə işləri fasiləsiz davam edir".

Sədr həmçinin bildirib ki, bu işlər ilk olaraq magistral, dəmir yolu, obyekt və yaşayış yerləri üçün nəzərdə tutulan ərazilərdə aparılır.

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## Bakıda daha bir məktəb distant tədrisə keçib



**Paytaxtdakı 124 nömrəli tam orta məktəbin fəaliyyəti distant təhsil formasında davam etdiriləcək.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən Adalet.az-a verilən məlumata görə,Belə ki, 124 nömrəli tam orta məktəbin 4 şagirdi və 9 müəlliminin COVID-19 infeksiyasına yoluxması təsdiq olunub. Bu səbəbdən Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında 124 nömrəli tam orta məktəbdə əyani tədris prosesi 14 gün müddətinə distant təhsillə əvəz olunub. Qeyd edək ki, ölkə üzrə tədrisə başlanılan tarixdən indiyədək 4432 ümumi təhsil müəssisəsindən 19 məktəb (0,4 faiz), 89 674 sinifdən 505 sinif (0,6 faiz) distant formaya keçirilib. Bu siniflərdən 72-də əyani təhsil forması artıq bərpa edilib. Hazırda 433 sinif distant formada tədrisə davam edir.

## Qırğızıstan Türkiyədən "Bayraqdar" alır

**Qırğızıstan Türkiyədən "Bayraqdar TB-2" PUA-ları alır. Bu məlumatı Qırğızıstan Milli Təhlükəsizlik Komitəsinin rəhbəri Qamçıbek Taşiyev yayıb.**

"PUA-ları istifadə edəcək şəxslər Türkiyədə təhsil alıblar. Bu PUA-lar tezliklə ölkəmizə gələcək", - deyə Taşiyev bildirib.

## Badamdardakı sürüşmə sahəsində son vəziyyət açıqlandı



**"Badamdarda 20-ci sahədə baş verən sürüşmə zonasında ikinci terras üzrə dəmir-beton suvayların hörülməsi işləri həyata keçirilir".**

Adalet.az xəbər verir ki, bunu Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərinşaatlayihə" inustutunun geoloji axtarış şöbəsinin rəisi Samir Vəliyev jurnalistlərə açıqlamasında deyib.

"Bu mərhələ də yekunlaşandan sonra isə yamacın yuxarı hissəsində ankerlənmə işləri davam edəcək. Bu da yamacmərkitmə işlərinə aiddir. Burada dərinliyi 5-6 metr olmaqla ankerlər vurulacaq və daha sonra üzəri betonla hamarlanacaq. Bu işlər bitəndən sonra isə sürüşmə sahəsində ehtimal olunan infiltirasiya olunmuş digər suları kənarlaşdırmaq üçün qaleriyalar quraşdırılacaq. Tam yekunlaşan zaman isə yamacda abadlıq işləri aparılacaq", - o vurğulayıb.

## GÜNÜN LƏTİFƏSİ

Dəlixanada iki dəli eyni otaqda qalırlar. Səhəri gün dəlilərdən biri gözətçiyə deyir:

**- Mənim yanımda qalan dəli məni yatmağa qoymur.**

- Niyə?

**- Başına vedrə keçirib əlini divardakı deşiyə soxub deyir ki, mən lampayam.**

- Burda problem nədir ki?

**- Elə eləyəndə yata bilmirəm, gözümə işıq düşür axı...**

# Prezident açılışlar etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və qızları Leyla Əliyeva oktyabrın 22-də Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində yaradılan şərait barədə məlumat verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslərin, o cümlədən, müharibə əlillərinin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir. Mərkəzin tikintisi "PAŞA Holding" tərəfindən maliyyələşdirilib, arxitektura, layihələndirmə və təşkilati dəstək isə "Cobalt Architecture and Design" şirkəti tərəfindən təmin edilib. Mərkəz sosial tərəfdaşlıq prinsipinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilib.

Burada əlilliyi olan şəxslərə milli və Avropa kulinariyası üzrə 15 yaşdan yuxarı 5 nəfərlik qrup üçün təlim, həmçinin kulinariya yarmarkalarının keçirilməsi, kulinariya verilişlərinin çəkilməsi nəzərdə tutulur.

Mərkəzdəki audio-səsyazma studiyasında vokal bacarıqların inkişaf etdirilməsi, audio disklərin və solo albomların yazılması, video-çarxların, sənədli və bədii filmlərin, teletamaşaların dublyaj edilməsi nəzərdə tutulur. Studiyada yaş məhdudiyyəti yoxdur.

Floristika və landşaft dizaynı studiyasında isə dekorativ-tətbiqi sənət və dizayn növü olan floristika və landşaft dizaynının təlimi, süni, qurudulmuş və canlı güllərdən ibarət natürmortların hazırlanması, gül kompozisiyalarının yığılması, terrarium və bitki rezervuarlarının dizaynı və quraşdırılması nəzərdə tutulur. Studiyada eyni vaxtda 8 nəfərə, gün ərzində 2 qrupa təlimlərin keçirilməsi mümkündür. Təlimlərdə yaşı 10-15-dən yuxarı olan şəxslər iştirak edə bilərlər. Metal və ağac oyma studiyasında dekorativ-tətbiqi sənətin növü olan ağac, metal, daş üzərində bədii oyma sənəti tədris ediləcək. Studiyada artıq ağac üzərində oyma üsulu ilə hazırlanmış musiqi alətləri, milli mədəniyyət abidələri, heykəl və fiqurlu kompozisiyalar təqdim olunur. Bu studiyada eyni vaxtda 8-10 yaşdan yuxarı 6 nəfərə, gün ərzində 2 qrupa təlimin keçirilməsi mümkündür. Xalçaçılıq, tikiş, toxuma və tikmə studiyasında dekorativ-tətbiqi sənətin əsas növü olan Azərbaycan xalçaçılıq sənəti və onun mühüm 7 xalçaçılıq məktəbinin əsasları tədris ediləcək. Burada ilmə-naxış texnikası, rəng ahənginin seçilməsi, yun iplərin boyanması, bədii tikmə növünün ən qədim və geniş yayılmış pilətikmə forması, qızılı saplarla, muncuqla milli və müasir geyimlərin işlənməsi, dizaynı öyrədiləcək. Studiyada eyni vaxtda 6-8 yaşdan yuxarı 7 nəfərə təlimin keçirilməsi mümkündür. Gün ərzində hər sahə üzrə bir qrup tədris prosesində iştirak edəcək.

Musiqi studiyasında Azərbaycan milli musiqi sənətinin, çalğı, vokal dərslərinin tədrisi nəzərdə tutulur. Studiyada çalğı, vokal qabiliyyəti, musiqi biliyi olan 4 yaşdan yuxarı 20-25 nəfər eyni vaxtda təlimlərə qatılacaq. Gələcəkdə əlilliyi olan musiqiçilərdən ibarət instrumental və vokal ansamblın yaradılması nəzərdə tutulur.

Mərkəzin açıq havada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş həyətyanı sahəsi də var. Burada reabilitasiya məqsədi ilə meditasiya, yoqa və digər fiziki təlimlərin, müxtəlif sərgilərin, satış-sərgi yarmarkalarının təşkili, floristika və landşaft dizaynı üzrə təlimlərin, həmçinin pavilyon kimi istifadə edilərək inklüziv televiziya verilişlərinin çəkilməsinə şərait var. Mərkəzin keramika studiyasında dulusçuluq sənət növü üzrə bacarıqlar, o cümlədən keramik əşya, dekorativ məmulatların hazırlanması və rənglənməsi, farfor qablar və dekorativ məmulatların milli naxışlarla bəzədilməsi, dekorativ heykəltəraşlıq öyrədiləcək. Studiyada eyni vaxtda 8 yaşdan yuxarı 9 nəfərə təlim keçirilməsi mümkündür. Təsviri sənət studiyasında kətan üzərində yağlı boya, akvarellə, kağız üzərində qrafiti və tuş, vitraj boya vasitəsilə şüşə üzərində, sulu boya ilə ipək üzərində rəsm sənətinin öyrədilməsi nəzərdə tutulur. Studiyada 5 yaşdan yuxarı eyni vaxtda 10 nəfərə, gün ərzində 2 qrupa təlim keçiriləcək.

Rəqs zalında fiziki məhdudiyyətli və peşəkar insanların birgə rəqs təliminin keçirilməsi və gələcəkdə peşəkar inklüziv rəqs kollektivinin yaradılması nəzərdə tutulur. Həmçinin burada yerli və xarici xoreoqraflarla təlimlər və ustad dərsləri də planlaşdırılır. Zalda eyni vaxtda 30 nəfərə rəqs dərslərinin keçirilməsi mümkündür. Peşəkar rəqs təlimində iştirak edən əlilliyi olan şəxslər 10-34, inkişaf rəqqasları isə 15-34 yaş arasında olacaqlar. Digər fizioloji reabilitasiya təlimində isə 5 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. Mərkəzin 121 nəfərlik auditoriyasında kinoteatr və teletamaşaların təqdimatı mümkündür. Səhnədə müasir plastika, musiqili janr üslublu və emosional teatr quruluşlarının, müxtəlif musiqili konsert proqramlarının, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi üçün şərait yaradılıb. Burada sosial müəssisə sakinləri üçün ödənişsiz film nümayişləri planlaşdırılır. Səhnədə eyni vaxtda 25-30 nəfər tərkibdə teatr tamaşalarının və konsertlərin keçirilməsi mümkündür. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reallaşdırdığı "Bərabərik" televiziya layihəsi və inklüziv teatrlarla bağlı məlumat verilib.

Mərkəzdə kitabxana da yaradılıb. Burada Azərbaycan milli ədəbiyyatına, həmçinin xarici dillərdə müxtəlif peşə və sənət tədrisinə dair kitablar var. Kitabxanada görmə məhdudiyyətli şəxslərin bədii yaradıcılığının inkişafı üçün brayl əlifbası ilə kitablardan ibarət guşələrin yaradılması, əlilliyi olan şəxslərin kitablarının təqdimatının, məşhur yazıçıların iştirakı ilə qiraət günlərinin, yerli və xarici yazarların imza günlərinin keçirilməsi nəzərdə tutulur.

İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində 60 nəfər işçi heyət və "Könüllü DOST" üzrə 20 nəfər könüllü fəaliyyət göstərəcək.

**Mərkəzin yaxınlığındakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı və qızları Leyla Əliyevanı salamlayıblar.**

# İran-Azərbaycan münasibətlərindəki gərginlik yumşalır

**44 günlük Zəfər qələbəsindən bir müddət sonra İran İslam Respublikası Azərbaycan sərhədləri yaxınlığında "Xeybər fatehləri" adı altında hərbi təlimlərə başladı. İranın siyasi rəhbərliyi əvvəlcə hərbi təlimlərin bölgədə "siyasi stabillik və sülh naminə apardıqlarını bildirsələr də, sonradan hərbi rəhbərliyin təmsilçiləri guya bölgədə sionist təhlükəsizliyinin yaranması ilə izah etməyə başladılar.**

Əslində gərginlik Azərbaycan -Gorus yolunda Ermənistana, ordan isə qanunsuz olaraq Qarabağda qalan ermənilərə İran tirləri ilə daşınan yüklərin Azərbaycan polisinin yolun Azərbaycana məxsus hissəsində yaratdığı postlarda saxlanılmasından sonra başlanmışdı. Azərbaycan tərəfinin beynəlxalq qaydalara görə haqlı hərəkətləri nədənsə İran tərəfini qıcıqlandırmağa başlamışdı. İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvinin Prezident köməkçisi Hikmət Hacıyevlə görüşündə İranın Azərbaycan ərazilərinə qanunsuz yük daşımaları barədə toplanmış sənədlər onun nəzərinə çatdırılmış və bu halların yolverilməz olduğu bildirilmişdi. Lakin İran güc göstərmək siyasətinə üstünlük verərək, guya Azərbaycan -İran sərhədləri yaxınlığında öz-



lərinə düşmən saydıqları İsrail kəşviyyatını bazalar yaratmaq bəhanələri ilə açıq hədələrə keçməyə başlamışdı. Nəhayət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 ilə yaxın işğal dövründə və hətta ondan sonra da İran tərəfinin separatçılara verdiyi dəstəyin müəyyən hissələrinə açıq münasibət bildirməsindən, hazırda da İran maşınlarının qanunsuz olaraq Azərbayanın ermənilər yaşayan Qarabağ bölgəsinə yanacaq və digər məhsullar göndərməsi barədə əlimizdə olan faktları açıqlamasından sonra, İran tərəfi nisbətən yumşalmağa başladı. İran tərəfi uzun illər Ermənistanın işğal etdikləri ərazilərdən gömrük rüsumlarını ödəmədən Rusiya və Qərbi Asiyaya mallar daşıyırdı. Məhz buna görə, Prezident İlgam Əliyevin də dediyi kimi, "Niyə ermənilər Cəbrayıl, Zəngilan və Füzulidə olarkən heç bir hərbi təlim keçirmirdi? Niyə biz bu torpaqları azad edib 30 illik əsarətə və işğala son qoyandan sonra edilir?" Hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq-bərpa işlərində çalışanlardan başqa bu yerlərdə demək olar ki, heç kimin yaşamadığı yerlərdə hansısa dövlətin İrana qarşı nəsə etməsinin mümkünsüz olduğunu və ümumiyyətlə bundan sonra da Azərbaycanın ərazilərindən qonşu dövlətlərə qarşı hər hansı bir əməliyyatın aparılmasına icazə verilməyəcəyini bildirən Prezident İlham Əliyevin sərt bəyənatından sonra İran tərəfi səhvlərini anlamağa başladı. Artıq İran rəhbərliyi İran şirkətlərinə Qarabağ bölgəsinə yük daşımalarının həyata keçirilməsinə qadağa qoyub. İran Azərbaycan daxil bütün qonşuları ilə "dostluqlarını elan edib".

**İran rəsmisi Əhməd Vahidi bildirib ki, "Əgər bəzi məsələlər və yalnış anlaşma varsa, bunlar diplomatik yolla çözüləcək" və sonra o, əlavə edib ki, bununla daxili işlər nazirliyi məşğul olur. Azərbaycan-İran arasında yaranan gərginliyi təhlil edən ekspertlərin fikiruncə, bu gərginlik münasibətlərə ciddi təsir etməyəcək və getdikcə səngiyəcək. Doğrudan da, son günlər münasibətlərin yumşalması müşahidə olunmaqdadır.**

**Rüstəm Hacıyev**

# Putin digər vasitəçilərə ehtiyac görmür

**Beynəlxalq "Valday" Beynəlxalq diskussiya klubunun Soçidə keçirilən XVIII konfransında çıxış edən Rusiya prezidenti Azərbaycan-Ermənistan cəbhəsindəki son durum üzərində də geniş dayanıb və kifayət qədər açıq və sensasiya sayıla biləcək fikirlər səsləndirib. Sözünün əvvəlində həm Azərbaycan prezidentinin, həm Ermənistan baş nazirinin siyasi müdrikliyini xüsusi vurğulayan Putin daha sonra 44 günlük müharibəni nəzərdə tutaraq deyib:**

"Hadisələrin ağır faciəvi hal almasına baxmayaraq onlar cari siyasi konyukturanın fövqündə duraraq məsuliyyətli qərar qəbul edə bildilər. Nə qədər qəribə də olsa mən hər iki tərəfdə öz rəhbərlərinin ünvanına iradlar söyləyənlərin olduğunu yaxşı bilirəm. Nədənsə narazı olan və ya nəyisə daha yaxşı eləməyin mümkün olduğunu söyləyən siyasi qüvvələr həmişə olub və olacaq. Buna qarşı "buyurun, daha yaxşı edin" deyə bir cavab da olacaq. Amma hər halda prezident Əliyev və baş nazir Paşinyan qan tökülməsinin qarşısını ala bildilər".

O öz sözlərinə davam edərək deyib: "Düzdür, insan həyatını qorumaqdan vacib bir şey olmasa da, hər halda belə bir vacib məqam da var ki, bütövlükdə regionda uzun müqddətli nizamlamaya şərait yaratmaq lazımdı. Belə bir şərait yalnız o halda yarana bilər ki, hər iki tərəf əldə olunan razılığı uzunmüddətli razılaşma kimi qəbul eləsin, hər iki tərəf dinc yanaşı yaşamağın üstünlüklərini qəbul eləsin.

Bu hamıya lazımdı. Azərbaycan Naxçıvanla normal əlaqələr yaratmaqda, Ermənistansa kommunikasiyaların bərpasında maraqlıdı. Effektli iqtisadi düzən yaratmaq, region ölkələri, o cümlədən gələcəkdə Azərbaycanla effektli əlaqələr qurmaq, Türkiyə ilə münasibətlər yaratmaq prinsipcə Ermənistanın maraqları daxilindədi. Bu bütün hallarda əsas məqsədə - iki dövlətin təhlükəsiz halda dinc yanaşı yaşaması və iqtisadi inkişafına şərait yaradılmasına gətirib çıxardacaq"…

Putin daha sonra deyib: "İndi başlıca məsələ sərhədlərdəki vəziyyəti tənzimləməkdi. Əlbəttə, burda Rusiyasız heç nə eləmək mümkün olmayacaq.



Bu məsələdə Rusiya və hər iki münaqişə tərəfindən başqa heç kim lazım deyil. Niyə? Çox sadə praqmatik məsələlər var. Ona görə ki, xəritələr rus ordusunun baş qərargahındadı. Sovet dövründə sovet respublikaları arasında sərhədlərin hardan keçdiyini göstərən xəritələr. Bu sənədlərə əsaslanaraq məsələni sakitcə həll etmək olar. Orda elə şeylər var ki, qarşılıqlı kompromislər tələb edir. Hardasa nəyisə tənzimləmək, hardasa, nəyisə dəyişmək, hər iki tərəfə xeyirli olan variantlar tapmaq ehtiyacı hiss olunur ki, qəbul olunsun. Bunu etmək mümkündümü? Mümkündü.

Əlbəttə, biz çoxtərəfli format da tapa bilərdik. Məsələn, deyək ki, Minsk qrupunun işini fəallaşdıra bilərdik. Biz bunun üzərində işləyirik. Eləcə də tərəfdaşlarımızla. Başlıcası əsas məqsədə çatmağa, yəni təhlükəsiz situasiya yaratmağa və gələcək müsbət yönlü münasibətlərin qurulmasına nail olmaqdı. Hələ ki biz bütövlükdə öz qarşımıza qoyduğumuz məqsədlərə çata bilirik.

**Əlbəttə, gələcəyə baxmaq lazımdı, baxmaq lazımdı ki, bundan sonra nə olacaq. Məsələ onda deyil ki, bizim Bəyanatda (Üçtərəfli bəyanat" nəzərdə tutulur-red.) Rusiya kontingentinin regionda qalma müddətinin uzadılması nəzərdə tutulub. Məgər məsələ bundadı? Məsələ iki ölkə arasında münasibətlərin qurulmasındadı.. Əsas budu. Ümid edirəm ki, biz buna müvəffəq olacağıq"- deyə Putin söyləyib.**

**ADALET.AZ**

# Arzuxan Əlizadə: "Həyəcan təbili çalsaq da buna göz yumulub..."

**Bu günlərdə Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi əməliyya nəticəsində İlqar İbrahimoğlu, Sərdar Babayev, Cəlal Şəfiyev, Qadir Məmmədov vəTəmkin Cəfərovun saxlanılması barədə məlumatlar yayıldı. Sonradan Hacı İlqar evə buraxılsa da, digərləri ilə hələ də sorğu-sual prosesi davam edir.**

Ümumiyyətlə, son günlər İranmeyilli qüvvələrin sosial şəbəkələrdə aktivliyi, onların rahat dövlətçiliyimizi təhdid etməsi cəmiyyətimizdə haqlı olaraq narazılıq yaradırdı. Vətəndaşlarımız bu "İranameylli insanların hər cür təxribatlara əl atacaqlarından narahatdır. Bu səbəbdən DTX-ın bu məliyyatını insanlar alqışladılar. Bununla belə təhlükə hələ də qalır. Çünki İran üzdə özünü sakitləşmiş kimi gprünsə də təbii reallıqda bunun tam əksinə yenə də din faktorundan istifadə edərək burda özünə yeni- yeni "əlaltılar" yetişdirməkdə davam eedəcək.



Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə sözü gedən mövzuda "Adalet.az"-a danışarkən bildirdi ki, İranın son illər yürütdüyü erməniпərəst və bununla yanaşı anti-Azərbaycan mövqe səbəbindən yaranmış gərginlik fonunda DTX-nın həyata keçirdiyi əməliyyat təqdirəlayiqdir. "Ötün müddət ərzində İran Ermənistandan yardımlarını əskik etməyib. Xüsusən 44 günlü Vətən Müharibəsi dövründə İranın Ermənistana gedən hərbi yüklü avtoçobillərin öz ərazisindən keçməsinə icazə verməsini unutmadıq.

Müharibədən sonra İranın Qarabağdakı separatçıların Azərbaycana qarşı güclənməsində dəstək verməsi də sübut edir ki, bu qonşu ölkə heç də qardaş və dindaş deyil. 30 il ərzində İran ermənilərin Azərbaycan ərazisindəki məscidlərin dağıdılmasına göz yumub. Bu səbəbdən kimlərinsə İranın din pərdəsi altında yürütdüyü hiyləgər siyasətə inanıb onun köləsinə çevrilməsi vətənə xəyanətdir. İran 30 il əzrzində din pərdəsi altında Azərbaycanda özünə dəstək qrupları yaratmaqla məşğul olub. Təəssüflər olsun ki, bu təhlükə müvafiq qurumlar tərəfindən vaxtında nəzarət alınmayıb, əksinə onlara rahat fəaliyyət üçün şərait yaradılıb. İranın ali dini rəhbərinin Azərbaycanda xüsusi nümayəndəsi Ocaqnejadın Bakıda rahat anti-Azərbaycan fəaliyyətinə vaxtında diqqət yetirilməyib. Onun bilavasitə təşkilatçılığı ilə azərbaycanlı gənclərin dini təhsil almaq adı altında İrana göndərlib orda Azərbaycanın əleyhinə yetişdirilməsi barədə uzun illər boyu cəmiyyətimizdə həyacan təbili çalsaq da buna göz yumulub. Ona görə də İran-Azərbaycan münasibətlərinin kəskinləşdiyi bir vaxtda bəzi dindarların ölkəmizi təhdid etməsinə təhlükəsizlik orqanlarının səssiz qalmamasını alqışlayırıq. Bu gün sosial şəbəkələrdə iranameyilli insanlar tərəfindən Azərbaycan əleyhinə təbliğat aparılır. Ona görə də DTX əməkdaşları bu məsələni daha ciddi formada diqqətdə saxlamalıdırlar. İranın Azərbaycan əleyhunə çalışdırdığı başqa insanlar da aşkar edilib həbs olunmalıdırlar.

**İltifat HACIXANOĞLU**

## Mikayıl Cabbarov Monqolustanın xarici işlər naziri ilə saziş imzaladı



**Oktyabrın 21-də Azərbaycan Respublikası Hökuməti və Monqolustan Hökuməti arasında Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş imzalanıb.**

İqtisadiyyat Nazirliyindən Adalet.az-a verilən məlumata əsasən, sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və Monqolustanın xarici işlər naziri Battsetseq Batmunxiin imzalayıblar.

Sənəddə Monqolustanla iqtisadi əməkdaşlıq sahəsində müqavilə-hüquq bazasının təkmilləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı, ticarət, investisiya, nəqliyyat-tranzit, turizm və s. sahələrdə əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur.

Bununla əlaqədar videoformatda keçirilən tədbirdə Mikayıl Cabbarov Azərbaycan-Monqolustan siyasi-iqtisadi əlaqələrinin inkişaf etdiyini, tərəfdaşlığın inkişafında keçirilən yüksək səviyyəli görüşlərin xüsusi rolunu qeyd edib. Nazir Azərbaycanda həyata keçirilən islahatlar, əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizin yerli və xarici investisiyalar cəlb edilməklə ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində görülən işlər barədə məlumat verib.

Görüşdə 2030-cu ilədək ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər diqqətə çatdırılıb, Monqolustan şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştiraka dəvət edilib, iş adamları arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Monqolustanın xarici işlər naziri Battsetseq Batmunxiin ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsində maraqlı olduğunu bildirib, iqtisadi əməkdaşlığın inkişafı barədə fikirlərini bölüşüb.

Görüşdə bu gün imzalanan Azərbaycan Respublikası Hökuməti və Monqolustan Hökuməti arasında Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Sazişin qarşlıqlı ticarət və investisiya əlaqələrinin gücləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## BMT və Azərbaycan arasında yeni anlaşma memorandumu imzalanıb

**BMT və Azərbaycan arasında korporativ məsuliyyəti və dayanıqlı biznesi təşviq etmək üçün Anlaşma Memorandumu imzalanıb.**

Adalet.az-ın məlumatına görə, sənədi BMT-nin Azərbaycandakı əlaqələndiricisi Vladanka Andreyeva və İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədr əvəzi Osman Xaliyev imzalayıb.

V. Andreyeva bildirib ki, 3 il müddətinə imzalanmış memorandumu Dayanıqlı İnkişaf Məqsədləri üzrə milli hədəflərlə uyğunlaşdırılmış 5 sosial-iqtisadi inkişaf prioritetini əhatə edəcək:

"Tərəflər həmçinin BMT-nin Qlobal Sazişinin əmək-insan hüquqları, ətraf mühitin mühafizəsi və korrupsiyaya qarşı mübarizəyə dair 10 prinsipini Sahibkarlığın İnkişafı Fondu, eləcə də nazirlik yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin maliyyə alətləri və proseslərinə inteqrasiya etmək üçün birgə tədbirlər görəcəklər. Biz bu çərçivədə işləməyə hazırıq".

**Qeyd edək ki, 160-dan çox ölkədən 12 min şirkət və 3 min qeyri-biznes qurumunu, eləcə də 60-dan çox yerli şəbəkəni bir araya gətirən BMT-nin Qlobal Sazişi dünyanın ən böyük korporativ dayanıqlılıq təşəbbüsüdür. Bu saziş şirkətləri öz strategiya və fəaliyyətlərini 10 prinsipə uyğunlaşdırmağa, BMT-nin 2039-cu ilə qədərki Dayanıqlı İnkişaf Gündəliyinə töhfə verməyə çağırır. Sənədin 10 prinsipi İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, İşdə əsas prinsiplər və hüquqlar üzrə Beynəlxalq Əmək Təşkilatının Bəyannaməsi , Ətraf Mühit və İnkişaf haqqında Rio Bəyannaməsi və BMT-nin Korrupsiya əleyhinə Konvensiyası əsasında hazırlanıb.**

## Tramp bütün həqiqətləri danışacaq



**ABŞ -ın eks prezidenti Donald Tramp sosial şəbəkələrdə özünün "Pravda" adlı saytını açmağa hazırlaşır. KİV -lər tanınmış sovet qəzetinin adı altında açılacaq saytı gülüşlə qarşılayıb. Amma Ağ Evin keçmiş sahibi qətiyyətlə inanır ki, bu hazırki prezidentin komandası ilə mübarizədə ona kömək olacaq. Nəzərə alınmalıdır ki, hazırda Trampın nüfuzu Co Baydenin nüfuzunu qabaqlayır və epataj siyasətçi diqqətləri özünə çevirməyin yollarını yaxşı bilir.**

"Biz "Talibanın" Twitter səhifələrində böyük təsirini müşahidə edirik. Onlar sizin sevimli prezidentinizi susmağa məcbur edirlər. Buna yol vermək olmaz"- deyə Tramp aydınlıq gətirib. O, istəyir ki, onun şəbəkəsi, onunla yola getməyən liberalların KİV-ləri ilə rəqabət aparsın. Liberallar Trampı qalmaqallı marginal kimi təqdim edirdilər. Onun Ağ Evə gəlişindən sonra da vəziyyət dəyişmədi.

Dövlət başçısını tənqid edən jurnalistlər brifinqlərə buraxılmırdı. Tramp onları feyk-nyus yaymaqda günahlandıraraq, "amerikan xalqının düşmənləri" adlandırırdı.

Tramp konservativ Fox News telekanalı istisna təşkil edirdi. Qalan KİV -ləri isə o, loyal sayırdı. Seçiciləri ilə sosial şəbəkələr vasitəsi ilə birbaşa canlı yayımlar vasitəsi ilə əlaqə yaradırdı. Twitter-də onun 88 milyon, Facebook-da 35 miyona yaxın, İnstaqrqm-da isə 25 milyona yaxın abunəçisi var idi.

Lakin Kapitoliyaya hücumdan sonra İT hegemonları onun akkauntlarını blokladı. "Onların bu hərəkəti utancdır, olkəmizə baş alçaqlığı gətirir"- deyə Tramp məsələlərə reaksiya verirdi. Eks örezidentin, eks məsləhətçisi Ceyson Miller, Trampın nailliyyət qazanacağına əmindir: "İndi Facebook və Twitter öz bazarlarının bir hissəsini itirəcəklər".

İnternetdə bu məsələyə memlərlə reaksiyalar verilir. Amerikan seqmentində Trampı əlində rusiyanın "Pravda" qəzeti, Buratinonun uzun burnu şəkilində paylaşırlar. Rus rəssamı Valentin Serovun məhşur əsərinə bənzər, amerikalının Lenin obrazında əlində "Pravda" qəzeti, sovet hakimiyyətinin qurulmasını elan edir, formasında yayımlayırlar.

**Ağ evin keçmiş rəhbəri isə, bunlara əhəmiyyət vermir və bsşlayacağı işə ciddi hazırlaşır.**

**Rüstəm Hacıyev**

# DİN Bakıda əməliyyat keçirdi: 48 nəfər saxlanıldı

**Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı rayon ərazisində apardıqları mübarizə tədbirləri davam etdirilir.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Həyata keçirilən növbəti əməliyyatlar nəticəsində rayonun Hövsan, Qaraçuxur, Əmircan, Bül-bülə Yeni Suraxanı və Yeni Günəşli qəsəbələrində narkotik vasitələrin dövriyyəsi və satışı ilə məşğul olan 48 nəfər saxlanılıb, həmin ərazilərdə narkotik vasitələrin qəbul edildiyi "tiryəkxana"lar müəyyən edilib.

Belə ki, əməliyyat zamanı əvvəlcə rayon ərazisində narkotik vasitələrin satışı ilə məşğul olan Radik Mamedov və Anar Cəbiyev saxlanılıblar. Radik Mamedovun üzərindən və idarə etdiyi avtomobildən 1 kiloqram 496 qram heroin, 99 qram tiryək və 19 qram metamfetamin, Anar Cəbiyevdən isə 110 qram heroin aşkar edilərək götürülüb. Onların ətrafında aparılan araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər xarici ölkələrdə yaşayan və Azərbaycana qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərən narkotacirlərlə əlaqələr yaradaraq narkokuryerliyə cəlb ediliblər. Bu şəxslər paytaxt ərazisində narkotiklərin satışını təşkil ediblər.

Həyata keçirilən digər əməliyyat zamanı isə Suraxanı rayonunda narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Rahid Zeynalov da saxlanılıb. Onun üzərinə baxış zamanı heroin aşkar edilib. Ətrafında araşdırma aparılan zaman Rahid Zeynalovun paytaxt ərazisində 15 evdən oğurluq etdiyi də məlum olub.



Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri daha bir əməliyyat zamanı Hövsan qəsəbəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan daha 14 nəfər - Mirdamət Ağayev, Rinat Bəbirov, Anar Əsgərov, Elmir Paşayev, Samir Bağırov, qohumu Vaqif Bağırov, Elnur Qurbanov, Nicat Hüseynov, Elçin Seyidov, Fuad Ruma, Rəşadət Nuriyev, Məcid Həsənov, Elçin Səfərov və Əhməd Əliyev saxlanılaraq ərazi üzrə 30-cu Polis Şöbəsinə gətiriliblər. Onların üzərində şəxsi axtarış aparılan və evlərinə baxış zamanı satış məqsədi ilə əldə etdikləri külli miqdarda heroin və elektron tərəzilər aşkar edilib.

Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri digər əməliyyatlar zamanı Əmircan və Bülbülə qəsəbələrində narkotik vasitələrin qanunusuz dövriyyəsi ilə məşğul olan daha 15 nəfər saxlanılıb. Əməliyyat nəticəsində paytaxt sakinləri Şəhriyar Zülfüqarzadə, Tural Şahmuradov, Nicat , Elvin və Qərib Məmmədovlar, Murad Babayev, Ruslan Hüseynli, Əmrah Osmanov, İslam Səlimov, Sübhan Mustafazadə, Əli Ağayev, Aslan İslamov, Röyal Məmmədli, Cavanşir Axundov və Kənan Sadıqov saxlanılıblar.

Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri növbəti əməliyyatlar zamanı Yeni Günəşli, Qaraçuxur və digər ərazilərdə narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan daha 26 nəfər saxlanılıb. Əməliyyatlar nəticəsində Orxan Quliyev, Elvin Məmmədov, Ramil Cəfərov, Elçin Babayev, İlyas Kazımov, Əhliman Babayev, Rafiq Quliyev, Rəşad Hacıyev, Bəxtiyar Alışov, Qərib Məmmədov, Eşqin Haqverdiyev, Yalçın Əliyev, Vüsal Kazımov, Rafiq Məmmədov, Elməddin Əsgərov və Fərman Axundov tutulublar. Onların da üzərindən külli miqdarda heroin və metamfetamin aşkar edilərək götürülüb. Bu şəxslər izahatlarında narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olduqlarını etiraf ediblər.

Qeyd edək ki, sonuncu əməliyyatlar zamanı Suraxanı rayonunda ümumilikdə 4 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

**Faktlarla bağlı Suraxanı Rayon Polis İdarəsində araşdırmalar başlanılıb. Adları sadalanan şəxslər tutularaq istintaqa cəlb olunublar. Suraxanı rayonu ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin ifşa edilməsi istiqamətində polis əməkdaşları tərəfindən əməliyyat tədbirləri davam etdirilir.**

# KƏLMEYİ-ŞƏHADƏTİ BİLİRSİNİZ?!

**Müharibədə eşitdiyim ən təsirli iki-üç cümlədən biri bu idi. Xeyr, mənim burda nə dindən, nə də hərfi mənalarından bəhs etmək niyyətim yoxdu. Amma o sual verilərkən onun altında yatan mənaların, faciənin, qürurun, şərəfindən gedir...Hə, necə olmuşdu?**

9 oktyabr gecəsi, saat 00:00. Təcili çıxış əmri verilir. Çıxışlarımızın 90%i fövqəladə səbəb olmasa gecə yarılarına həmişə təsadüf edib. Səhər tezdən, 6 saatlıq gecə yolundan sonra 06:00 radələrində Daşkəsən kəndinə çatırıq. Hər şeyə dözmək olar, amma siqaretsizlik adamı məhv edir. Əslində, vərdiş də yox, vəziyyət adamı məcbur edir. Həyəcan, məsuliyyət... Amma heç bir qığılcım belə alovlandırmaq, işıq yandırmaq olmaz. Aydındı səbəb niyə. Siqareti puşlatımın içində yandırır, elə çəkirəm. Digərləri də. Açığı belə anda siqaret çəkmək ehtiyacının nə olduğunu hamıda anlayırıq.



Yolboyu erməni meyitləri...Birinin yanında keçəndə müharibənin dəhşəti gözlərimdə daha da böyüyür. Düşmən polkovnik-leytenantının meyiti. Polkovnikin belə meyitinin ayaqlar altına düşməsi bu müharibənin heç bir zarafat sevmədiyini göstərirdi. Əsgər ayaqları altında olan polkovnik...

Eləsə bizim kimi leytenant və əsgərlərin bu müharibədən sağ qayıtması sadəcə möcüzə olardı...

Daşkəsən tərəfdə bizi XTQ qarşılayır. Təpə döşündəyik. XTQ polkovnik-leytenantı təlimatlandırır. Öncə alovlu, vətənpər sözlər...Sakaryadan, Çanaqqaladan birinci Qarabağ savaşına kimi. Sonda deyir; ”Qan bahasına alınmış o torpaqlardan bir addım geri çəkilməyiniz vətənə xəyanət olacaq. Türk oğlu qurd olar, basdığı yer yurd olar.”

Bu təlimat və çıxışdan sonra batalyonumuz kiçik heyətlə tapşırılan yerə doğru gedir. Yeni bir 5-6saatlıq piyada yolu bizi gözləyir. Hara getdiyimizsə bizə dəqiq deyilmir adlı olaraq. Bu da aydındı, hər hansı satqınlıq və.s təhlükəsizliyə görə.

...Nəfəsimizi dəririk. Təpə döşündə dərəyə məsafələrlə uzanırıq. Tərpənməyə halımız yoxdu. Rəsmi qaydada atəşkəs elan olunmağına baxmayaraq şiddətli döyüşlər gedir. Hər iki tərəf bu vaxt top atışlarına daha çox üstünlük verir.

Bir neçə dəqiqə keçməmişdi ki, təpə tərəfdən bir XTQ zabiti enir; Bizə təcili 10-12 nəfər lazımdı. Hücum vaxtı ərazidə 3 şəhid,5 yaralı var. Onları ərazidən çıxarmalıyıq. Bir anlıq təəccübə düşürəm. Axı, XTQ nin özünün qaldığı mühasirədən bu əsgərlər necə onları çıxara bilərik?! Canından başqa verməyə bir şeyi olmayan, müəyyən qədər təcrübəsizlərlə onlara nisbətdə?

Davam edir; siz hücuma keçməyəssiniz indi. Amma hücum imitasiyası və atəş dəstəyi. Başları sizə qarışacaq. Bizsə yaralı və şəhidləri ərazidən çıxaracağıq.

Sondasa deyir, indi sizdən heç nə istəmirəm, kəlməyi-şəhadəti bilirsinizsə bəsdi...

Bu cümlə artıq hər şeyin nə olduğunu deyirdi. Getməkçün hazırlanan bu 10 əsgərə baxıram...Nə deyəcəyimi bilmirəm. Bu uşaqların yaxınlarına nə zamansa( özüm də sağ qalsam) necə şəhid olduqlarını danışmaq əzabı içimi bürüyür. Allahdan bir möcüzə gözləyirəm bu uşaqlarçün...

Digər bölməmizin də atəş dəstəyi ilə yaralı və şəhidləri XTQ ərazidən çıxarır-Rabitədə bu məlumat həmin zabitə verilir. Gözü doluxsunmuş zabit sevinc içində dönərək:Ananız namaz üstündə olub, sağ qaldınız.

Əslində, ”kəlmeyi-şəhadəti bilirsiniz” deməyi ilə öncədən nələr olacağı məlum idi.

Ondan sonra o zabitin dediyi o cümlə dilimizə düşdü . Bütün çıxışlarda deyirdik.

**İstənilən halda altında yatan məna və ağırlığına görə ən indiyə kimi qulağımda cingildəyən ən dəhşətli cümlədir: KƏLMEYİ-ŞƏHADƏTİ BİLİRSİNİZ?!**

**Ara-sıra yenə eşidirəm...**

***P.S** Zəngilanın azad oldugu gün yadıma düşdü, kiçik bir qeydi paylaşım dedim.*

**Emin Piri**

# K.Nurullayeva: "Azad edilmiş ərazilərldə gənclərin də fəal iştirak etdiyi layihələr həyata keçirilir"

**Millət vəkilləri Emin Hacıyev və Könül Nurullayeva 21-22 oktyabr tarixləri arasında Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən MDB Gənclər Parlamentlərarası Assambleyasının 17-ci konfransında ölkəmizi təmsil edib.**

Tədbir zamanı Emin Hacıyev MDB Gənclər Parlamentlərarası Assambleyasının koordinatoru seçilib. Daha sonra isə Milli Məclisin deputatı Könül Nurullayeva "MDB ölkələrində gənclər turizmi: müasir vəziyyət və əsas inkişaf istiqamətləri" mövzusunda keçirilən konfransda çıxış edib.

Deputat bildirib ki, gənclər hər bir ölkənin hərəkətverici qüvvəsi kimi innovasiyaların tətbiqində katalizator, davamlı inkişaf faktoru kimi çıxış edir. Gənclərin turizmlə bağlı fikirlərinə toxunan K.Nurullayeva qeyd edib ki, turizm gənclər üçün həm də ətraf aləmi öyrənmək vasitəsidir və bu gün beynəlxalq səyahətlərin ümumi həcmində fərdi və ya kollektiv formada gənclər turizminin payı MDB ölkələri də daxil olmaqla durmadan artır. Gənclərin sosial imkanları nəzərə alınmaqla, münasib qiymət və keyfiyyət nisbətinə yönəlmiş aşağı büdcəli turlara maraq daha çoxdur.

Gənclər turizminin Avropa ölkələri və ABŞ-da daha çox inkişaf etdiyini diqqətə çatdıran K.Nurullayeva nümunə olaraq bildirib ki, Avropada beynəlxalq tələbə kartı olan tələbələr üçün hava səyahətlərində, ictimai nəqliyyatda, kafeləri, muzeyləri, konsertləri və digər yerləri ziyarət etmək üçün güzəştlər sistemi mövcuddur. "Lakin MDB məkanında gənclər turizmi hələ də prioritet sahə hesab edilmir" deyən K.Nurullayeva Azərbaycan təcrübəsinə diqqət çəkib. Bildirib ki, Azərbaycanda gənclər siyasəti dövlət üçün əsas prioritet sahələrdən biridir.

Bu xüsusda Azərbaycanda gənclər və turizm sahəsinin inkişafına yönəlmiş çoxsaylı proqram və layihələr reallaşdıran Heydər Əliyev Fondu, Dövlət Turizm Agentliyi və Azərbaycan Prezidenti yanında Gənclər Fondunun rolunu qeyd edən millət vəkili deyib ki, uzun illərdir Azərbaycanda beynəlxalq turizmin əsas tələblərinə cavab verən yüksək ixtisaslı mütəxəssislər hazırlanır:

"Hələ 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı əsasında ölkəmizdə Turizm İnstitutu yaradılıb. Turizm sektorunun ölkə iqtisadiyyatı üçün əhəmiyyətini nəzərə alaraq, 2014-cü ildə bu ali təhsil müəssisəsinin bazasında Azərbaycan Turizm və Menecment Universiteti yaradılıb. Universitet Rusiya da daxil olmaqla dünyanın aparıcı təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir və burda tədris proqramı turizm və istirahət sahəsində ən yaxşı təcrübələr nəzərə alınmaqla formalaşıb".



Azərbaycanın bənzərsiz təbiətə, zəngin tarixə və mədəni irsə malik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hələ sovetlər dövründə turizm zonası kimi məşhur olduğunu xatırladan K.Nurullayeva deyib ki, Sovet İttifaqının hər yerindən insanlar tətildə Kəlbəcərə və Şuşaya gəlirdilər. "Bu gün azad edilmiş ərazilərin zəngin turizm potensialını canlandırmaq məqsədi ilə Azərbaycanda gənclərin də fəal iştirak etdiyi proqramlar hazırlanır, layihələr həyata keçirilir" deyən deputat münbit torpaqlarımızın yenidən dünyanın hər yerindən qonaqlar qarşılamağa hazır olduğunu bildirib. K.Nurullayeva həmçinin vurğulayıb ki, Azərbaycanda hər il onlarla beynəlxalq konfrans, sərgilər, festival və irimiqyaslı idman tədbirləri keçirilir: "Son on ildə Azərbaycan fəal şəkildə İlk Avropa Oyunları, 4-cü İslam Oyunları, Avropa Gənclər Olimpiya Festivalı, Çempionatlar və müxtəlif idman növləri üzrə Dünya Kubokları, Formula 1 Azərbaycan Qran Prisi və digər idman tədbirlərinə ev sahibliyi edib.

Eyni zamanda yerli və əcnəbi gənclərə mədəniyyətlərarası ünsiyyətdə təcrübə qazanmaq, tolerantlıq və multikulturalizm anlayışını formalaşdırmaq imkanı verən beynəlxalq gənclər düşərgələri də təşkil edilir."

**Mövcud imkanların Azərbaycanı gənclər turizmi üçün də perspektivli marşrut halına gətirdiyini bildirən millət vəkili onu da qeyd edib ki, müasir dünyanın reallıqlarında yeni mexanizm və modellərin meydana gəlməsi təbiidir və belə vəziyyətdə gənclər turizmi, beynəlxalq gənclər əməkdaşlığı xüsusi diqqət tələb edir: "MDB ölkələri üçün bütün səviyyələrdə təşkilati, hüquqi və maliyyə dəstəyinin inkişafı, gənclər turizmi sektoru üçün yeni brendlərin yaradılması və yeni turizm növlərinin, o cümlədən xüsusi maraq doğuran müxtəlif dağ və su turizmi, veloturlar və digər növlərin təbliği və inkişafı vacibdir. Gənclər turizminin düzgün təşkili ilə bu istirahət sahəsi, şübhəsiz ki, bölgəni və həmin ölkəni fərqləndirə bilər. Əminəm ki, gənclər turizminin getdikcə artan əhəmiyyəti bütün MDB məkanını əhatə edəcək".**

# BMT Çinə uyğurlarla bağlı çağırış edib



**BMT Baş Assambleyasının insan haqları məsələləri ilə məşğul olan 3-cü Komitəsində 43 ölkə birgə bəyanatla çıxış edərək Sincanda insan hüquqlarının pozulmasından narahat olduqlarını bildiriblər.**

Türkiyə də daxil olmaqla 43 ölkə Birləşmiş Millətlər Təşkilatında (BMT) Sincan-Uyğur Muxtar Bölgəsindəki uyğur türklərinə və digər müsəlman azlıqlara təzyiq və zorakılıq tətbiq etməkdə ittiham olunan Çini "BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və müstəqil müşahidəçilərin dərhal və maneəsiz olaraq bölgəyə girmələrinə icazə verməyə" çağırıb.

BMT Baş Assambleyasının insan haqları məsələləri ilə məşğul olan 3-cü Komitəsində 43 ölkə birgə bəyanatla çıxış edərək Sincanda insan hüquqlarının pozulmasından narahat olduqlarını bildiriblər.

Açıqlamada etibarlı hesabatların 1 milyondan çox insanın səbəbsiz saxlandığı "siyasi maarifləndirmə" düşərgələrinin mövcudluğundan xəbər verdiyi, İşgəncə, qeyri-insani və alçaldan rəftar, məcburi sterilizasiya, cinsi zorakılıq və uşaqların ailələrindən zorla ayrılmasını sənədləşdirən xəbərlərin sayının artdığı da bildirilib.

Açıqlamada uyğurlara və digər azlıqlara qarşı qeyri-mütənasib nəzarətin davam etdiyi vurğulanıb və Sincan-Uyğur Muxtar Bölgəsindəki uyğur türklərinə və digər müsəlman azlıqlara zülm etməkdə günahlandırılan Çini "BMT-nin İnsan Haqları üzrə Ali Komissarı və müstəqil müşahidəçilərin dərhal və maneəsiz olaraq bölgəyə girmələrinə icazə verməyə çağırılıb. Açıqlamada həmçinin Çin beynəlxalq öhdəliklərini yerinə yetirməyə və insan hüquqlarına hörmət etməyə çağırılıb.

**BMT və digər beynəlxalq təşkilatlar düşərgələrin təftiş üçün açılması çağırışlarını təkrarlasa da, Çin hökuməti ittihamları rədd edir və BMT rəsmilərinin birbaşa məlumat üçün bölgədə sərbəst axtarış aparmasına icazə vermir.**

**İLTİFAT**

# Deputatın və merin üzüntüsü: "Həm mövqeləri təhvil verirsiniz, həm də Azərbaycanı qızışdırırsınız..."

**Ötən gün Ermənistan parlamentinin ”Şərəfim var” blokundan olan deputatı Tiqran Abramyan bildirdi ki, yaxın vaxtlarda Şuşanın ətraf kəndləri və Laçın şəhəri Azərbaycana veriləcək.**

Adalet.az xəbər verir ki, deputat sərhədlərin delmitasiya və demarkasiya prosesindən danışarkən qeyd edib ki, bu məsələlər toponimlə deyil, xəritələrlə həllini tapır. Deputat əsas problemin Azərbaycan və Ermənistan sərhəddi ilə yox, Qarabağla bağlı olduğunu bildirib:

”Ermənistan hökuməti yaxın üç ildə aparılacaq danışıqlarda təminat verə bilmir ki, hansı əraziləri güzəştə gedəcək və ya getməyəcək. Bununla bağlı prinsipial mövqeyi də yoxdur. Azərbaycan-Ermənistan sərhəddini müəyyən etmək əsas problem deyil. Əsas məsələ Şuşa ətrafı kəndlər və Laçın şəhəridir. Belə davam edərsə, yaxın zamanlarda Şuşanın ətrafındakı kəndlər və Laçın şəhəri Azərbaycana veriləcək”.

Deputat daha sonra əlavə edib ki, Ermənistan hakimiyyəti artıq Qarabağla bağlı heç bir iş görmür:

”Ermənistan hökuməti bizə deyir ki, Qarabağla bağlı sualları onlara ünvanlamayaq. Açıq şəkildə deyirlər ki, Qarabağla məsələləri onlardan soruşmayaq. Onlar artıq bu problemlə bağlı heç bir iş görmək istəmirlər və sakitcə əllərini hər şeydən çəkiblər. Humanitar yardım məsələsindən başqa heç bir mövzuda məsuliyyəti üzərlərinə götürmürlər.





## Pela Ağdağ oldu

***Deputat Tiqran Abramyanın bu ”üzgün” açıqlamasından sonar Qafan meri Gevork Parsyanın açıqlaması erməni ictimaiyyətində soyuq ”duş” effekti verib. Parsyan:” Pela dağının (Ağdağ dağının) Azərbaycanın nəzarətinə keçməsiylə bağlı detallar bəlli olub. Beləki dağ Azərbaycana dekabr ayında verilib, amma ona nəzarəti rusiyalı sərhədçilər həyata keçiriblər ”.***

Parsyan bu günlərdə rusların naməlum səbəblər ucbatından dağdakı mövqelərini tərk etdiklərini və yüksəkliyin tam olaraq Azərbaycana verildiyini bildirib:

”Bu ərazi vacib yüksəklikdir, bizim üçün strateji əhəmiyyətli məntəqədir. İndi rusların olmaması sayəsində bu məntəqə azərbaycanlıların tam nəzarətinə keçib.

***Əvvəllər Aqarak, Yeqvard və Ujanis kəndələrinə getmək üçün istifadə etdiyimiz əsas yol indi tam onların nəzarətindədir. İndi biz alternativ yoldan istifadə edirik. Faktiki olaraq kəndlilərin bu yoldan istifadəsi qadağan edilib”.***

Bundan bir gün öncə isə erməni politoloq Edqar Elbakyan ”Facebook” səhifəsində ”Saxta sülh təbliğ edənlər bu gün Qafanda yeni güzəştlər etməyə hazırlaşırlar”-yazmışdı.

Elbakyan həm də qeyd eetmişdi ki, faktiki olaraq Ağdağ yüksəkliyi tamamilə Azərbaycanın nəzarəti altına keçir, qonşu kəndlər üçün də birbaşa təhlükəsizlik təhdidləri yaradır.

”Hökumətdə oturanlar könüllü olaraq ölkəmizin ən vacib, strateji əhəmiyyətli mövqelərini hissə-hissə təhvil verdikləri müddətcə Azərbaycanın artıq yeni qızışdırmalara əl atmağa ehtiyacı yoxdur”, - deyə o bildirib.

**Ermənilər əvvəl axır bilməliydilər ki, özgə atına minən tez düşər. Azərbaycan Ordusuna eşq olsun!**

**Əntiqə Rəşid**

# Parlamentdə şok: “Arayik Arutunyan dedi ki, Azərbaycan tələb edir, deyə, ordunu ləğv edəcəyik”

**"Arutyunyana görə, əgər Ermənistan hakimiyyəti Qarabağın müstəqilliyini vaxtında tanıtsaydı, Azərbaycanla müharibənin qarşısı alınardı".**

Adalet.az xəbər verir ki, bu sözləri "Şuşadan olan "məcburi köçkünlər" erməni icmasının üzvü Aşot Arutyunyan deyib. O, Ermənistan milli parlamentinin İnsan Hüquqlarının Müdafiəsi Daimi Komissiyasının təşəbbüsü ilə keçirilən iclasda Qarabağdan olan məcburi köçkünlərin problemlərinin müzakirəsi zamanı. Aşot fikrinə bu sözləri də əlavə edib:"Qarabağdakı separatçı rejimin silahlı birləşmələri ləğv edilir. Bu xəbəri Arayik Arutyunyan (qondarma "DQR" rəhbəri -red-ƏR) özü məlumat verdii.



"Başçı" Aşot ilə söhbət zamanı Qarabağdakı separatçı rejimin ordusunun ləğv ediləcəyini açıqlayıb. Arutyunyan "Azərbaycanlılar tələb edir" deyə vurğulayıb.Arutyunyanın dediyi "ordu" sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qalan qanunsuz erməni silahlı birləşmələridir.

**Qeyd edək ki, QHT rəhbəri Aşot Arutyunyan sonda bildirib ki, "ölkə başçısının" bu açıqlaması onu bərk qəzəbləndirib.**

**Ə.Rəşid**



*Emin Piri*

# Zarafatsız keçilməyən müharibə

*Müharibənin nə qədər qəddar, acımasız, pis bir şey olduğunu izah etməyə ehtiyac yoxdur. Fərqi yoxdur, o müharibə haqq uğrundadır, yoxsa haqsız müharibədir.*

*Əlbəttə, bizim Vətən savaşımız haqq yolunda olan mübarizə idi. Amma bu, müharibənin çətinliklərini, ağrılarını istisna etmir.*

*Bütün bunlar öz yerində, amma müharibədə bütün hislər bir-birini sürətlə əvəz edir. Faciə komediyanı, sevinc kədəri, üzüntü qüruru və.s*

*Hər şeydə pozitivlik axtaran, ağır hadisələrə, söhbətlərə yüngüllük gətirməyi sevən biriyəm. Ən azından faciə varsa, heç olmasa sözlərlə insanları bu durumdan çıxarmağı xoşlayıram. Faciə onsuz da var, amma onu yüngülləşdirmək öz əlimizdədir.*

*Bütün bunları nəzərə alaraq savaş boyu zarafatlar etməyə çalışır, bəzənsə şəxsi heyətə görə özümü buna məcbur hiss edirdim. Bəzənsə bu zarafatlar şərəfdən, qürurdan, qələbə sevinclərindən, ordumuzun ardıcıl nailiyyətlərindən doğurdu.*

*Oktyabrın əvvələri idi. Füzuli-Cəbrayıl istiqamətindəyik. Qardaş, biçilmiş taxıl zəmisiylə saatlarla piyada dolama yol get, bitmir ki, bitmir. Nəfəs çatdırmaq olmur. Bir yandan da minaatan, top mərmiləri...*

*Hava yoluyla məsafə azdı, sadəcə təhlükəsizliyə görə saatlarla dolanırıq. İlk günlər bəzi səbəblərə görə bizə 1-2XTQ zabiti də ayrılıb. Məlum yerə çatanda gördüm təpənin döşündə bizi bir manqa(dəstə) XTQ heyəti gözləyir.*

*Nəfəsimi dərdim, dedim; Qurban sizə, torpaqları yavaş-yavaş alın da, sürətinizə çatdırmırıq.*

*Təəccüblə baxdı, dedi; komandir sənsən?*

*Güldülər. Bu da( dəstə komandiri) başını yellədi.*

*Şükür, müharibə tez bitdi, erməni heç nə etməsəydi də, zarafatlarımın qurbanı olacaqdım.( Təbii ki, bu da bir zarafatdı)*

*Hər şey bir yana, zarafatsız keçilməz belə şeylər...Elə müharibə də!*

## 16 saat sükan arxasında



**Heç kimə sirr deyil ki, əksər avtobus və yük maşınlarının sürücüləri 8 saat əvəzinə, 16 saat sükan arxasında əyləşirlər. Bu isə baş verə biləcək qəzalara münbit şərait yaradır. Yəni, sürücü ya sükan arxasında yuxulayır, ya da yatır. Heç uzağa getməyək. Bir neçə həftə bundan qabaq Bakıda Hava Limanına gedən yolda sürücünün yuxulaması nəticəsində baş vermiş qəzanı yada salmaq kifayət edir.**

Belə ki, yük maşınının sürücüsünün sükan arxasında yatması, maşının arxadan avtobusa dəyməsi ilə nəticələnib və qəza zamanı 5 nəfər dünyasını dəyişib, 21 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bu qəza bir həyəcan siqnalı olmalıdır. Başqa sözlə demiş olsaq, avtobuslara, yük maşınlarına nəzarət edən orqanlar yaxşı-yaxşı düşünməlidir. İlk növbədə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki Əmək Müfəttişliyi İdarəsi hərəkətə gəlməli, 8 saatdan artıq sürücüləri işə cəlb edən sahibkarları məsuliyyətə cəlb etməlidir. Çünki mövcud Konstitusiyaya və hüquqi aktlara görə iş rejimi respublikamızda 8 saatdan artıq deyil. Amma əksər avtobus və yük maşınlarının sürücüləri nəinki 8 saat, hətta 16 saatdan çox sükan arxasında əyləşir və mənzil başına hərəkət edirlər. Eyni zamanda Baş Dövlət Yol Polisi İdarəsi və eləcə də Bakı Nəqliyyat Agentliyi bu cür qanun pozuntularını diqqət mərkəzində saxlamalı, fiziki, hüquqi və vəzifəli şəxsləri inzibati məsuliyyətə cəlb etməlidirlər. Əks təqdirdə 16 saatdan çox sükan arxasında əyləşən sürücülərin üzündən bu cür qəzalar ölkəmizdə tez-tez baş verəcək.

**Emil FAİQOĞLU**

# Yuxu kimi

## *İstedadlı və unudulmaz müğənni Səyyad Əlizadənin xatirəsinə*

**...Onu ilk dəfə yaxın qohumum və dostum Kamran Əhmədovun oğlunun kiçik toy məclisində görmüşdüm. O qədər səliqəli, o qədər sadə və o qədər səmimi idi ki, elə ilk tanışlığımızdan aramızda bir doğmalıq, bir şirinlik, bir məhəbbət yarandı. Toyu tək özü aparmırdı, yanında bir xanım müğənni də var idi: Rahidə Baxışova. Onunla da tanış oldum. Rahidəyə dedim ki, mənim qızımın sənə hörməti var. Çünki o xanım müğənni də tərbiyəli, əxlaqlı bir qız idi...**

...Elə gözəl toy apardılar ki, həmin toy bu gün də mənim yaddaşımda, hafizəmdə qalıb. Elə bil bir şey yadımdan çıxmışdı. Onu da deyim: toydan qabaq Xaçmazda istirahət parkında, Şərqin böyük xanəndəsi Ağabala Abdullayevin oğlu Nizami Abdullayevlə Manaf Ağayevi gördüm. Onlar bilyard oynayırdılar. Soruşdum, siz Xaçmazda xeyir ola? Dedilər ki, Kamran müəllimin oğlunun kiçik toyuna gəlmişik...

...Toyda Nizami Abdullayevlə Manaf Ağayevin "Dolanım başına, Füzulim mənim!", "Ay Vətən oğlu!" və eləcə də "Qarabağ şikəstəsi" bizim hamımızı həyəcanlandırdı, kövrəltdi və hətta ağlatdı. Yadımda o da qaldı ki, Füzuli rayonun sabiq polis rəisi, polkovnik Binnət Məmmədov və icra hakimiyyəti başçısının müavini rəhmətlik Məhərrəm Nəzərov o mahnıların kövrək notlarından özlərini saxlaya bilməyib qəhərləndilər...

***... Səyyad Əlizadə ilə o toyda elə bir səmimi münasibət yarandı ki, elə bildim onu 40-50 il bundan qabaq tanıyıram. Çünki bizi birləşdirən, bizi bir-birinə doğmalaşdıran həm də o Vətəndir, torpaqdır. Bəhmənli ilə Səyyadgilin kəndi Babının arasındakı məsafə 15 km ola, ya olmaya. Və bu 15 km bizi bir-birimizdən ayırmırdı, əksinə Babı ilə Bəhmənli elə bil qardaşdır. Və qohumlarımızın da əksəriyyəti Babıda yaşayır, xeyrimiz, şərimiz bir yerdə olur...***

... Deyirlər ki, istedadlı adamlar, yaradıcı insanlar heç vaxt ölmürlər. Bu sözlərdə çox böyük məna və gizlin mətləblər var. Çünki uzun illər və hətta əsrlər keçib böyük sənətkarları ya yazdıqları romanlar, povestlər, şeirlər yaşadıb, ya da bəstələdikləri mahnılar, ifa etdikləri musiqilər yenidən onlara bir ömür verib.

Elə müğənnilər də bu qəbildəndir. Səyyadın bir-birindən gözəl mahnıları çox olub. Hər hansı mahnını elə ifa edirdi ki, bu ifa yalnız ona məxsus olurdu...

...Təkcə bir mahnını - "Bəyaz gecələr"i yada salmaq bəs edir. Onun ifa etdiyi bu mahnı milyonlarla insanın ürəyini, qəlbini fəth edib. Və milyonlarla insanın kədərini, həsrətini, nisgilini əridib. Onların üstünə işıq salıb, məlhəm qoyub və ən nəhayət, dərdli adamların dərdini unutdurub. Nə vaxta qədər ki, "Bəyaz gecələr" var, o vaxta qədər də Səyyad Əlizadə olacaq. Özü qədər səliqəli, özü qədər səmimi və özü qədər də sadə müğənni az olub...

...Onu çox vaxt televiziyalarda çıxış edəndə ağ kostyumda görmüşəm. Və ağ kostyum ona çox gözəl yaraşıb. Sanki o ağ kostyumda dördqanadlı, altıqanadlı mələklərə bənzəyirdi. Dördqanadlı, altıqanadlı mələklərə bənzəyən Səyyadın çöhrəsindən nur tökülərdi. Və bəzən tamaşaçı elə düşünərdi ki, bunun dərdi yoxdur. Amma onun sağalmayan və heç vaxt yaddan çıxmayan oğul dərdi vardı. Səhv etmirəmsə, oğlunu 9 yaşında itirmişdi. Amma bu dərdi, bu kədəri heç vaxt kiməsə bildirməzdi...

***...Bir dəfə də Nizami Abdullayevlə onun studiyasında görüşdük. Çox gözəl və müasir tələblərə cavab verən bir studiyası vardı. O, studiyada tək özü deyil, həm də təmənnasız olaraq digər sənət yoldaşlarına mahnıları yazdırmağa şərait yaradırdı. Daha doğrusu desək, o heç kəsin paxıllığını çəkməz və hamının uğuruna sevinərdi. Çünki Səyyad Əlizadənin çox böyük ürəyi vardı. Heç vaxt bayağı, zəif mahnılar oxumazdı...***

...Onun repertuarına fikir versəniz, görərsiniz ki, bütün ifa etdiyi mahnılar ya xalq mahnısıdı, ya da bəstəkar mahnısı. Əlbəttə, o mahnıları ifa etmək elə də asan deyil. Ara mahnısını oxumağa nə var ki?! Oğul odur ki, xalq və bəstəkar mahnılarını ifa eləsin. Bunun üçün zəhmət, təcrübə, səbr və bir də istedad lazımdır. Bax, bunların hamısı Səyyad Əlizadədə daha yaxşı alınırdı və bəzən də düşünürdün ki, onun nə boyda səbri var...

...Qədim, unudulan və yaddan çıxan mahnıları çox əzab-əziyyətlə üstündə işləyər, tər tökər və yeni aranjimanda tamaşaçılara təqdim edərdi. Yəni o əziyyət çəkməkdən, işləməkdən heç vaxt çəkinməyib, əksinə, ən çətin mahnılara belə ürəklə girişib və axırda da gözəl bir mahnı ifa edib...



***...Onun ifa etdiyi qeyri-adi bir mahnı var: "Yarəb, hanı o vəfalı günlər..." Özü də bu mahnını dəfələrlə tək oxuyub. Sonradan duet formasında müğənni Mənzurə ilə birgə ifa edib. Və bu mahnı bizim tələbəlik illərinin ən sevilən və unudulmaz musiqilərindən olub. Hər iki müğənni bu gözəl mahnını özünəməxsus bir formada ifa edir, tamaşaçının, dinləyicinin qəlbini riqqətə gətirir və bir daha insanların qəlbində əbədi sevginin və əbədi məhəbbətin daim yaşarlığını oyadırlar...***

...O mahnı ki, hamı tərəfindən sevilir və xitə çevrilir, bu mahnılar həmişə yadda qalan, unudulmaz və şirin bir xatirə kimi insanların ürəyinə, qəlbinə hopur. Müğənnidən çox şey asılıdır. Muğənni var ki, yaxşı mahnını yaman günə qoyur, müğənni də var ki, pis mahnını elə gözəl oxuyur ki, o mahnını dinləyən hər bir insan özünü çox rahat hiss edir. Bax, Səyyad Əlizadə belə bir istedadlı müğənnilərdən olub. Hansı mahnını ifa edibsə, o mahnıya özünün şirinliyini, bal səsini və səmimiyyətini qatıb. İnanın, mahnı səmimi ifa ediləndə, müğənni də yadda qalır, mahnı da, hətta onu müşayiət edən ansambl da...

...Onun barəsində neçə vaxt idi ki, yazı qələmə almaq istəyirdim. Amma alınmırdı. Səyyadın Allahın dərgahına qovuşması nəinki onun doğmalarını, hətta pərəstişkarlarını da çox kədərləndirib. Elə bir eloğlu kimi mənim də həddindən artıq sarsılmağıma səbəb olub bu ölüm. O, öz elinə-obasına, böyüyüb başa çatdığı Füzuli rayonunun Babı kəndinə çox sədaqətli olub. Hər müğənni məşhurlaşandan sonra elinə-obasına tez-tez getmir. Amma Səyyad Füzulinin ən ağır günündə cəbhədə əsgərlərimizin yanında olur, doğma kəndinə baş çəkir, el-obanın xeyir-şərində iştirak edirdi. Yəni, o təpədən-dırnağa doğma kəndi Babıya bağlı idi...

...Dünyasını dəyişməmişdən öncə də vəsiyyət eləyib ki, onu Babıda, ata-anasının yanında dəfn eləsinlər. Elə həmin qəbiristanlıqda da Səyyadı dəfn ediblər. Qardaşı deyir ki, hələ də onun ölümünə inanmırıq. Elə bil ki, yuxu görürük. Bəli, onun ölümü yuxu kim idi. İndi öz ata-anasının uyuduğu qəbiristanlıqda əbədi yuxuya gedib...

**...Amma Səyyad Əlizadənin ifa etdiyi "Bəyaz gecələr"i və digər mahnıları heç vaxt ölməyəcək. Əgər onlar sevilirsə, ürəkləri və qəlbləri riqqətə gətirirsə, Səyyad da yaşayacaq. Hər dəfə o mahnılar səslənəndə, onu ağ kostyumda, ağ libasda tamaşaçı yenidən görəcək. Ruhun şad olsun, məzarın nurla dolsun, Səyyad Əlizadə!...**

**Faiq QİSMƏTOĞLU**

# Pela necə Ağdağ oldusa, Şikaox da eləcə Şıxovuz olmalıdır: Şərqi Zəngəzur Azərbaycandır!

**Ötən gün Qafan meri Gevork Parsyanın Ağdağ dağının Azərbaycanın nəzarətinə keçməsiylə bağlı "" vay- şivən"I Ermənistanda böyük ajiotaja səbəb olmuşdu. "Bu ərazi vacib yüksəklikdir, bizim üçün strateji əhəmiyyətli məntəqədir. İndi rusların olmaması sayəsində bu məntəqə azərbaycanlıların tam nəzarətinə keçib." söyləməsi digər erməni siyasətçilərini də hərəkətə keçirmişdi.**

Erməni politoloq Edqar Elbakyan "Facebook" səhifəsində "Saxta sülh təbliğ edənlər bu gün Qafanda yeni güzəştlər etməyə hazırlaşırlar" yazmasından sonra diqqətlər Azərbaycan - Ermənistan sərhəddinə çəmləşdi.

Adalet.az xəbər verir ki, bu dəfə Ermənistan parlamentinin "Hayastan" blokundan olan deputat Vaqe Akopyan dərdli-kədərli açıqlaması erməni ictimaiyyətinin içərisinə "od salıb".

Onun :" Güman ki, Şikaox dövlət qoruğunun qarşısında yerləşən müdafiə mövqeyimizi itirəcəyik" deməsi öz xalqına Ağdağ



(Pela) şokundan sonra ikinci şok oldu. Deputatın sözlərinə görə, hazırda Ermənistan ordusunun və Çakaten kəndlərində yerləşən erməni hərbçilərinin ciddi mövqe problemləri var:

"Müqavimət göstərilmədiyi üçün Azərbaycan Ordusu sərbəst irəliləyir. Yaxın gələcəkdə, çox da uzaq olmayan müddətdə, bu kəndlərə bitişik olan Şikaox qoruğunun qarşısındakı yüksəkliyi də itirəcəyik".

Vaqe Akopyan bir neçə gün bundan əvvəl Qafanla sərhəddə yerləşən Ağdağ dağının Azərbaycan Ordusunun nəzarətinə keçməsi barədə yayılan məlumatı da təsdiqləyib:

"Qafanın meri (Gevork Parsyan- red Ə.R.)xəritə üzərində bizə hər şeyi göstərdi. Vəziyyəti ətraflı izah etdi. Təəssüf ki, Ağdağ dağı artıq bizdə deyil. Təəssüf ki, mənzərə budur".

***P.S.** Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcərə səfəri zamanı demişdi axı:"Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"*

**Əntiqə Rəşid**

# "İnformatika əsrin tələbidir"

## "Danışır müəllim!"

***Həmsöhbətimiz Xızı rayon Yeni Yaşma məktəbinin informatika müəlliməsi Əfsanə Cənnətəliyevadır.***

**- Kənd müəllimisiniz. Bildiyim qədər Sumqayıt şəhərində yaşayırsınız. Şəhər qızı üçün kənd məktəbinin hansı özəllikləri var?**

- Bəli, düşünürəm əsas fərq insanların bir birini uzun zamandı tanıması olur, buda kollektivin daha mehriban olmasına gətirib çıxarır.

**- Adətən qız uşaqlarını evdən çox uzaqda işləməyə qoymurlar. Xüsusən də kənd yerinə getməyə. Siz necə tənzimləyirsiniz bunu?**

- Valdeyinlərimlə mənim aramdakı dostluq və güvən münasibətinə.

**-Yəqin ki, bir çox baxımdan kənd mühiti, təhsili yaşadığınız yerdən az-çox fərqlənir. Bu fərqlər nədən ibarətdir?**

- Demezdim elədə fərq var. Yaşadığım yerdə də məktəblər infrastruktur baxımdan tam təmin olunmayıb. İşlədiyim məktəbdə komputer otağı , internetin olması dərsləri daha kefiyyətli tədris etməyə kömək edir. Əlbəttə, digər məktəblərdə olduğu kimi bizimdə yeni avadandıqlara eytiyacımız var.



**- İnformtika fənninin tədrisi hər halda uzun illər deyil. Bu fənnin tədrisinin vacib olması sizcə niyə vacibdir?**

-Yeni əsrin tələbləri bizdən informatika fənni tədris etməyə yüksək səviyyədə eytiyac yaradır.

**- Şagirdlərə bu fənni sevdirməkçün hansı meyarlarından istifadə edirsiniz?**

-İnformatika fənni çox geniş meyarlara sahibdi. Çalışıramki fənni sevdirmək üçün praktikaya daha çox önəm verim. Bu da şagirdlərin daha həvəslə dərsdə iştirak etməyə sövq edir. Eyni zamanda scratch, proqramlaşdırma əsaslı dərslərə üstünlük verirəm.

**- Adətən bir çoxlarına görə məktəblərdə bu fənn əsas fənn sayılmır. Məsələn, riyaziyyat, tarix, fizika və.s kimi. Bu barədə fikirləriniz maraqlıdır.**

-Hazırkı dövr informatikanın əsrin tələbi olduğu dövrdür. Hal-hazırkı zamanda da tələbə və gənclərin daha çox seçimi informasiya sahəsidir.

**- Eyni zamanda müxtəlif kurslarda çalışırsınız. Bu başa düşüləndir. Bir çox müəllimlər belə edir. Bəs, özəl sektorda, kurslarda çalışmaq məktəbə xüsusi diqqət ayırmaqdan adamı yayındırmır?**

- Əksinə bir müəllim kimi daha da təkmilləşdiyimi düşünürəm və öyrəndiklərimi şagirdlərlə birlikdə tətbiq edirəm. İnformatika çox surətlə inkişaf edən bir fəndir ona görə daim öz üzərində işləmə ehtiyacı duyursan.

**-Sosial şəbəklərdə təhsillə bağlı xüsusi aktivliyiniz seçilir. İstər onlayn proqramlar, bununla bağlı tədris, digər müəllimlərlə müsahibə, açıqlama vəs. kimi.**

-Bacardığım qədər bir müəllimə kimi faydalı olmağa çalışıram.Həmkarlarımın və şagirdlərimin daha çox maariflənməsi üçün sosial şəbəkələrdə faydalı postlar paylaşıram.

**Söhbətləşdi:**
**Emin Piri**

# *Metyu Brayza: "Saakaşvilinin saxlanılması ağıllı siyasi addım olmayıb"*

**"Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin saxlanılması ağıllı siyasi addım deyil".**



Bunu "Atlantik Şurası"nın böyük elmi işçisi, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert Metyu Brayza Gürcüstanın "Interpressnews" agentliyinə müsahibəsində deyib.

Onun sözlərinə görə, dünyada istənilən siyasi lider hərəkətlərinə görə cavabdehlik daşıyır: "Saakaşvili bilirdi ki, qərarı çox risklidir. Həbs olunacağını bilsə də, o, Gürcüstana qayıtmasını düzgün qərar hesab edib".

M.Brayza vurğulayıb ki, müxalifət liderinin və eyni zamanda, ölkənin keçmiş prezidentinin həbs olunması problem yaradır və dünya tərəfindən siyasi motivli həbs kimi qəbul edilir: "Bu, hökumətə bir sıra problemlər yaradır və ölkədə böhrana səbəb olur".

**Qeyd edək ki, M.Saakaşvili oktyabrın 1-də Tbilisidə həbs olunub. Rustavidəki 12 saylı həbsxanada saxlanılan siyasətçi özünü siyasi məhbus adlandırır və azad edilməsini tələb edir. O, bu tələblə artıq 22-ci gündür aclıq aksiyası keçirir.**

**MEHRİBAN**

# Türkiyə kəşfiyyatı İraqda əməliyyat keçirib



**Türkiyənin Milli Kəşfiyyat Təşkilatı (MİT) İraqın şimalında əməliyyat keçirib.**

MİT Metina məntəqəsində iki əməliyyat gerçəkləşdirib. Əməliyyat nəticəsində bölgədə təhlükəsizlik qüvvələrinə hücuma hazırlaşan PKK-nın 5 terrorçusu zərərsizləşdirilib.

Qeyd edilir ki, Türkiyə kəşfiyyat xidmətləri İraqın şimalında əməliyyatlarını davam etdirir.

Xatırladaq ki, 1984-cü ildə ortaya çıxan PKK silahlıları Türkiyədə minlərlə dinc sakini, həmçinin təhlükəsizlik qüvvələrinin əməkdaşlarını qətlə yetiriblər.

ABŞ və Avropa İttifaqı PKK-nı terror təşkilatları siyahısına salıb.

**MEHRİBAN**



Günel Natiq

# “Mən ölsəm, sən mənimlə daha çox fəxr edəcəksən”

## Qəhrəman döyüşçü və onun hərbçi ruhlu xanımının məhəbbət hekayəti

***- Ömrüm, bircə şeydən qorxuram... Yox dilimə gətirmərəm...***

***- Sözü geri qaytarmazlar. Qurban olum de.***

***- Kimi sevirəmsə Allah əlimdən alır. Əvvəl anamı, sonra isə atamı... dilim-ağzım qurusun... Sənin həyatın üçün çox qorxuram.***

***- Qorxma, sınma, əyilmə. Mən ölsəm, sən məni itirməyəcəksən. Əksinə, mənimlə daha çox fəxr edəcəksən, mənim hərbçi ruhlu mübariz qadınım.***

***

Çavuş Fariz Həsənov və onun hərbçi ruhlu xanımı Əzizə... Maddi ehtiyac ikisini də vaxtından tez böyütmüşdü. Bəlkə də oxşar taleni bölüşdükləri üçün onları bir- birindən yaxşı anlayan, duyan yox idi...

Fariz Həsənov 1987-ci il fevralın 12-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dünyaya gəlmişdi.

Ailəsinə dəstək olmaq üçün uşaqlıqdan hər zəhmətə qatlaşmışdı. Yaşıdları məktəbə gedəndə, o, həmin məktəb binasının divarlarını təmir edirdi. Bəzən elə yorulurdu ki, elə partaların üstündə yuxulayıb yatırdı. Əlinin qabarıyla çörək qazanırdı.

Ərlə arvadın torpağı bir yerdən götürülür, deyirlər. Həyat yoldaşı Əzizə də uşaq yaşlarından öz ayaqları üstündə durmağı öyrənmişdi. 11 yaşından tale onu ağır imtahanla sınamışdı.

Anası onkoloji xəstəliyə düçar olaraq hərəkət etmək qabiliyyətini itirmişdi. Əzizə 11 yaşından evin ehtiyacları barədə düşünmək məcburiyyətində qalmışdı. Anasının qulluğunda durur, evin bütün işlərini özü görürdü. Atası mövsümi usta idi, işi heç də həmişə rast getmirdi. Əzizə atasına da köməklik edirdi. Həyət- bacada meyvə tərəvəz əkir, aparıb bazarda satır, evə çörək pulu gətirirdi.

***

***Əzizə məktəbdən məzun olmağa bir ay qalmış anası həyatla vidalaşır. O, son zəng günü bir- birinə sarılmış xoşbəxt ana və qızları oğrun-oğrun seyr edir və gözlərini qapıya dikib möcüzə gözləyirdi.***

***Amma özünə söz vermişdi, mütləq təhsil alacaq və atasına dayaq olacaqdı. Qəbul imtahanında elə hey gözləri yol çəkirdi, bəlkə buna görə də kodlaşmanı çox dəqiq yerinə yetirə bilməmişdi.***

İnstituta daxil ola bilməsə də, kollecə qəbul edilir. Tam istədiyi bu deyildi, amma tez bir vaxtda təhsili başa vurub iş həyatına başlamaq lazım idi.

Farizin varlığından hələ xəbəri yox idi. Maraqlıdır ki, bir-birindən xəbərsiz bu iki gənc təxminən eyni qayğılarla yaşamışdılar.

Hərbçi olmaq vətənini hədsiz çox sevən Farizin uşaqlıq arzusuydu. Hərbçi kimi ana torpağa daha çox gərəkli olacağını hiss edirdi.

Fariz Həsənov 2005-2006-cı illərdə Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının sıralarında müddətli həqiqi hərbi xidmətdə oldu. 2008-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Düşmənlə həmsərhəd rayonda xidmət etmək istəyirdi. Qazaxın Aslanbəyli kəndində iki il xidmət etdikdən sonra təyinatı Qazaxın Kəmərli kəndinə verilir. Elə Əzizəylə tanışlığı da həmin dövrə təsadüf edir.

Fariz Əzizənin rəfiqəsinin həyat yoldaşı Həmidlə dost idi. Bir dəfə aralarında belə bir söhbət olur:

***- Fariz, artıq 25 yaşını haqlamısan. Bəs nə vaxt evlənib oğul-uşağa qarışacaqsan?***

***-Həmid, mən hərbçi adamam. Hərbçi ölümü çiyinlərində daşıyır. Elə bir qız varmı, məni bu cür qəbul etsin, mən olmadıqdan sonra da ömür yolumu davam etdirsin?***

***-Belə bir qız tanıyıram. Kasıb ailənin övladıdır, amma çox mərd qızdı. Qayınanamgilin kəndində yaşayır. Ətrafda hamının hörmətini qazanıb. Fariz, bəlkə dastanlarda Abbas Gülgəzin, Qurbani Pərinin dalınca getdiyi kimi, sən də Əzizənin adını tutub onun yaşadığı kəndə gedəsən? Qulaq as, bəlkə səni o qıza buta veriblər? Aşıq Mahmudun söyləmələri yadındadır? Bəzən qəhrəman özü də bilmədən öz butasının dalınca dünyanın o biri başına gedir.***

***- Ay Həmid, nə buta, nə dastan? Heç məndən Abbas, Qurbani olar? Mən hərbçi babayam. Yaxşı, getməyinə gedək, amma heç ağlım kəsmir bu iş ola.***

Fariz bu sözləri deyərkən ürəyində arzulayırdı ki, kaş ki Həmidin dedikləri çin ola, kaş ki onun taleyində dastanabənzər bir sevda ola…

Amma bir məsələ də vardı. Bəs hansı bəhanəylə qıza baxmağa gedəcəkdilər? Həmidin ağlına bir fikir gəlir.

***- Aha, tapdım. Qızın atası ustadır, elə deyərik ki, təmir üçün gəlmişik. Nə deyirsən?***

***-Nə bilim, birdən yaxşı düşməz...***

***-Əsas sizi tanış etməkdir. Sonra hal qaziyəni danışıb üzr istəyərik. Hə, gedəkmi?***

Yayın ən gözəl günlərindən biriydi. Əzizə həyətdə gülləri sulayır, ləkləri səliqəyə salırdı. İki nəfərin həyətə girdiyini görüb duruxdu. Birini tanıdı, rəfiqəsinin həyat yoldaşı Həmiddi. Digər ucaboylu, qaraşın oğlanı isə tanıya bilmədi.

***-Əzizə bacı, Elçin kişi evdədirmi?***

***- Evdədr, bu saat çağırım.***

***Həmid Elçin kişiylə təmir məsələsini danışanda Farizin gözü Əzizədəydi. Başı işə qarışan qız isə səliqəylə ləkləri sulayırdı. Birdən başını qaldıranda Farizin nəzərləriylə qarşılaşdı. Acıqla saçlarını üzündən çəkib dedi:***

***-Ey, sən niyə mənə elə baxırsan?***

Fariz qızardı, deməyə söz tapmayıb başını aşağı saldı. Elçin kişi dil-ağız edib qızının əvəzinə üzrxahlıq elədi:

***-Oğlum, mənim qızım bir az oğlansayağı böyüyüb, həmişə özü özünə qahmar çıxır, sözünü sərt deyir, sən ona fikir vermə.***

Fariz gülümsəyib başını tərpətdi.

Sağollaşıb çıxdılar. Bir neçə dəqiqə dinməzcə yol getdilər. Birdən Fariz dayandı. İyun səhərinin gözəlliyinin indi fərqinə varmış kimi gözlərini yumdu, günəşin şəfəqlərini qəlbində hiss etdi və dedi:



***-Həmid, bilirsən nə düşündüm? Olsa da bu qızdır, olmasa da bu qızdır.***

***-Olmaya...***

***-Hə, sevdim mən bu qızı. Oğlansayağı böyüyüb, amma dəlisov hərəkətlərində belə bir məsumluq, saflıq var. O, mənim hərbçi həyatımın ağırlığına sinə gərə biləcək. Onun gözlərində o qeyrəti gördüm mən.***

Bir neçə gündən sonra qonşu Gülnar xala Əzizəgilə gəldi.

Qızı kənara çəkib Farizin onlara hansı niyyətlə gəldiyini, onu çox bəyəndiyini, elçi göndərmək istədiyini dedi. Əzizə daş atıb başını tutdu:

***-Gülnar xala, nə elçilik, nə evlilik? O oğlana deyin gəldiyi kimi də çıxıb getsin. Mən ərə getmək istəmirəm.***

Amma ilk söhbət baş tutdu. Həmidin usta məsələsiylə bağlı üzrxahlığından sonra Fariz sözə başladı:

***-Əzizə xanım, siz həyatda çox əziyyətlər çəkmisiz. Mən də əlimin qabarıyla böyümüşəm və bilirəm ki, həyatda halallıqdan gözəl heç nə yoxdur. Bizi taleyin bir araya gətirdiyinə inanıram... İstəyirəm ki, bundan sonrakı həyatımda yanımda siz olasız.***

Qız fikrə getdi.

***-Birincisi, mən oxuyuram. İkincisi də ərə getmək fikrim yoxdur. Mən atamı tək qoya bilmərəm. Mən getsəm, kim ona baxacaq? Yeməyini kim bişirəcək? Paltarlarını kim yuyacaq?***

***-Atanı tək qoymayacayıq, bir də ki, sizin də xoşbəxt olmağa haqqınız var. Demirəm ki, indi evlənək. Sadəcə üzüyüm barmağında, şalım çiynində olsun. Bilim ki, mənimsən.***

***-Nə sənin olacam, nə də qeyri kimsənin. Bu iş olmaz. Mənim ərə getmək fikrim yoxdur!***

***-Əzizə, xahiş edirəm, sadəcə fikirləş. 20 gün vaxt verirəm. 20 gündən sonra cavabını verərsən.***

Əzizə bayaqdan bəri ilk dəfə başını qaldırıb oğlana baxdı. Göz-gözə gəldilər. İlk baxışdan məhəbbət yəqin ki, bu idi. Qız həmin an ürəyində yaranan istəyin birdən- birə fərqinə vararaq:

***-Yaxşı, fikirləşərəm,- dedi.***

Dastanlardakı kimi 20 gün bir göz qırpımında ötüb keçdi. Düz 20 gündən sonra Əzizənin telefonuna mesaj gəldi:

"Salam, Əzizə. Fikirləşə bilibsənmi? Cavabını səbirsizliklə gözləyirəm. F."

O gündən başlayaraq məktublar quş olub bir-birinə sarı uçdu. İlk küsüşmə. İlk sevgi etirafı. İlk nigarançılıq…

Elçilikdən sonra Elçin kişi qızının fikrini soruşdu.

***-Ata, mən səni atıb getməyəcəyəm. Bəs sənə kim baxacaq? Kim sənin qayğına qalacaq? Bəs sən özünü fikirləşmirsən?***

***-Atalar özlərini yox, qızlarını fikirləşər həmişə. Mən də qocalmışam, ömrümün sonuna çox qalmayıb, səni kimə tapşırıb dünyadan köçəcəm?***

Kişi həyat yoldaşının xiffətini edirdi, elə bir gün yox idi ki, onun adını dilinə gətirməsin.

***-Qızım, sənin atan insan sərrafıdır. Mən Farizin ləyaqətli oğlan olduğunu anladım. Bil ki, əgər sabah mənə nəsə olsa, o sənə kimsəsiz olduğunu hiss etdirməyəcək.***

Elçin kişi doğrudan da insan sərrafıydı, Fariz barədə düşüncələrində yanılmamışdı. O, nişandan beş ay sonra insult keçirəndə Fariz əsl oğul kimi onun qulluğunda durur, iynədərmanlarını alıb gətirir, beş günlük məzuniyyətini qocanın yastığı başında keçirir.

Toydan bir ay sonra Elçin kişi ömrünü qızıyla kürəkəninə bağışlayıb dünyadan köçür.

Dəfndən sonra yeni evlilər yaşamaq üçün Qazaxın Kəmərli kəndinə daşınmağa qərar verirlər. Bu, hər ikisinin arzusuydu, Bakıda qayınanasıgildə yaşayan Əzizə Kəmərlidə xidmət edən həyat yoldaşının həsrətinə dözə bilmirdi, quş olub onun yanına uçmaq istəyirdi.

İki il sonra ilk övladları dünyaya gəlir. Fariz özünü göyün yeddinci qatında hiss edirdi.

***-Qızımız evimizə sevinc gətirdi, adı Sevinc olsun,-deyir.***

İki il sonra ailədə oğlan uşağı- Ruslan doğulur. Xoşbəxt olmaq üçün daha nə lazım idi ki? Amma sərhədyanı rayonda atəşkəsin pozulması ailənin dincliyini əlindən alırdı.

***-Əzizə, Kəmərli təhlükəsiz yer deyil, keçən gün həyatə mərmi düşəndə sənin necə qorxduğun heç yadımdan çıxmır. Gəl sizi kənddən aparım.***

***-Mən sənsiz heç yerdə yaşaya bilmərəm. Sənsiz yaşamağın nə mənası var ki? Bir də ki, mən sənin dediyin kimi hərbçi ruhlu qadınam…***

Bir- birinin varlığından xəbərsiz olan vaxtlarda məhrumiyyətlər, ağrı-acılar içində yaşamış bu iki insan birlikdə olmağın xoşbəxtliyini hava- su kimi içinə çəkirdi. Əzizə həyat yoldaşının işdən evə gəlişini dörd gözlə gözləyirdi. Bəzən Fariz 20 gün evə gələ bilmirdi. Uşaqlar "ata isti çörək gətirəcək" deyə qapıda durub gözləyirdilər. Fariz gələndə üçü də qabağına qaçırdı. Çavuş Fariz Həsənov onların hər üçünün qəhrəmanıydı.

Evliliklərinin 8-ci ili idi. Nədənsə Əzizə Farizin həmin tarixi unutduğunu düşünmüşdü.

***-Fariz, bu gün hansı gündür, xatırlayırsanmı?***

***-Yox ömrüm, mənim yadımda silahdan-sursatdan başqa nəsə qalırmı?***

Əzizə sonra özünü danlamalı oldu. Necə ola bilər ki, ərinin həmin günü unutduğunu düşünmüşdü? Həmin tarix yadındaydı Farizin. Bükülü ovcunu ağır-ağır açdı. Ovcunda güllə var idi. Əzizə güldü.

***-Ay Fariz, camaat yoldaşına gül-çiçək verir, sən də güllə.***

***-Ömrüm, mən hərbçiyəm, hərbçinin qadını da döyüşçü ruhlu olmalıdır. Sən mənim ruhumda olan bir qadınsan. Bu gülləyə baxdıqca, məni xatırlayarsan.***

Xidmət etdiyi N saylı hərbi hissədən sonuncu dəfə 2020-ci il sentyabrın 10-da gəldi. Soyuqqanlıydı. Müharibənin başlayacağını bilirdi. Ağır-ağır sözə başladı.

***-Bizim istiqamət bilindi. Ya Füzulidi, ya da Murovdağ. Yəni mənim gedişimin dönüşü olmaya bilər.***

Fariz bunu deyib gözlərini onun gözlərinə dikdi. Nəzərləri görüşdü. Həmin o ilk görüşdəki baxışlar yenidən bir- birinə qovuşdu. Əzizə bu gözləri bir də görə bilməyəcəyini düşünəndə bədənindən üşütmə keçdi. Özünü ələ aldı:

***-Qurban olum Fariz, belə demə. Sən torpaqlarımızı geri alacaq və qayıdacaqsan. Bizim gözəl günlərimiz hələ qabaqdadır.***

Qadın sözünü qırıq-qırıq deyirdi. Göz yaşları onu boğurdu.

***-Əzizə, ağlama, göz yaşların hələ sənə lazım olacaq.***

***-Xahiş edirəm, belə demə.***

***-Yox, mənə qulaq as. Ruslanımı oxudarsan, qoy general olsun, qızım Sevincin diş həkimi olması üçün çalışarsan. Əyilmə, sınma, ağlama. Ağlasan da göz yaşlarını heç kimə göstərmə. Unutma, sən Fariz Həsənovun həyat yoldaşısan. Mən ölsəm, sən mənimlə daha çox fəxr edəcəksən.***

Şəkil çəkdirməyi sevmirdi, amma həmin gün Əzizə və uşaqlarla şəkil çəkdirdi. Sonuncu dəfə.

***

O gecə Əzizə həmin o dəhşətli yuxunu gördü. Gördü ki, Farizin tabutunu gətirirlər. Tabutu açır, Fariz tabutdan qalxır, gülür. Deyir, "ömrüm, zarafat edirəm, mən sağam". Əzizə yuxudan təngnəfəs oyandı, qara fikirləri başından qovmağa çalışdı, amma nə illah elədisə sakitləşib yuxuya gedə bilmədi. Durub Farizin köynəyini tapıb gətirdi, qoxladı, onu qucaqlayıb yatdı.

Səhər gün eşitdiyi xəbər düz dünyanı qarsdı:

"Çavuş Fariz Həsənov Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. O, Füzuli rayonu ərazisində çiyində tank əleyhinə idarə olunan raket ilə düşmənin çoxlu sayda hərbi texnikasını, 50-dən artıq hərbçisini və 2 hərbi vəzifələsini məhv edib…"

Yox, onun qəhrəmanı onu tərk edə bilməzdi. Əzizə bu xəbərə inanmadı.

Tabutu açmaları üçün israr etdi. Xahiş etdi, yalvardı. Tabutu açdılar. Farizin üzü tanınmaz haldaydı. Əlini üzünə sürtəndə burnunun tanış sümüyünə toxundu. "Farizdir" dedi.

Qəbrinə ilk torpağı özü tökdü. Məzarı başında danışdı, nə danışdığını xatırlamır, ancaq həmin anların soyuq ürpərtisi yaxşı yadındadır.

Balaca Ruslan əlinə verdikləri bayrağı bərk-bərk qolunun altına sıxmışdı. Məzarlıqdan çıxanda "Ana, atanın evi artıq bura olacaq?" deyə soruşdu. Əzizə Farizin sonuncu gedişində dediyi sözləri xatırladı:

***- Artıq uşaqların anası da, atası da sənsən. Bunu unutma, mənim hərbçi ruhlu mübariz qadınım. Qorxma, sınma, əyilmə. Unutma, sən Fariz Həsənovun həyat yoldaşısan. Mən ölsəm, sən mənimlə daha çox fəxr edəcəksən.***

Yıxılmadı. Başını dik tutdu. Şəhid qadınına yaraşan ləyaqətlə dönüb həyata baxdı. Yaşantıları kinolent kimi gözünün önündən keçdi. Anasının xəstəliyi, onun uşaq sıxıntıları, kiçik çiyinlərinə düşən böyük qayğılar, atasının itkisi…

Və anladı ki, onun ən böyük missiyası bundan sonra başlayır. "Şəhid qadınıyam" deyib ayağa qalxmaq, həyatını Vətənə qurban verən hərbçinin ömrünün davamı olmaq, onun yetə bilmədiyi gələcəyə onun naminə varmaq… Artıq onun üçün var olmaq- onların ikisini də yaşatmaq, bu ömrü Fariz və Əzizə kimi yaşamaq idi…

---

Avtoportret

# Elmira Mirzəyeva - əsl insan ömründən ştrixlər

**Bir müdrik deyirmiş...**

**Elə bir insan ki, onun insanlıq meyarı əxlaqdır. Əxlaq ərəb sözüdür - insan xasiyyətlərinin, bəşər təbiətinin cəmi, küllüyatı deməkdir. Əxlaq - mənadır, cövhərdir. Elmira xanıma görə hər bir insan, sözün geniş mənasında mömin, əxlaq isə dindir, imandır, ibadətdir.**

Bir dəfə o, mənə bu barədə bir pritça da söyləmişdi; yadımda qaldığı kimi söyləyirəm:

Bir müdrik ətrafına toplaşan şəxslərə deyirmiş:

***- Əgər sağlamsınızsa, özünüzə 1 bal yazın.***

***- Əgər gözəlsinizsə, 1 balın sağ tərəfinə bir sıfır (0) artırın.***

***- Əgər varlısınızsa, bir sıfır artırın.***

***- Əgər yüksək vəzifəniz varsa bir sıfır da artırın.***

***- Deməli, sizin 1000 balınız var...***

***- Bunların hamısı var, əgər sizin əxlaqınız yoxdursa, sıfırların əvvəlindəki 1 rəqəmini atın getsin, yerdə üç sıfır qalacaq. Bax, budur sizin dəyəriniz!***

### Rənglər ruh kimi azaddır

Rəngkarlıqda portret adlanan bir janr var; necə ki, bütün varlıqlar ən kiçik zərrəciklərin qaynayıb-qovuşmasından yaranır, portreti də hasilə gətirən xəttlər, cizgilər, ştrixlərdir. Kontur xəttlər əsasdır; cizgilər, ştrixlər kontur xəttləri tamamlayır. Təxəyyül və sənətkar qələmi emosional çalışma sonunda kənar izləyiciləri də təsirləndirən portreti - bədii obrazın ilkin, başqa sözlə, təməl variantını təqdim edir. Ona görə ilkin variant deyirəm ki, bu, hələ işin hamısı deyil, çünki xəttlər, cizgilər və ştrixlərin əmələ gətirdiyi vəhdət gərək rənglər və çalarlarla zənginləşsin, necə deyərlər ətə-qana dolsun...

İlkin başlanğıc haqda, yəni yaranışın səbəbi barədə həm fövqəl, həm də elmi təlimlər bəllidir. Rənglər... rənglər isə xəttləri, cizgiləri, ştrixləri nə az, nə çox, qədərində bürüyüb-örtərək portretə həyat nəfəsi verir, təsvirə çevrilən insanın dördguşəli, dairəvi haşiyələr içindən boylanan simasını mənalandırır. Tamaşaçı yalnız bundan sonra portretin prototipinin həm zahiri, həm də daxili aləmi barədə fikir söyləmək imkanı qazanır.

Rənglər özgə bir aləm, ayrı bir sirrdir. Əgər xəttlər, cizgilər, ştrixlər maddənin itməməsi, natural olaraq bir haldan başqa hala keçməsi tələbinə tabedirsə, rənglər ruh kimi azaddır. Onlar əlamətləri havadan, sudan, yeldən, torpaqdan, günəşdən alır, onlar həm əbədidir, həm fani... Əgər belə yox, bir başqa sayaq olsaydı, varlıqları hətta iynə ucu qədərində yer qoymadan qatı, keçilməz bir bozluq bürüyərdi...

Bir az uzun oldu; mənim göydəndüşmə "sənətşünaslığım" təəccüb doğurmasa yaxşıdı. Ciddi sözümdü, indi söyləyəcəyim isə sizi qeyd-şərtsiz təəccübləndirəcək: yəni qətiyyən xəyal etməyin ki, giriş cümlələr başa çatdı, müəllif bax elə indicə hansısa bir rəssamın yaradıcılığından, yaxud hansısa rəngkarlıq əsərinin bədii məziyyətlərindən bəhs eləyəcək. Qətiyyən!

***Yada salmış olarsınız, axı publisistikada da portret deyilən bir janr var. Burada bütün təfsilat - kontur xəttlər də, cizgilər də, ştrixlər də, məkan planı da, əlbəttə, rənglər də faktlarla, informatik düşüncə ilə, bütün hallarda isə sözlə ifadə olunur.***

Kompozisiyanı təmin edən vasitələrin sayı isə heç də rəssamlıqda olduğundan az deyil: söz, qələm, publisitik təxəyyül və portretin tanınma nişanı, ünvan - daha doğrusu qəhrəman, seçilmiş insanın özü...

### Portretin alt yazısı

***Bəri başdan deyirəm, mənim qəhrəmanım portreti yaradılmağa layiq insandır. Əvvələn, onu deyim ki, bir çox digər xanımlardan fərqli olaraq yaşını gizlətməyi sevmir, çünki on beş illik dostluq, rəfiqəlik, bacılıq təcrübəm boyu müşahidə etmişəm: qəlbi, ruhu nəinki cavandır, birmənalı olaraq deyirəm, gəncdir. Yadıma sovet zamanının populyar şairi Süleyman Rüstəmin bir sətri düşür - "Sıfırı yeddinin yanından pozun!.."***

Bildiyim odur ki, mənim tanıdığım Elmira Mirzəyeva yaşadığı 70 illik ömrün bircə ilini, bircə ayını, gününü əksiltməyə, yaxud geri çevirməyə razı olmaz. Məncə, həyatı sağlam düşüncə ilə, halal zəhmətlə, heç sona yetməyən çalışmalarla, kişi qeyrəti ilə yaşayan, bu və digər çoxlu səbəblərin nəticəsində əla uğurlara nail olan hər kəs avtobioqrafik dəyərləndə məhz Elmira xanımın mövqeyində



olar. Əziz rəfiqəm 15 ildir ki, məni heyrətləndirməkdədir. Çünki bu müddətdə onun uğurlarının, demək olar, hamısı gözümün qarşısında təvəllüd tapıb. Bu, hələ hamısı deyil, Elmira Mirzəyeva haqqında Azərbaycanın, eləcə də Rusiya, Türkiyə kimi qonşu dövlətlərin kütləvi informasiya vasitələrində çıxan yazılardan, psixologiya tematikalı televiziya və radio verilişlərindən Azərbaycan ictimaiyyətinə bu idraklı soydaşımızın kimliyi, xidmətləri yaxşı bəllidir. Digər tərəfdən alim-psixoloq-müəllim kimi tanınan (bu silsilə təyinat barədə irəlidə bəhs olunacaq) Elmira Mirzəyeva özü də lakonik, fəqət intellektual bir müəllif qələminə malikdir; onun Azərbaycan və rusca məqalələri "525-ci qəzet", "Psixoloq" qəzetlərinin, "Loqos" jurnalının səhifələrində işıq üzü görüb, maraqla oxunub.

Psixoloq alimin yubileyi ilə əlaqədar bu yazını yazmağa qərar verənə qədər elə bilirdim ki, Elmira Mirzəyeva barədə hər şeyi bilirəm. Bunu havadan demirəm. Axı indi portretini cızdığım ictimai xadimin - Elmira xanımın həyat və yaradıcılığını, ictimai fəaliyyətini əks etdirən iki kitabın müəllifiyəm. Məncə, bu az deyil - eyni müəllifin eyni şəxsiyyət haqqında iki orijinal kitabı: "Elmira - zərifliyin gücü" və "Ömür hekayəti". Yeri gəlmişkən, hər iki kitabın materialları nəzərə alınmaqla yenidən işlədiyim "Elmira Mirzəyeva: Ömür hekayəti" adlı sənədli povesti çox böyük məmnunluq hissi ilə Zərdabi MMC-də yenicə işıq üzü görmüş "Portret" kitabıma da daxil etmişəm. Elmira xanımın 60, 65 illik yubileyləri ərəfəsində onunla geniş müsahibələr etmiş, düşüncə qeydlərimi oxucularla paylaşmışam. Amma, indi bu sətrləri yazıram və qəlbimdə dərin bir arxayınçılıq hiss edirəm, öz özümə deyirəm ki, iş fəaliyyətinə müəllimlikdən başlayan Elmira xanım 1993-2021-ci illər arasında, yəni təqribən 30 illik bir müddət ərzində dünyanın bir çox ölkələrində 30-dan çox beynəlxalq ixtisasartırma kurs və təlimlərinin iştirakçısı olub və sertifikatlar qazanıb. UNİCEF-in 20-dən çox layihəsində icraçı və layihə rəhbəri, Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda Psixologiya kabinetinin müdiri, Azərbaycan Praktik Psixoloqlar Assosiasiyasının vitse-prezidenti, sonradan prezidenti, "SOS Uşaq Kəndləri" Azərbaycan Assosiasiyasında psixoloq, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin baş psixoloq, Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda mühazirəçi vəzifələrini layiqincə təmsil etmiş, H.Əliyev Fondunun "Şəkərli diabetli uşaqlara ən yüksək qayğı", Belnəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanda həyata keçirdiyi "İtkin düşmüş şəxslərin ailələrinin müşayəti", Avropa İttifaqı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, BMT-nin Əhali Fondu tərəfindən həyata keçirilən "Kəndli qadınların məlumat və xidmətlərə çıxışının artırılması", yenə sonuncu iki təşkilatın "Sahibkarlığa və Məşğulluğa İqtisadi dəstək" layihəsi çərçivəsində "Gender-əsaslı zorakılığın aradan qaldırılması (komponent)" və digər layihələrin icraçısı, əksər hallarda koordinatoru olmuşdur.

***... Bunlar Elmira Mirzəyevanın fəaliyyət dairəsindəki ünvanların tam siyahısı deyil. Elə bu adlar sırasından da görünür ki, qəhrəmanımızın portretini dəyərli edən əsas konturlar ictimai mahiyyət daşıyır, sosial yükə malikdir.***

E. Mirzəyevanın həyatı qətiyyən sıradan bir bioqrafiya deyil, ola da bilməz. Çünki onun fəaliyyəti fərdi yox, ümumxalq, ümumazərbaycan mahiyyəti daşıyır. O, millət və vətən qarşısında öz məsuliyyətini dərindən dərk edən, cəmiyyətin xeyirinə olan ideya və təşəbbüsləri məharətlə reallaşdıran dəyərli bir vətəndaşdır. Deməli, nə zamansa mən ona bir bacı səmimiyyəti və bir qədər də yarızarafat: Əziz dost, sənin barəndə nə bilirdimsə dedim, daha sözüm qalmadı, söyləsəm belə, onun barəsində yeni gələn jurnalist nəsilləri mütləq söz açacaqlar. Jurnalistlər yaxşı örnəklərə əsaslanmadan ötüşə bilmirlər. Çünki cəmiyyətin nizanlanmasında uğurlu nümunələr misilsiz təsir gücünə malikdir.

***Qəhrəmanımızın həyat yolunun bütün mərhələləri ciddidir. Valideynlərinin təkidi ilə Gəncədə, texnikumda təhsil alan E.Mirzəyeva əzəli arzusunu da büküb bir qırağa qoymadı, M. F. Axundov adını Rus dili və ədəbiyyatı İnstitutunu bitirdi. Azərbaycan Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda Psixologiya təhsilinə yiyələndi. Təhsil pillələri Azərbaycan, Rusiya, Almaniya, Türkiyə və İngiltərəni əhatə edən E.Mirzəyeva elmi işini sonuncu ölkədə - İngiltərədə müdafiə etdi.***

Dünya Pozitiv Psixoterapiya Assosiasiyasının, Beynəlxalq Ailə Akademiyasının, Rusiya Təhsil Psixoloqları Federasiyasının, Rusiya Prenatal Psixologiya və Tibb Assosiasiyasının, Beynəlxalq Psixologiya və İdarəetmə İnstitutunun, Beynəlxalq Fundamental Təhsil Universitetinin üzvü, Sankt-Peterburq Klinik Psixologiya və Psixoterapiya İnstitutunun elmi şurasının üzvü olan bu azərbaycanlı qadınla şəxsən mən qürur duyuram. Ona görə qürur duyuram ki, bütün bu nailiyyətlər Elmira xanımın iradəsinin əyani göstəricisidir. Bütün bunlar onun ardıcıl, dinamik çalışmalarının nəticəsi olsa da heç vaxt karyera ardınca qaçmayıb, sadəcə, üzərinə düşən məsuliyyət yükünü ləyaqətlə daşıyıb. Əməyinin ən layiqli qiyməti isə bütün Azərbaycan boyunca onu tanıyan, onun xeyirxahlığı ilə mükafatlanan minlərlə insanın sevgisi, ehtiramıdır.

### Haqq söz ürəkdən gəlir

**"Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri, psixologiya üzrə fəlsəfə doktoru Təranə Paşayeva öz yazılarında, çıxışlarında dəfələrlə qeyd eləyir ki, indi bütün ölkədə tanınan bu təşkilatın ilk təməl daşlarının düzülməsindən ta bugünkü səviyyəyə yüksəlməsinə qədər təşkilatımızın ilk baş psixoloqu olmuş Elmira Mirzəyevanın müstəsna əməyi var. Onun nəzəri bilikləri, psixoloji xidmət sahəsindəki əməli təcrübəsi, iş məsuliyyəti sanki bir mayak kimi "Loqos" ailəsi üzvlərinin, gənc psixoloqların yolunu aydınladır. Elmira xanım hələ də "Loqos" təşkilatının intellektual və mənəvi gücüdür, - deyir Təranə xanım!**

**(ardı var)**

**Rəhilə Gülgün**



*Zakir Məmməd*

# Poeziya yükünə çiyin verənlərdən biri - Ayaz Arabaçı

**(əvvəli ötən sayımızda)**

***"Çatmır, kimsəyə çatmır səsi-ünü, harayı,***
***Ağırdı, çox ağırdı bu millətin şələsi.***
***Birləşməsə Arazın bu tayıyla, o tayı,***
***Yüz il də uzanacaq Qarabağ məsələsi..."***

Şair Qarabağ məsələsini doğuran əsas səbəbdən bəhs edir. O, Aprel döyüşləri zamanı böyük ümidlər ifadə edərək yazırdı:

***"Ordayıq aslan kimi, harda zəfər zəngi var,***
***Ruhumuzda baharın çox gözəl ahəngi var,***
***Kökləyin silahları, Qarabağda cəngi var...***
***Qələbəyə az qalıb.***
***Alov saçır cəbhədə, dəmir döşlü Qıratlar,***
***İtiribdi başını zəhərli həşəratlar,***
***Susqun-susqun qeyd edir,***
***mənzərəni"brat"lar,***
***Qələbəyə az qalıb".***

Nəhayət, qələbə əldə edildi. Giley-güzar etməyi xoşlamasam da, bir şeyə təəssüf edirəm ki, Aprel döyüşləri getdiyi vaxt bizim media qurumlarında sovet dövründə yazılmış müharibə şeirləri nəşr olunurdu. Məsələn, A.Arabaçının bu mövzuda yazdığı silsilə şeirlərinə müraciət etmək olardı. Həmin döyüşlər gedən vaxt o yazırdı:

***"Nurlu çıraq tutub bir əli haqqın,***
***Bir də bayrağımı tutub bir əli…***
***Bu saat bizimçün tək bircə söz var,***
***İrəli, irəli, ancaq irəli!***
***Toplarla dindirin "Rastı", "Şüştəri",***
***Duam getdiyiniz yolları qucsun.***
***Şuşanın, Laçının qızılquşları***
***Göylərin ən uca qatında uçsun.***
***Eheyy igidlərim dəli nərəli,***
***İrəli, irəli, ancaq irəli!"***

Bu cür şeirlərin müasir texniki yayım imkanlarının bol olduğu şəraitdə efirdən, ekrandan səsləndirilməsi gərəkirdi ki, bunu da bizim media "nəzərdən qaçıra" bildi. Hətta topluma intellektual kimi təqdim olunan bir sıra yazı-pozu adamları da S.Vurğunun, S.Rüstəmin ikinci cahan savaşına həsr etdiyi şeirlərini saytlarda paylaşaraq sosial media səhifələrində yer alan müasir ədəbiyyatımızın yaxşı nümunələrinə göz yumdular. Ayaz Arabaçı isə yazırdı:

***"Şükür Tanrım, çox şükür ki, əridi bu buz,***
***Danışanda qısılmırıq,səsimiz doyur.***
***Neçə gündü, Qarabağda Milli Ordumuz,***
***Məsələni ciddi-ciddi yoluna qoyur.***
***Yolu yoxdu bu millətin geriyə kəsin!***
***Ermənıyə dil verənin yuxusu qaçsın.***
***Durub elə peysərini günə verməsin,***
***Dünya bir az gözlərini qoy geniş açsın.***
***Dayanmışıq şərəfində yenilməz gücün,***
***Bir ocağın alovuna hoy eləyirik.***
***Biz cəbhədə şəhid olan hər oğul üçün,***
***Yas tutmuruq sazlı-sözlü toy eləyirik.***
***Hansı qüvvə zəiflədib suyunu sıxmış,***
***Birdən-birə dəllalların batıb səsi də.***
***Rədd edirik alt çənəsi qabağa çıxmış,***
***İllərdi ki, mamır basmış atəşkəsi də.***
***Sona yetdi, allı-güllü nağıllarımız,***
***Cəbrayılda, Zəngilanda saxlasın qatar.***
***Şir biləkli, od nəfəsli oğullarımız***
***Bu gedişlə iki günə Şuşaya çatar".***



Şair haqlı idi, müharibə cəmi qırx dörd gün çəkdi, Düşmən basıldı, Şuşa azad oldu. Babalarımız nağıl yazıb siqləti ağır yüklərin aşırılmasına qırx gün möhlət verir. Əsgərimiz buna əməl etdi.

Ədəbiyyatın gücü dar gündə təkcə ümid, ruh vermək deyil, həm də tale yüklü sorularda anons verməkdir. Şeirdə yol, infrastruktur, daha rahat yaşayış barədə qabaqcadan xəbər verilir. Bu minvalla bizim qatarların Qarabağın bütün yaşayış məntəqələrində "posadka" eləməsinə şairin təbirincə az qalıb.

Ayaz Arabaçı ədəbi təfəkkürün "ictimai poeziya" deyilən sütunlarını inşa etmiş sənətkarlarımızdan biridir. Haqsevər poeziyanın Xaqani, Səhənd, Hadi, Sabir kimi nümayəndələri ilə bir sırada durmağa Ayaz Arabaçının haqqı çatır. Təkcə torpaq, ərazi deyil, uzun illər ərzində itirilən çox nəsnələri ədəbiyyatsız xatırlamaq, yada salmaq çətindir. Çünki ədəbiyyat ümumiləşdirir və bundan dərs çıxarmağa məcbur edir: "Heyif ki, pas atmış tapança kimi Qızıl günlərimiz qoburda keçdi".

Bugünkü publisistikanın çox hallarda hıqqana-hıqqana dediklərini poeziya daha "mənzilli" (S.Vurğun) ifadə edə bilir. Şairin fərdi üslubunda çox mətləblərin üzə çıxması mümkündür. Bədii pafos hər zaman işə yarayır, necə deyərlər, "adamın atasını yandırmağa" kifayət edir. Dünya bina olunandan insan həmişə cızığından çıxır. Onun burnundan vurub qaytarmaq üsulu şeir yazmaqdır. A.Arabaçının şeiri bu üzdən də bizə çox lazımdır.

***"Nə qara gözlərə baxan tapılar,***
***Nə qara qaşların zəmanəsidi.***
***Xonçaya bəzəyib mədh eləyirlər,***
***Dəyərsiz başların zəmanəsidi.***
***Bu tarix nə yaman qısa fırlanır,***
***Əlində çəliyi Musa fırlanır,***
***Qibləmiz təzədən rusa fırlanır,***
***Yenə yoldaşların zəmanəsidi.***

Bir şeirindən sitat gətirdiyim bu iki bəndin ümumiləşdirmə gücü yalnız orada əks olunan fikirlə bağlı deyil, məzmunun çatdırılmasında tipik söz və ifadələrin, hətta əhvalatların, tarixi bilgilərin bədii improvizasiyası ilə bağlıdır. Şüura bu şəkildə "həmlə etmək" mümkündür. Onsuz da siyasət adamları belə məzmunlu şərhlərlə hər gün çıxış edirlər. Məsələ burasındadır ki, hər cür siyasi şərhin sonunda da belə aforistik sitatlara, problemin kökündən çözülməsi üçün şeirə istinad etməyə ehtiyac yaranır. Bu cür sitatlar, əlbəttə, hər zaman tapılmır, defisitdir desəm yanılmaram. Bu yazı metodikası yazardan xüsusi qabiliyyət tələb edir. Çətin olsa da, A.Arabaçı bu mövqeyi - şair və vətəndaş mövqeyini heç nəyə dəyişməmək əzmindədir.

***"Qurd kimi uladıq qələmim və mən,***
***Amma ki sapmadıq heç yolumuzdan".***

Başqa bir yerdə şair məqamını daha poetik bəyan edir:

***"Mənim əllərimdə siqardan da çox***
***Qələm tüstülənib bu yaşa kimi".***

Hesab edirəm ki, Ayaz Arabaçı sənətinə baxış üçün bura qədər yazdıqlarım da kifayət edər. Ancaq yazının sonunda bir məsələni qeyd etmək istəyirəm ki, şair hər hansı mövzunun aktuallığı ilə ağ günə çıxa bilməz. Şeir yazmağa mövzu çox olsa da, onun qələmə alınması yollarının axtarılıb tapılması müəllifin üzərinə düşən işdir. Onsuz da bütün qələm adamlarının əbədi qərarlaşacağı məkan sosial platformadır. Güldən, bülbüldən yazılsa da belədir, xalqdan, məmləkətdən yazılsa da belədir. Ədəbiyyatda haqq anlayışı yaxşı yazmaq anlayışı ilə üst-üstə düşür. Ona görə də:

***"Hər şair qələmi haqqı hayqıran,***
***Silaha dönməsə sonu süqutdur.***
***Şərəflə qorumaq öhdəliyim var,***
***Qələm də papaqtək bir atributdur".***
***yazan şair haqlıdır.***

# Özünəqayıdışın başlanğıcı - 2

## Mən o başlanğıcı 30 il gözlədim

**...Karvan yolu düşdü... Ona görə "Karvan" deyirəm ki, içimdə hələ də "Bakıdan-Tuğa" avtobus getdiyinə inana bilmirdim. Axı 30 il bu yolla hərəkət olmamışdı. 30 il nə Bakı Beynəlxalq Avtovağzalında, nə də dünyanın hansısa bir ölkəsində "Bakıdan-Tuğa gedən avtobusa bilet satılır" və yaxud ""Bakıdan-Tuğa gedən avtobus filan platformadan yolu düşür" elanı eşidilməyibdir, dondurulub bu elan. Məncə dondurulmamışdı, o həm də həbsə atılmışdı. İndi isə...**



Bəli, paytaxtdan üzü Qarabağa, Tuğa doğru müşayiətlə iki avtobus bir-birinin ardınca yol gedir. Mənim sərnişi olduğum avtobusda həmsöhbətlərim respublikanın tanınmış ziyalıları, dəyərli insanlarıdı. Oxuculara öncə onları xatırladım. Bunu ona görə edirəm ki, yol boyu kimlərlə söhbət etdiyimi, kimlərlə xatirələrimi bölüşdüyümü öncədən bilsinlər. Zarafat deyil, bu maşında respublikanın ən nüfuzlu həkim cərrahlarından biri olan professor Mübariz Əliyev, Azərbaycanın ictimai-siyasi həyatında xüsusi çəkisi olan maarif xadimi, təhsilimizin gözəl bilicisi professor Asif Cahangirov, millət vəkili Elman Məmmədov, Musiqi Akademiyasının professoru Tamilla xanım, dəyərli ziyalımız, şair-publisist Bəxtiyar Qaraca...



Biz birlikdə gedirik. Elə avtobusumuz şəhərdən çıxan kimi yola körpü salmağın təşəbbüsünü ələ götürdüm. Necə deyərlər, sözü ortalığa atdım. İstədim ki, hərəmiz öz xəyalımızda getməyək bu yolu. Xəyallarımızı bir-birinə calaq vura-vura həm onları da qovuşduraq, həm də 30 illik həsrətin sonunun gəlib çatdığını içimizdə, ruhumuzda, həyatımızda birmənalı şəkildə inanaq. Təbii ki, bu mənim istəyim idi. Digər yol yoldaşlarımın nə düşündüyünü o vaxt deyə bilməzdim. Elə ki, sözü ortaya atdım, onda yanılmadığıma əmin oldum. Çünki hamı həvəslə, necə deyərlər, bütün varlığı ilə bu söhbəti şaxələndirdi...

***- Həkim, (üzümü Mübariz həkimə üz tutmuşdum - Ə.M.) bu yolu axırıncı dəfə nə vaxt getdiyini xatırlayırsanmı?***

***- Əbülfət, sən elə bir söz soruşursan ki, onun cavabını vermək 30 ili təzədən yaşamaq deməkdi. Çünki bu yol heç vaxt yadımdan çıxmayıbdır. Mən 30 il bu yolu yuxularımda, xəyallarımda yorulmadan, bezmədən, incimədən gedib-gəlmişəm. İstəyirsən Tuğun yolunda neçə döngü olduğunu, hansı döngədə hansı ağacın boy verdiyini bir-bir deyim sənə...***

Həkim, əzizim, biz səninlə bu mövzunu hər görüşümüzdə, hər söhbətimizdə müzakirə etmişik və o yolun Füzulidən başlayan nöqtəsini də heç birimiz unutmamışıq "Voenkamatın" diki deyirdik dayanacağa. Ordan oturub avtobuslara, maşınlara gedirdik Tuğa. İndi mən real bir səfərin iştirakçısı olsam da, daxilən özümü inandıra bilmirəm. Elə bil hansısa bir filmi izləməyə başlamışam və Bakıdan uzaqlaşdıqca Tuğa yaxınlaşmağım o filmin sujet xəttindəki dinamikanı göstərir. Yol öz-özünə qısalır. Hətta elə bilirəm ki, mən avtobusdan qabaqda gedirəm...

Söhbətə Asif müəllim qoşulur:

***- Mübariz, bizim hamımızın son bir ildə keçirtdiyimiz hisslər məlumdur. Bilirəm ki, sən bir neçə dəfə artıq Tuğda olmusan. Mən də Şuşada olmuşam. Amma nə qədər gedib-gəlsək də, o həsrət tükənmir. Sanki içimizdəki 30 ilin ağrı, acısı, yükü bir buz tayasıdı, yavaş-yavaş əriyir...***

Bu məqamda Tamilla xanım:

***- Hə, doğurdan da belədir. Mən televizordan Tuğun görüntülərini izləyəndə babamın, nənəmin necə bir cənnətdə yaşadığını seyr edəndə, həm fərəhdən ürəyim dağa dönür, həm də göz yaşlarımı saxlaya bilmirəm. Valideynlərim o kəndlə bağlı söylədiklərini indi gedib görəcəyimə mən də elə bir hislə yanaşıram ki, onu ifadə elə bilmirəm. Çünki rəhmətlik nənəm Tuğdan şəhərə gələndə bir həftə, on gün biz onun ətəyini buraxmırdıq. Danışdıqlarına, xatirələrinə acgözlüklə qulaq asırdıq. Və bizə qəribə gəlirdi ki, bir ucqar kənddə bu qədər dərin düşüncəyə, məntiqə malik bir qadın yaşayır. Biz onda qorxurduq deyək ki, nənəmiz, babamız bəy olub, xanım olub. Mənim nənəm, babam, onların ailələri ilk cümhuriyyətin qəhrəmanlarıdı. Babam cümhuriyyətin İstiqlal Bəyannaməsinə imza atanlardan biridir. Bu yolda özlərini fəda etdilər. Nə millətdən, nə də məsləkdən dönmədilər...***



Maraqla söhbətlərə qulaq asan Bəxtiyar Qaracadan soruşuram:

***- Bəxtiyar, hiss edirəm ki, Mübariz həkimlə şəxsi tanışlığın yoxdu?***

***- Hə, doğurdan da, barəsində eşitmişəm, televizor ekranlarından görmüşəm, amma ilk dəfədir qarşılaşırıq.***

***- Deməli, sizi bir-birinizlə tanış etmək missiyası mənim boynuma düşür deyirəm. Və beləcə artıq avtobusun içərisində bir-birinin kimliyini dərindən tanımayan, bilməyən sərnişin qalmır. Mən bu fürsətdən yararlanıb Azərbaycan ictimaiyyətinin yaxşı tanıdığı Elman Məmmədovu söhbətə qatıram:***

***- Mən Mübariz həkimi də, Asif müəllimi də, sizlərin hər birini yaxşı tanıyıram. Sevinirəm ki, bu gün Qarabağımızın bir gözəl ziyalı xanımı ilə də tanış oldum. Onun Mustafa bəy, Cavad bəy, Xudadat bəy haqqında söylədiklərinin bir hissəsi tarixdə mənə məlumdur. Amma indi məhz həmin o dəyərli aydınlarımızın varislərindən olan Tamili xanımın dilindən Tuğla bağlı fikirlər eşitmək çox xoşdu……***

***- Elman müəllim, inşallah, belə bir səfər də Xocalıya olar tezliklə...***

***- Mütləq olacaq və Xocalıya səfərlə biz Xankəndinə sancdığımız bayrağın altında cənab prezidentin çıxışını dinləyib bayram atəşfəşanlığı yaşayacağıq. O gün lap yaxındadır.***

Söhbət get-gedə şirinləşir və demək olar ki, hamı cənab Prezidentimizin kəndlərimizin, şəhərlərimizin azad edilməsi xəbərini hansı coşğu ilə söylədiyini yadına salır. Xüsusilə Şuşa ilə bağlı qətiyyətli, həm də bir az kövrək səslə dediyi:

***- Şuşa, sən azadsan! Şuşa, sən bizimsən! Şuşa, biz qayıtdıq!***

Bəli, biz Şuşaya, Tuğa, Qarabağa qayıtmışıq. Ona görə də indi Karvanımız Tuğa gedir. O Karvandakı yolçulardan biri də mənəm. Bura Salyan yoludur. Səfərimizə rəhbərlik edən Prezident Administrasiyasının rəsmisi Niyaz müəllimin tövsiyəsi ilə bu yolun kənarındakı istirahət ərazisində 15 dəqiqəlik fasilə elan olunur. Necə deyərlər, hər kəsin öz zəruri tələbatını ödəməsi üçün.

Mən fürsətdən istifadə edib siqaret yandırıram. Doğrudur, tüstülənən siqaretə baxan Mübariz həkim heç nə demir. Amma baxışından hiss edirəm ki, ürəyincə olan iş görmürəm. Neyləmək olar. Az qala 40 ildir ki, tüstülənir bu siqaret əlimdə, barmaqlarımın arasında. Mən də tüstülənirəm onunla birlikdə. Və elə o tüstüyə baxa-baxa da Bakı-Tuğ yolunda doğulan şeiri yaddaşıma yazıram.

***Gözlərimin dibində***
***Son işartı, son çınqı.***
***Əlim dərdin cibində***
***Ürəyimdə qor, yanğı -***
***Otuz il gözlədim mən.***

***Dodaqlarımda qabar,***
***Dilimdə - düyün, yara...***
***Ruhumda sakin qübar,***
***Çəkilmiş kimi dara -***
***Otuz il gözlədim mən.***

***Əllərimdə titrəyiş,***
***Dizlərimdə döyənək.***
***Ayağımda büdrəyiş,***
***Son dözümü geyərək -***
***Otuz il gözlədim mən.***

***Günəş fərqli doğan gün,***
***Bir an fırlanmadı yer.***
***Ordum düşməndən aldı -***
***Cənnəti, sən də gəl gör!***
***Mən otuz il gözlədim...***

...Karvan yolunu davam edir. İndi Asif müəllim yolun qalan hissəsini cavanlarla birlikdə getmək qərarını verib.

**Yəni, maşını dəyişib. Olsun, bu, onun seçimidi! İnşallah mənzil başında bu dəyişmənin onda hansı təəssürat yaratdığını mütləq öyrənəcəm. Biz söhbət edə-edə artıq Beyləqan rayonun Daşburun qəsəbəsindən keçib Füzuli istiqamətində gedirik. Horadizdə bizi Xoavənd rayon İcra Hakimiyətinin başçısı Eyvaz Hüseynov və bu səfərdə bizə qoşulacaq daha 9 nəfər ictimaiyyət nümayəndəsi gözləyir. Bir azdan Horadiz yaxınlığındakı, daha doğrusu, mənim üçün Vaqif Bəhmənlinin və Faiq Qismətoğlunun timsalında xüsusi önəmi olan mərhum dostum Şirxan Adıgözəlovla yaddaşıma əbədi yazılan Böyük Bəhmənli kəndinin 7-8 km-dəki Qarabağ otelində Karvan səfərin birinci hissəsini tamamlayır...**

**(Ardı növbəti şənbə sayımızda)**

**Əbülfət MƏDƏTOĞLU**

# Mövlud müəllimin 60 illik həyat salnaməsi

**Şərəfli peşə sahiblərindən söz düşəndə ilk növbədə müəllimlərimiz yada düşür. Bu peşə qaranlıqları nura boyayan, gələcəyin alimlərini, həkimlərini, mühəndislərini, müəllimlərini yetişdirən, ağla, düşüncəyə aydınlıq bəxş edən bir peşədir. Müəllimlər hər bir çətinliyə sinə gərib, var gücülə şagirdlərin yaxşı oxumasına, tərbiyəsinə çalışırlar. Ömrünü müqəddəs peşəyə həsr edən fədakar müəllimlərimizdən biri də Quba rayonu Amsarqışlaq kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, istedadlı şair Mövlud Ağamməd oğlu Ağammədədir.**

O, 1961-ci ildə Quba rayonun Zərdabi kəndində anadan olub. Orta təhsilini 1979-cu ildə Zərdabi kənd tam orta məktəbində başa vuran Mövlud Ağammǝd 1979-1981-ci illərdə Gürcüstanın Axalkalaki şəhərində hərbi xidmətini başa vurub vətənə qayıdaraq bir müddət Sumqayıt kimya İstehsalat Birliyində aparatçı işləyib.

Mövlud Ağammǝd arzusunda olduğu müəllimlik peşəsinə yiyələnmək üçün 1989-cu ildə istehsalatdan ayrılmadan əvvəlcə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin hazırlıq kursunu, 1984-cü ildə isə həmin fakültənin qiyabi şöbəsini "filoloq", "Azərbaycan dili və ədəbiyyat müəllimi" ixtisası üzrə yüksək qiymətlərlə başa vurur. Bir müddət Zərdabi kənd Mədəniyyət Evinin müdiri işlədikdən sonar, 1993-cü ildən Amsarqışlaq kənd tam orta məktəbində ixtisası üzrə müəllim işləməyə başlayır.

M.Ağammǝd ilk növbədə fənnini şagirdlərinə sevdirməyə çalışır. Şagirdlərin mənəviyyatını saflaşdırıb onlarda gözəl insani keyfiyyətlər aşılayır. Sözün məna və gözəlliyinə, onun ən incə çalarlarına qarşı həssaslıq yaradır, ana dilimizi sevməyi, onu yad ünsürlərdən qorumağı tövsiyə edir.

Mövlud müəllim gənc nəslin dünyagörüşünün, bədii-estetik zövqünün, mədəni aləminin zənginləşməsində.

Mədəni səviyyəsinin yüksəldilməsində mütaliənin mühüm rol oynadığını bilərək şagirdlərdə ona həvəs oyadır. Şagirdlərin müstəqil fəaliyyətlərini, onlarda sərbəst rəy söyləmək, düşünmək, başqalarını dinləmək bacarığını, tənqidi təfəkkürünü inkişaf etdirməyə çalışır. Bir müəllim kimi o hər zaman şagirdlərinə düzgün tərbiyə, dərin bilik verməyə çalışır. Elə bunun da nəticəsidir ki, vaxtilə dərs dediyi şagirdləri bu günün müxtəlif peşə sahibləridir. Mövlud müəllim onların hər birinin uğuruna ürəkdən sevinir, onlarla fəxr edir.

M.Ağammǝd biliklərini hər zaman artıraraq öz üzərində çalışmaqdan yorulmur, işinin öhdəsindən layiqincə gəlir, təhsil sahəsində gedən islahatları izləyir, bu sahədə keçirilən müsabiqələrdə fəal iştirak edir.

Mövlud müəllim həm də şairdir.

Qubada fəaliyyət göstərən "Gülüstan" elmi - ədəbi məclisinin üzvüdür. Onun "Sən ömrümün bənövşəsi" (2018) və "Ey gülüm, can həmdəmim" (2021) şeir kitabları, respublikamızın müxtəlif qəzet və jurnallarında, müxtəlif almanaxlarda çoxlu şeirləri, məqalələri işıq üzü görmüşdür. Duzlu-məzəli şeirləri ilə seçilən hər iki kitabda şairin o qədər də firavan keçməyən həyatının poetik təsvirləri, vətənpərvərlik hissləri, torpağa, yurda olan sevgisi, məhəbbət lirikası ilə yanaşı, satirik ruhda yazılan şeirləri, ironiyalı poetikası toplanmışdır.

***

Bu günlərdə Zərdabi qəsəbə Mədəniyyət evində Mövlud müəllimin anadan olmasının 60, əmək



fəaliyyətinin 40 ilinin tamam olması münasibətilə yığıncaq keçirilmişdir. Yubiley axşamına "Gülüstan" elmi-ədəbi məclisinin üzvləri, çalışdığı Amsarqışlaq kənd tam orta məktəbinin pedaqoji kollektivi, Zərdabi kənd mədəniyyət evinin və kitabxananın kollektivi, qohumları, ictimaiyyət nümayəndələri və məktəblilər gəlmişdilər. Salon bayramsayağı bəzədilmişdi. Yubiley axşamına istedadlı yazar Murad Muradov aparıcılıq edirdi.

"Gülüstan" elmi-ədəbi məclisinin sədri Şİxəmməd Seyidməmədov yubiley yığıncağını açaraq bildirdi ki, Mövlud Ağammǝd yaxşı müəllim olmaqla bərabər öz səsi, öz nəfəsiylə tanınan şairlərimizdəndir, onun yarpaq pıçıltısına, şəlalə harayına bənzəyən misraları qəlbimizi oxşayır, kövrək bir nəğmənin notları kimi duyğularımıza şirinlik gətirir. Ş.Seyidməmmədov "gülüstan"çılar adından Mövlud müəllimə can sağlığı və yaradıcılıq uğurları diləməklə məclisin "Fəxri fərman"ını təqdim etdi.

Amsarqışlaq kənd tam orta məktəbinin direktoru Ramazan Abasov çıxış edərək bildirdi ki, öz ömrünü şagirdlərin tərbiyəsi yolunda şam kimi əridən, onlara ata məhəbbəti bəsləyən, həyata hazırlayan müəllimlərin yubileylərinin keçirilməsinə, onların mənəvi haqları vardır. Mövlud müəllim də öz fəaliyyəti ərzində özünü əsl xalq müəllimi kimi göstərmiş, valideynlərin də, şagirdlərin də sevimlisinə çevrilmişdir.

Çıxışın sonunda Ramazan Abasov Mövlud müəllimi Azərbaycan Təhsil işçiləri Azad Həmkarlar İttifaqı Quba Rayon Komitəsinin fəxri fərmanını təqdim etdi.

Fəal gülüstançı Pirəli Rüklünün şair dostu Mövlud Ağammǝd haqqında xatirələri də dinləyicilərdə gözəl duyğular oyatdı, onları əsrarəngiz şagird dünyasına apardı.

Natiqlər - Binəli Rzayev, Mehman Əhmədov, Malik Gülqəm, Natiq Ağammədov, Şəbnəm Şirinova və başqaları bir-birini əvəz etdi. Onlar Mövlud müəllimi varlığı ilə şagirdlərə bağlı, onların gələcək səadəti, təhsili üçün ürəkdən yanan bir pedaqoq kimi qiymətləndirmişlər.

Şairlərdən Sabir Nemətov, Böyükağa Ağa, Məmməd Qədir, Səxavət Seyidməmmədov, Rəfail Agah, Nəzər Mirzəyev yubilyarı təbrik etdi, cansağlığı, uzun ömür arzulayaraq ona həsr etdikləri şeirlərini oxudular.

Məktəblilərin şairin şeirlərindən müəllim, məktəb, Vətən, tarixi qələbəmiz haqqında söylədikləri nümunələr də alqışlarla qarşılandı.

Axırda Mövlud müəllim çıxış edərək belə gözəl, məzmunlu yubiley axşamının təşkilatçılarına və iştirakçılarına öz minnətdarlığını bildirdi və "Bir yaş da qocaldım" şeirini söylədi.

**Yubiley müəllimə dərin, misilsiz hörmətin, ehtiramın təntənəsinə çevrildi. Mövlud müəllimə hədiyyələr, gül-çiçək dəstələri təqdim olundu.**

### *Mövlud müəllimin 60 yaşına*

***Gəlib məclisinə dost da, tanış da,***
***Mövlud Ağammǝd otursun başda.***
***Cavan görünürsən 60 yaşda !***
***Düz deyil? Qoy desin qohum-qardaşın.***
***Ay Mövlud, mübarək 60 yaşın!***

***Bahar övladısan, baharlısan sən,***
***Yaradıcı qəlbli, nübarlısan sən.***
***Qırız dağları tək vüqarlısan sən,***
***Şadlıq içindədir dostun, yoldaşın,***

***Ay Mövlud, mübarək 60 yaşın!***
***Yaradan səninçün yazıb bu ayı,***
***Hələ davam edir ömrünün yayı.***
***Bu şeir də sədrdən yubiley payı,***
***İl ilə calansın, 100 olsun yaşın,***
***Ay Mövlud, mübarək 60 yaşın!***

**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**№ 85 (2266) 23 oktyabr 2021-ci il**

# Paşinyanın sayıqlaması və prosesin gələcək mənzərəsi

**Məlum olduğu kimi sentyabr aylarının sonlarına yaxın BMT-nin növbəti iclası keçirildi. Həmin iclasda müzakirə olunan məsələlər içərisində dünyadakı qaynar nöqtələr, siyasi mənzərə, qarşıdurmalar, pandemiya, qaçqın problemləri də gündəmə gətirilmişdi.**

Təbii ki, bütün zamanlarda olduğu kimi, BMT-nin bu iclasında da heç bir məsələ heç vaxt həllini tapmayıb və bu məsələlərdə bir siyasi diskussiya kimi müzakirə olundu, dövlət başçıları, siyasi liderlər münasibətlərini bildirdilər və daha çox da qoyulan məsələyə ayrı-ayrı dövlətin və onun rəhbərinin yanaşması açıqlandı. Bax, bu mənada dörd qətnaməsi zibil qutusuna atılan BMT bu günə qədər Ermənistana təsir edə bilmədiyi kimi və qətnaməsinin icrasını reallaşdırmaq gücündən uzaq olduğu üçün yenə də necə deyərlər, ”oyundan kənarda qalır”. Burada ”üzüləsi” heç nə yoxdur. Çünki BMT ümumiyyətlə, bir təşkilat kimi daha çox çayxananı xatırladır. Ona görə də bizim məşhur filmlərin birində deyildiyi kimi, topu, topxanası olmayan BMT ancaq söhbətləşmə ilə, bir az da sadə formada ifadə etsəm, ”qeybət etməklə” işini bitmiş hesab edir.



Bizim üçün BMT-nin son iclasında önəmli olan məsələ təbii ki, Qarabağ məsələsi, Azərbaycan- Ermənistan problemi ilə bağlı səslənən fikirlərdir. Həmişə olduğu kimi, bu yüksək tribunadan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dünyaya səsləndi. Və birbaşa vurğuladı ki, ”Azərbaycan 30 ildən artıq davam edən torpaq işğalını öz gücü hesabına heç kimdən yardım istəmədən təkbaşına həll etdi. Dünyanın bu problemi öz həllini tapdı”. Təbii ki, ölkə prezidenti cənab İlham Əliyevin uğurlu xarici siyasəti artıq dünyaya məlumdur və hər kəs də bu siyasətlə, onun arxasında dayanan güclə və Azərbaycanın ədalətli mövqeyi ilə razılaşmaq zorundadır. Çox təəssüf ki, BMT-nin həmin iclasında ABŞ-ın yaşının çoxunu yaşamış prezidenti ikili standartlardan çıxış etmək yolunu unutmadı.

Hətta onun müstəqilliyini qeyd edən Ermənistan rəhbərliyinə göndərdiyi təbrik məktubunda da bu dostluğu, qardaşlığı, Amerikanın onlara dəstəyini xüsusi vurğulayıb. Hətta həmin məktubda qeyd edib ki, Azərbaycan- Ermənistan və Dağlıq Qarabağ problemi Minsk qrupunun iştirakı ilə həll edilməlidir və ABŞ hökuməti də həmsədr kimi bu məsələdə öz imkanlarından ən yüksək səviyyədə istifadə etməklə problemin tezliklə çözümünə dəstək verəcək?!

Doğrusu, o boyda Amerikanın prezidentinin mətbuatda yer almış məktubunu oxuyanda adamda qəribə təsəvvürlər yaranır. İnana bilmirsən ki, o boyda Amerikanın o boyda prezidenti Qafqazda nələrin baş verdiyini, Azərbaycan ordusunun 44 günlük Zəfər döyüşü artıq Ermənistanla Azərbaycan arasında 30 ilə yaxın davam edən problemi həll edib.

Artıq bizim üçün, eləcə də region üçün Dağlıq Qarabağ Muxtar Vilayəti adlı qurum yoxdur və bu problem də həmin qurumla birlikdə ortadan qaldırılıb. Proseslərin davamında bölgədə qalan digər məsələlər də öz həllini tapacaqdır.

Çox qəribədir ki, Minsk qrupunun digər həmsədr dövləti olan Rusiyada və şəxsən onun prezidenti olan Putin də Ermənistana göndərən təbrik məktubunda ”ermənilərlə rusların qardaş olduğunu” xüsusi vurğulayıbdır. Görünür elə bu ”qardaşlıqların” arxasında gizlənən Ermənistan özünü arxalılardan hesab edir.

Ona görə də Azərbaycana, eləcə də Türkiyəyə qarşı təxribatlardan çəkinmir.

Siyasi proseslərin indiki durumunda Ermənistanın baş naziri Paşinyan da Yerevanın baş meydanında keçirilən müstəqillik mitinqində də öz erməniliyini büruzə verib. Ona görə ki, onun siyasi nüfuzu proseslərin gedişində kifayət qədər zədələndiyindən o mitinq iştirakçılarına üz tutaraq sətiraltı vurğulayıb ki, ”Bugünkü qələbə də, bugünkü məğlubiyyət də zaman keçdikdə öz yerini dəyişə bilər. Erməni xalqı sevindiyi kimi, ağlamağı da bacarır, ağladığı kimi sevinməyi də bacarır. Biz yenə iki erməni dövlətinin mövcudluğuna, çiçəklənməsinə əvvəl sevindiyimiz kimi, sabah da sevinəcəyik”.

Bax bu fikirlərin yozumuna baş vuranda aydın olur ki, Ermənistan və onun rəhbərliyi imzalanmış üçtərəfli bəyanatdan, yəni, təslim aktından, həmçinin o imzanın sahibi olan baş nazirin mövqeyindən özü üçün ciddi nəticə çıxarmaq əvəzinə manipulyasiya etməyi üstüklük verir. Yəni, bu oyunbazlıqla onlar əslində yenidən silahlanmaq və yenidən müharibəni alovlandırmaq niyyətlərini gerçəkləşdirmək istəyirlər. Lakin düşmən unudur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Şuşadan dünyaya, eləcə də Ermənistana üz tutaraq bəyan edib ki, ”Bu gün mən buradan bir daha dünyaya və Ermənistana səslənirəm. Biz öz torpaqlarımızı ordumuzun gücü ilə azad etmişik.



Bu ordunun nəyə qadir olduğunu 44 günlük müharibəmiz hər kəsə göstərdi. Biz buradayıq və kimsə başqa fikirlərə düşərsə, dəmir yumruq onların başına enəcək. Bunu heç kim unutmasın!”

Ermənistanın baş nazirinin sayıqlaması, yəni mitinqdə səsləndirdiyi fikirlər dərhal Azərbaycan siyasi dairələri, eləcə də Azərbaycanın yanında olan Türkiyə, Pakistan və digər dövlətlər tərəfindən cavabını aldı. Türkiyə Prezidenti açıq şəkildə bəyan etdi ki, biz hər zaman Azərbaycanın yanındayıq. Eləcə də Türkiyənin müdafiə naziri rəsmi şəkildə Ermənistana və onun havadarlarına çatdırdı ki, Azərbaycan tək deyil və biz onunla birlikdəyik. Bu nöqtədə Pakistanın da rəsmi açıqlaması gecikmədi. Bölgədə yaranmış bu üçlüyün, qardaşlığı, silah birliyi indi reallıqdı və bu reallığı dünya birliyi görməyə bilməz. Xüsusilə, Rusiyanın bu məsələdə öz imzasına sayqısı və güvəni indi düşündürücü bir məqam yaradır. Əgər Rusiya bölgədə yenidən silahların səslənməsini istəmirsə, deməli, o öz qardaşı olan Ermənistanın və ermənilərin başına ağıl qoymalıdır. Əks halda müharibənin yenidən alovlanması siyasi ekspertlərin söylədiyi kimi, Rusiyanın da daxilindəki gərginliyi daha da artıracaq.

**Bu gün proseslərin dramatik bir məcrada davam etməsi bir daha göstərir ki, bölgədəki maraqlar sülhü qorumağa yox, daha çox silahların səslənməsinə xidmət edir. Çünki bu maraqlar tökülən qanı yox, qazanacağı dividenti önə çəkir. Ümumiyyətlə isə, Ermənistan-Azərbaycan probleminin bundan sonrakı mənzərəsi maraqların yox, Azərbaycanın, ədalətinin və gücünün diktəsində özünü göstərəcək.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Türkçülüyə Nargindən baxış

## *(Əməkdar jurnalist Yunis Orucovun "Nargin - saralmış kədər" tarixi romanı barədə düşüncələr)*



*Azad Müzəffərli*
*əməkdar jurnalist*

**Az qala o biri dünya ilə məni bağırbadaş edən koronavirusun məşəqqətlərindən bir neçə gün olardı qurtulmuşdum ki, mənimlə təxminən eyni vaxtda həmin taleyi yaşayan iş yoldaşım Yunis Orucov yenicə işıq üzü görən və xəstələndiyi üçün hələ sevincini dolğun yaşaya bilmədiyi ilk kitabını bəndənizə də hədiyyə etdi. Mən onu publisistik əsər sandım. Kitabın üz qabığına diqqət yetirərkən bunun roman olduğunu öyrəndim. Əsərin mayasının Azərbaycan və Türkiyə türklərinin mənəvi birliyindən yoğrulduğunu biləndə isə kitabı birnəfəsə oxudum. Koronavirusun məni yarımcan eləməsinə baxmayaraq bütün mahiyyəti türklükdən yoğrulmuş biri kimi kitaba rəyimi bildirməyi mənəvi borcum sandım.**

### *Qarabağ Zəfəri*

həm türkün qüdrətinin güzgüsü, həm də Azərbaycan və Türkiyə türklərinə növbəti həyat dərsidir. Onlara eyni soy-kökdən olduqlarını diktə edən daha bir danılmaz reallıqdır. Yunis Orucov bu baxımdan həmin birliyə imkan düşdükcə bir qətrə də olsa belə payını verməyi mənəvi borcu bilən, yəni bu ali mətləbi qanı və canı, bütün varlığı ilə qanan kəslərdəndir.

Əsərin məqamında və lazımi səviyyədə araya-ərsəyə gətirlməsində Yunis Orucovun Nargində canlı "yaşadıqları"nın mühüm payı var. O, məhz Nargində bulud təkin dolaraq ədəbiyyat səltənətinə yön alıb. İçindəki türkçülük tonqalını ərşə bülənd edən təkcə oxuduqları deyil, ilk növbədə Nargində canlı şahidi olduqlarıdır. O, vaxtilə vəhşətin tüğyan etdiyi bu ruhlar adasında əlinə aldığı Vətən nisgilli türk əsirlərinin sümüklərindən, kortəbii qəbirstanlıqlardan, vahiməli qayalıqların hayqırtısından qaynaqlanan tarixi qədərincə duyaraq sözə çevirib, əsərinin canına hopdurub. İnsanlıq adına haram sayılan müsibətlərə şahidlik edən Xəzər dənizinin Narginin(indiki Böyük Zirə adası) sahillərinə çırpılan, qəzəbi hələ də soyumayan dalğaları, əsrlərdir burada yaşananların ağrı-acısını canına çəkən buludlardan yuvarlanan göz yaşları da Yunisə çox mətləblər haqqında pıçıldayıb, o cümlədən türklərə qarşı olmazın cəlladlıqlar edən ermənilərin saya gəlməyən bəd niyyətləri barədə.

### *Romanda*

Sarıqamışda ayağından yaralanaraq əsir düşən Gəncə doğumlu Sərdarın, türk hərbi əsirlərinin, mülki şəxslərin acınacaqlı taleyi çılpaqlığı ilə ortalığa qoyulub, onlara qarşı törədilən qeyri-insani əməllər kompleks şəkildə təqdim edilib. Əsirlərin bərbad vəziyyətdəki baraklarda saxlanılmaları, ac-yalavac, bir qurtum suya möhtac olmaları, əllərinə keçən sümükləri belə aclıqdan gəmirmək məcburiyyətində qalmaları, cəsədlərinin kimsəsiz çöllərə və ya dənizə atılması, kütləvi məzarlıqlarda və ya Narginin sahilində qazılan quyularda üst-üstə qalanaraq gömülmələri, rusların qəsdən nəzarətçilərin əksəriyyətini ermənilərdən təyin etmələri, yaralıların müalicəsinin də erməni cəlladlarına həvalə edilməsi və bu səpgili digər faktlara biganə qalmaq mümkün deyil.

***Əsər vaxtilə makedoniyalı İsgəndərə quyruq bulayan, öz vətənləri Hindistana arxa çevirərək Türkiyə və Azərbaycanın yerləşdikləri ərazilərə də göz dikən qaraçı kökənli fürsətcil ermənilərin əsl xislətinin dolğun təsviri baxımdan da olduqca dəyərlidir. Romanda yeri gəldikcə hayların Azərbaycan və Türkiyədə törətdikləri insanlıq adına yamaq olan vəhşiliklərə, o cümlədən, Bakı, Anadolu, İrəvan, Tiflis və digər qırğınlara da qədərincə yer verilib.***

Əsər türk təfəkkürünün məhsuludur. Elə türk təxəyyülündə də kifayət qədər dolğun həzm olunub. Romanın bədii-estetik dəyəri günümüzlə tam səsləşir və indiki tükənməz Zəfər ruhuna əlavə notlar qatır. Ruhu, qanı bizlərdən olanların bu əsərə biganə qalması mümkün deyil. Romanın süjet xətti demək olar ki, kəsərdən düşmür, əksər hallarda oxucunu yerindən oynadır və hətta bəzən türk igidi kimi şahə qaldırır. Obrazların xarakterləri canlı və bitkindir, emosional ruh dolğundur. Əsər boyunca surətlərin düşüncələri, hissləri və duyğuları xırdalıqlarına qədər əksini tapıb. Fərdi üslub qabarıqdır. Ob-




razlı düşüncə yetərincədir. Nəqletmənin cilovunu müəllif məharətlə əldə saxlayıb. Əsərdə incə psixologizm bəs deyincədir.

***Publisistikanın da kifayət qədər yer aldığı bu roman dərin oxucunun, xüsusilə qələm əhlinin yaddaşında ədəbiyyata jurnalistikadan adlayan neçə-neçə yazıçının ədəbiyyat səltənətinin nəhənglərinə çevrildiyi reallığını canlandırır. Romanda dilimizin şəhdi-şirəsi olan, təəssüf ki indi az işlənən xeyli sözdən yeri gəldikcə istifadə edilməsi də diqqəti çəkir. Əsərdə küçə, bina və digər məkanların əvvəlki və indiki adlarının qoşa verilməsi də önəmlidir. Bu, ələlxüsus, yeniyetmə və gənclər üçün daha vacibdir. Əsər boyunca ruhsal qat kəsərdən düşmür. Müəllif şahidi olduğu və əldə etdiyi biliklərə əsaslanaraq obrazların daxili aləminə qədərincə nüfuz edə bilib. Ən əsası məğzin dərinliyi və mövzunun əlahiddəliyi əsər boyunca lazımınca diqqətdə saxlanıb. Qələm gücünə vizuallığa da nail olunub.***

Müəllifin ilk bədii əsəri olmasına baxmayaraq romanın nəqletmə texnikası razılıq doğurur və dili də tutumludur. Əsər boyunca publisistika bəzən bədiiliyi sıxışdırır. Bu da təbiidir, peşəkar vərdişdən irəli gəlir. Digər tərəfdən bu əsərin müəllifin ilk ədəbi nümunəsi, nübarı olduğunu da unutmamalıyıq. Roman kiçikdən böyüyə, yoxsulundan milyonçusuna qədər hər bir Azərbaycan türkünün qəlbinin o ağır günlərdə Nargindəki müharibə qurbanlarının yanında döyündüyünü tam təfsilatı ilə oxucuya çatdırır.

### *Dəniz kənarında*

***hamballıq edən, ciblərində siçanlar meydan sulayan, əksər hallarda qara qəpiyə belə şıllaq atmaq məcburiyyətində qalan, külfətləri bir tikə çörəyə möhtac olan hambalların da adambaşı on qəpik ödəyərək Nargindəki türk əsirlərə yardım üçün Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin dəstəyi ilə nəşr edilən "Qardaş köməyi" dərgisini almaları səhnəsi çox təsirli və türk qardaşlığını olduğu kimi ehtiva edən məqamlardandır. Əsərdə millətimizin bütün təbəqələrindən olan soydaşlarımızın ötən əsrin əvvəllərində müharibə zamanı Bakı küçələrində dilənmək məcburiyyətində qalan Türkiyə türklərinə, ələlxüsus da qadın və cocuqlara da necə yiyə çıxmaları geniş əksini tapıb.***

Roman Hacı Zeynalabdin Tağıyev, Nəriman Nərimanov, Əlimərdan bəy Topçubaşov, Murtuza Muxtarov, Ağamusa Nağıyev, Ağabala Quliyev, İsmayıl bəy Səfərəlibəyov, Sona Hacıyeva, türk yetim uşaqlara analıq qayğısını bir an da olsun əskiltməyən Tiflisdəki sığınacağın müdirəsi Fatma xanım, Şəmsi Əsədullayevin oğlu Mirzə bəy, Xəlil bəy Xasməmmədov, Xosrov bəy Sultanov və digər saya gəlməyən soydaşlarımızın iç dünyasını bizə daha yaxından tanıtdırır, onların milli-mənəvi dəyərlərə bağlılıqlarını yetərincə əhatə edir.

Şuşalı Hacı İbrahimoğlu Xəlilin obrazına da romanda xüsusi yer verilməsi təqdirəlayiqdir. Bu, əsl peşəkarlıq və yetkin vətəndaşlıq nümunəsi kimi dəyərləndirilməlidir. Qanı və ruhu türkün əzəmətindən yoğrulan həmin soydaşımızın ermənilərdən atasının qisasını almaq və Türkiyə türklərinə qahmar çıxmaq üçün bütün varlığı ilə Sarıqamışa - ölüm-dirim savaşına yollanması və son nəfəsinədək yaşadıqları diqqəti çəkir. Sarıqamışın zirvəsində qan qardaşını ölümün caynağından xilas edərək son mənzilə qovuşan bu Şuşalı balasının cibindən çıxan anasına məktubunu albay Hafiz Haqqı bəyin gözünə təpməsi səhnəsi olduqca təsirlidir. Oxucuda bir anlığa elə təsəvvür yaranır ki, Qarabağ zəfərində Türkiyənin bizə hərtərəfli dəstəyi və Qarabağın zirvəsində imzalanan Şuşa bəyannaməsinin mürəkkəbi məhz türkün birliyinin, ayrılmazlığının rəmzi olan həmin məktubdan qaynaqlanır. Bundan başqa Şuşa bəyannaməsi eləcə də "Nargin - saralmış kədər" kitabında əksini tapan 1918-ci il iyun ayının 4-də Osmanlı ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanan tarixi müqavilənin məntiqi davamı kimi dəyərləndirilməlidir.

### *Müəllifin əsərində*

soydaşlarımızın Nargindən növbəti dəfə qaçırdıqları 121 türk əsiri iki qrupa bölmələri və bu qruplardan birində əsirlərinin sayının 44 olması faktı da təsadüfi xarakter daşımır. Bununla o, 44 günlük müharibənin fəlsəfəsini Azərbaycan və Türkiyə türklərinin əsrlərin sınağından çıxmış sarsılmaz birliyinə, qardaşlığına bağlayır.

***Romanın başlıqları da, onlara ayna tutan şeirlər də zövqlə və ədəbi peşəkarlıqla işlənib, Turan məzmunludur. Əsərin başlıca dəyəri bir də ondadır ki, cəmi üç ildə - 1915-1918-ci illərdə baş verənlərdən bəhs etsə də, mahiyyətcə əhatə dairəsi türkün yaranışından bu günə qədər keçdiyi yola işıq salmaq qüdrətindədir.***

Romandan müəllifin bir əlçim ömrünü elmə, biliyə bağlaması, kitablar dəryasının mahir qəvvası olması, mütaliəsinin ölçüyəgəlməz miqyası boylanır. O, qanı, iliyi və sümüyü ilə türkdür. Hər bir fərdin əsl dəyərində onun milli kimliyini dərketmə səviyyəsi və milli anlamda onunla eyni soy-kökdən olanlara daim qahmar çıxma xüsusiyyəti ən vacib, ən həlledici məqamlardandır.

***Əsərin müəllifi Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ötən müddətdə daha da zənginləşdirdiyi Heydər Əliyev məktəbinin əlaçılarındandır. O, uzun illərdir dövlət başçılarının, dövlət siyasətinə dəstəyini əsirgəməyən və halallıqla birinci vitse-prezident səviyyəsinə yüksələn Mehriban Əliyevanın fəaliyyətini gündəlik olaraq işıqlandıran məhdud sayda jurnalistlərdən biridir. Bunu 28 ildir həmin məktəbin incəliklərinə kifayət qədər dərindən bələd olan veteran jurnalistlərdən biri kimi təsdiqləməyi də mənəvi borcum bildim.***

### *Hazırda çap olunan kitabların*

əksəriyyətində redaktə işi axsayır, bu danılmaz reallıqdır. Yunis Orucovun yeni kitabı ümumilikdə qüsursuzdur, həmin baxımdan müsbət nümunə rolunu oynaya bilər. Zənnimcə, bu uğura görə müəlliflə yanaşı kitabın redaktoru, əməkdar jurnalist Firuzə Nadirin də əməyi xüsusi qeyd olunmalıdır. Ədalət naminə, bu məqamda müəllifi ədəbiyyat aləminə kökləyən, bu dəyərli əsərin araya-ərsəyə gəlməsində ona mənəvi dəstək olan kəslərin də - Elçin Kazımov, rejissor Arzu Məhərrəmov, montaj rejissoru İlham Qaliboğlu, operatator Oqtay Qasımov, redaktor Firuzə Nadir, övladları Qurban və Leylanın(müəllif onların hamısının adlarını kitabda xüsusi qeyd edərək dərin təşəkkürünü yetirib) vətəndaşlıq mövqeyi də xüsusi vurğulanmalıdır. Kitabın nəşrində müəllifə dəstək olan Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondu da xeyirxah məramına görə alqışa layiqdir.

Məncə, Yunis Orucovun məqamında qələmə aldığı bu tarixi roman el dilində cəhənnəm adası adını alan Nargində uyuyan on minlərlə türk əsirlərinin xatirəsinə abidə ucaldılmasına və memorial lövhə qoyulmasına, yaddaş muzeyinin yaradılmasına, bu qəbildən olan digər tədbirlərə də təkan verəcək. Bu əsər hələ də mürgü döyən türk kökənli digər millətlər üçün də ibrət dərsidir. İstər bayrağı başının üstə dalğalananlarına, istərsə də rusun və digərlərinin bayrağı altında kölgələnənlərinə.

**Zənnimcə, Bakıda yazılmağa başlasa da, nöqtəsi - əslində nida işarələri Şuşada qoyulan bu tarixi roman təkcə yaradıcılıq deyil, ilk növbədə mayası türkçülükdən yoğrulmuş VƏTƏNDAŞLIQ nümunəsi kimi dəyərləndirilməlidir.**

# ZƏNGƏZUR QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR



*Əvəz Məhmud Lələdağ*
*Şair,dramaturq,publisist*
*SDU-nun müəllimi*

**(əvvəli ötən şənbə sayımızda)**

**Bu yerlərdə saysız-hesabsız Oğuz qalaları,alban məbədləri, məscidlər,pirlər,ziyarətgahlar, müqəddəs ocaqlar, at və qoç heykəli həkk olunmuş qəbirüstü abidələr, daş sandıqlar, künbəzlər Azərbaycan türklərinin yaratdıqları maddi mədəniyyətin tarixi abidələr deyilmi?Bizim hansı xalqa məxsus olduğumuzu, hansı etnosun Vətəni olduğumuzu torpağın yaddaşı olan toponimlər, Urud,Ağdü, Şəki qalaları künbəzlər Zəngəzurun qədim tarixi adibələri bir daha sübut edir..Hələ lap qədim dövrlərdən bu yerin Azərbaycan ərazisi olması şübhəsidir.Azərbaycanın qəhrəman oğlu Babək ərəb işğalçılarına məğlub olandan sonra Ağdü kəndindən Qara kilsədən (Sisiyan) keçib Şəki kəndinə öz doğma torpağının bir yerindən başqa yerinə gəlmişdi.Şəki kəndinin və qalasının sahibi Səh-ibn Sunbat onu öz hökmdarı kimi qəbul etmiş, bir müddət qulluğunda durmuş, sonra xəyanətlə ərəblərə təhvil vermişidr.Ağdü kəndində XVII əsrdə inşa edilmiş "Kümbəz" var.Onda bu yerlərdə erməni millətinin izi-tozu da tapılmazdı.Bu müqəddəs Künbəzdə Ağdü kəndində anadan olmuş Bədəlxan bəy və oğlu Rzaqulu bəy uyuyurlar.Bazarçayı boyunca baxdıqca səpələnmiş adları dəyişdirilmiş Əlili(Salvart), Məliklər (Spandaryan), Saybalı(Sarnaqun), Məzirə (Bartsravan) kəndərini, bir də, Ərikli, Şukar, Şukarlı, Mərcanlı, Ağdaban, Mahmudlu kəndlərinin xarabanalığını görmək olardı.**

Bazarçay öz mənbəyini Kiçik Qafqaz dağlarından götürür.Bu çay Qubadlı ərazisinə kimi Bazarçay, sonra Bərgüşad adlanır.Bərgüşad da Həkəri çayı ilə birləşib Araza, kürə qovuşur.Xəzər dənizinə çatmağa can atırlar.Bazarçayda qızılbalıq, göybalıq, bığlıbalıq, dabanbalıq yaxşı inkişaf edirdi.Lakin ermənilər bu çayı da zəhərlədilər.1950-ci ildə Qarakilsə (sisiyan) bölgəsinin Dəstəgird kəndində Molibden mədəni tapdılar.Onun zəhərli suyu Bazarçaya axıdıldı, balıqlar zəhərlənib kütləvi qırıldılar.Sağ qalanların, taleyinə bizim kimi didərginlik yazıldı, çayaşağı köçüb getdilər.1960-cı illərdə şərəfsiz ermənilər Bazarçayı Voratançay, qədim Urud kəndini də Voratan kənd adlandırdılar.Amma biz orda yaşayan azərbaycanlılar 1988-ci ilə kimiermənilərin dəyişdiyi adları dilimizə gətirmədik.Bazarçay, İşıqlıdağ, Urud və başqa kəndlərin qədim adı dilimizdən düşmürdü.Bəli erməni adı ilə nə bir dağ, nə bir yaylaq, nə də bir bulaq tapmazdın bu yerlərdə.Bəs necə oldu ki, qədim Azərbaycan torpağı Zəngəzur yağılara qaldı?

Qədim Azərbaycan torpağı olan qərbi Zəngəzurun Qarakilsə bölgəsində ən böyük kənd bizim kənd olub.800 evli Ağdü kəndi qonaqpərvərliyə, sədaqətə, mərdliyə görə dillər əzbəri idi.Öz tarixi mədəniyyətini, adət-ənənəsini, milli mənəvi dəyərlərini qoruyub saxlamaqda öndə gedirdi.Ağdü kəndi həmişə vuran, tutan, qoçaq, igid kişiləri ilə məşhur olub.Təsadüfi deyil ki, 1905-ci ildə daşnak Qazar Stepaniyanısın (el arasında ona Stepan deyirdilər) Qarakilsə bölgəsinə hücum edən qoşununu darmadağın edən, özünü cəhənnəmə göndərən də Ağdü igidləri oldu.Vaxtı ilə Ağdü qərbi Zəngəzurun basılmaz qalası sayılıb.

Azar vəd edir ki, Ağdünü , Vağədini, Urudu, Şamı, İrmisi, Bəhlulu, Darabasi(bunlar azərbaycanlılar yaşayan kəndlərdi) işğal edib, əhalisini qılıncdan keçirib, Darabasda nahar edəcəm.Qazar Stepanyanısı səbirsizliklə gözləyən ermənilərin sevinci yasa çevrilir.Ağdü igidləri qələbə çaldıqları üçün bayram edir saz tutub söz qoşurlar.

*Ağdü igidləri bır qurğu qurdu,*
*Daşnak Stepan başından vurdu.*
*Hayın getdi, vayın qaldı, Stepan*
*Butulkada payın qaldı, Stepan.*

***(Butulkada payın qaldı Darabasdakı ziyafətə rişxəndlə deyilib)***

Stepan davasında satqın, faşist,Vətən xaini Qaragin Nijdenin, Dro Kamayanın yırtıcı əlləri günahsız insanların qanına batib,kəndimiz 98 şəhid verib.Üzbaşı Səttar Əhmədov da erməni terrorunun qurbanı olub.Ağdü toponiminin özü türk mənşəlidir.Akademik Budaq Budaqov, Qeybulla Qeybullayev ,Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti kitabında yazırlar:

***- Ağdü Azərbaycanın Yelizavetpol quberiyasının Zəngəzur qəzasında (indiki Ermənistanın Sisiyan rayonunda) kənd adıdır.Ermənistan ərazisində ən qədim, türk mənşəli toponimdir.Ağdü sözünün mənası türkcə ağ, düzənlik , təpəlik, ucalıq və çəpər mənasındadır.Ağ sözü ilə başlayan Ağdüz, Ağyazı, Ağyal, Ağbulaq, Ağtəpə,Ağsu, Ağdaş, Ağdam toponimləri mövcuddur.Lakin mənfur qonşular Ağdü kimi gözəl toponimi dəyişib Aqxitu qoyublar.Amma unutmasınlar ki, kəndimizin adı Ağdüdür.***

*Kəndlər arasında kəndimiz şahdır,*
*Kəbə,Kərbəladı, bir qibləgahdır.*
*Onsuz yaşamağım, vallah günahdır,*
*Həmişə onunla qürrələnmişəm.*

Kəndimizdə karlı kişilər olub.27 dəfə həcc ziyarətinə getmiş Hacı Əbdüləli kəndimizdə öz vəsaiti hesabına dördillik rus tatar məktəbini 1886-ci ildə açdırmağa nail olub.İstedadlı alimimiz Abbas Zamanov deyirdi:

***-Tblisidə arxivdə araşdırma apararkən Hacı Əbdüləlinin məktəb açması barədə yazdığı ərizəsini özüm oxudum.***

Hacının açdırdığı məktəbə müdirlik edən Mirzə Əbdülrəhim olub.O, Təbrizdən gəlmiş imiş.Xalq yazıçısı Əli Vəliyev , geologoya-mineralogiya elmləri doktoru, akademik Həsən Əbdüləli oğlu Əhmədov həmin məktəbin yertimələri idilər. İstedadlı yazıçımız Əli Qaraoğlu Vəliyev məktəb haqda ağız dolusu danışırdı:

***-Mənim əlimi çörəyə çatdıran Hacı Əbdüləlinin açdığı 4 illik rus-tatarı məktəbi, bir də Mirzə Əbdülrəhimin verdiyi savad oldu.***

Qərbi Zəngəzurda tanınmış maarifpərvər, xeyriyyəçi, xalqının balalarını oxutmaq, savadlandırmaq, açdığı məktəbin inkişafı üçün əlindən gələni əsirgəməyən bu xeyirxah insanı-Hacı Əbdüləlini bolşevik rejimi, Stalinin amansız qanunu "Kulak" adı ilə həbs edirlər, məktəbi bağlayırlar,müəllimlərini pərən-pərən salırlar.

Kəndimizdə ikinci məktəbi qız məktəbini Hacının qardaşı Kərbəlayı Mürsəl 1892-ci ildə öz vəsaiti hesabına açır.Kərbəlayı Mürsənin açdığı məktəbə müdirlik edən Türkiyədən gəlmiş erməni Dran Papazyan olur.Əlbəttə sovet idealogiyası bu məktəbləri yer üzündən sildi, müəllimləri "Dini təbliğ edir" damğası ilə işdən kənarlaşdırdılar.Bu məktəblərin yerinə yeni üsulla ibtidadi təhsil verən məktəblər açırlar.Camaat bu məktəbi birmənalı qarşılamır.Bəlkə də ,rəhmətlik Mirzə Ələkbər Sabir " Vah! Bu imiş dərsi-üsuli cədid?" şeirini buna görə yazmışdı

*Vah! Bu umuş dərsi-üsuli cədid?*
*Yox , yox ,oğul məktəbi üsyandı bu.*
*Molla deyil burdakı təlim edən,*
*Əlhəzrət et, bir yeni şeytandı bu,*
*Dur, qaçaq, oğlum, baş-ayaq qandı bu!*

Aşağıda göstərilən tarixi abidələr bir daha Ağdünün qədimliyindən xəbər verir. V I I əsrin yadigarı qəbirüstü abidə XII əsrdən qalma "Qala",

VII əsrdə inşa edilmiş Künbəz , XVIII əsrdə tikilmiş 400 nəfər tutan Məscid bizim Ağdü kəndindədir.Kəndimizdə iki qədim qəbirstanlıq var idi. "Ağyazı" qəbirstanlığı və "Ağdüz" qəbirstanlığı.Ağyazı qəbirstanlığı daha qədimdir.Burada at və Qoç heykəlləri ,qəbirüstü abidələr daş sanduqələr , diqqəti cəlb edirdi.Min dörd yüz ilə yaxın tarixi olan bu nəhəng qəbirüstü abidə zamanın çox küləklərinə sinə gəlib gərdişinə dözüb insanları həyəcanlandırıb dünyanın şamiliyi, məhəbbətin, sənətin əbədiliyi haqqında nümunə olub, indiyə qədər salamat qalıb.Bu abidə üç mərtəbəlidir.Abidənin birinci mərtəbəsi geniş meydançanı xatırladır.Meydançanın sonunda iki giriş qapısı olan tağvari ibadətxana diqqəti cəlb edir..İkinci mərtəbə yanlardan dördbucaqlı şəklində iki sütundan, ortada isə səkkiz bucaqlı şəkilində bir sütundan ibarətdir.Hər iki kənar sütun tağvari hörgü vasitəsilə orta sütunla birləşmişdir.Üçüncü mərtəbə gözəl memarlıq quruluşuna malik olan iki sütundan ibarətdir.Abidənin cənub qülləsindəki daş saat maraqlıdır.Daşın üstündə düzəldilən saat əqrəbinin yerinə bir çöp taxsan vaxtın neçə olduğunu çöpün kölgəsi sənə göstərirdi.VII əsrdə daşa həkk olunmuş saata biz gün saatı deyərdik. Qarakilsədən gələndə (Qareysə deyirdik) "Qarabulaq" "Yellicə" "Düldülün ayaq izi" (Həzrəti Əlinin atının adı Düldülümüş) Məhəmməd Peyğəmbərin dəvəsinin iri sal daşı üstündə çəkilmiş ,ayaq izləri "Dəvəboynu", "Qarapır" camaatın inanc yeri idi.Ərəb istilasından qalan bu ziyarətgahlar müqəddəs sayılardılar.Qazar ölən dərəyə çatanda yerli əhali lənət oxuyur,düşmənə nifrət edirdilər.

***Dağ cığırları adamın biləyindən yapışıb gah dərəyə endirir, gah da qolundan tutub əlçatmaz zirvələrə qaldırır.Bizim kəndimizdəki "Qala" çox qədimdir.Qalanın dörd tərəfi uçurum və sərt qayalardan ibarətdir.Onun üstünə çıxmaq üçün bircə yeraltı yol var imiş.Həmin yeraltı yolla həm də qalaya Bazarçaydan su daşıyarlarmışlar.Qalanın şimala baxan hissəsində min baş qoyun tutan təbii kaha var.Kahada çıraq yeri, ocaq buxarısı var idi.Qalanın üstü Cıdır düzünü xatırladır.Uçub dağılmış damlar, batmış kalafa yerlərini görən camaat qalanın adını "Qalayeri" qoyublar.Dağılmış kəndə "Kəndyeri" deyildiyi kimi,XX əsriin əvvəlinə qədər bizim kənd Ağdü 800 evli olub.Evlər bir-irinіə bitişik tikildiyi üçün Əlmərdan bulağından Cəlil bulağına qədər adamlar damların üstü ilə gediş-gəliş edirmişlər.***

Andronik Torosinin quldur dəstəsi 1918-ci ildə 824 ağdülünü ağır işgəncələrlə qətlə yetirib ,dinc əhalini məscidə yığıb yandırıblar.Tblisidə nəşr olunan "Qruzuya" qəzeti 9 noyabr 1918 tarixli sayında dərc etdiyi rəsmi xəbərdə yazırdı:

***- "Qərbi Zəngəzurun Qarakilsə bölgəsində Andronikin quldur dəstəsi Qarakilsə, Dəstəgert, Dulus,Ərəfsə,Şukaar, Ərikli,Ağdü , Vəğədi,Urud, Pulkənd, Şəki kəndlərini yandırmış, dağıdılmış, kəndlərin əhalisi soyqırıma məruz qalmış, yurd-yuvalarından didərgin düşmüşdü.Ümumiyyətlə ,Andronikin vəhşiləri 1918-ci ildə Zəngəzur qəzasında 130 kəndi talan etmiş , dağıtmış, od vurub yandırmışlar.Bu faciə zamanı 7729 nəfər müsəlman öldürülmüşdür.Onlardan 3257 kişi, 2276 qadın, 2196 uşaq olmuşdur.1060 kişi ,794 qadın, 485 uşaq şikəst olmuşdur....***

1988-ci ildə bizim kənddə 312 ev var idi ki həmin evlərdə də , 2400 nəfər o evlərdə yaşayırdılar.Kənddə dünya standartlarına cavab verən yeni tipli 300 nəfərlik mədəniyyət evi, 700 şagird yerlik yeni məktəb, 1 kitabxana, 2 mağaza, 1 bufet, tibb məntəqəsi, su dəyirmanı, elektrik dəyirmanı əhalinin istifadəsində idi.Kəndin küçələrinin əksəriyyəti asfaltlanmış, hər evin həyətinə su krantı çəkilmişdir.20 elmlər doktoru , kifayət qədər elmlər amizədi Ağdü kəndindən pərvazlanıblar.

Anti Azərbaycan cəbhəsini yaran, 1954-cü ildə Qarakilsə bölgəsində ilk "Əməkdar müəllim" adına layiq görülən ağdülü Ağaqulu Nəcəfov olmuşdur. Kəndin əhalisi firavan bir həuyat yaşamaqda idi..Doğma kəndlə son vidalaşma 1988-ci ilin dekabr ayında qarlı-şaxtalı gündə oldu.Ağdü camaatının növbəti didərginlik həyatı başladı.Köç karvanı qarlı dağlar aşaraq Azərbaycana üz tutdt.Qarlı, boranlı dağı aşanda xeyli insan tələf oldy.Qarabağ savaşında kəndimiz 10 nəfərdən çox şəhid verib.33 ildir doğma yurda həsrətik.Bu qalan ömrümün inan, hər anı inamla boylanır Vətənə sarı.Heç vaxt doğma ellərə qayıtmaq inamımızı itirməmişik, doğma Ağdünü unutmamışıq.İnşallah yaxın vaxtlarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, müzəffər ordumuzun qüdrətiylə türk qardaşlarının dəstəyi ilə qərbi qədim Azərbaycan torpağı Zəngəzura, doğma dədə-baba torpaqlarımıza qayıdacağıq.

### *ZƏNGƏZUR*

*Dünyada nə çoxdur gözəl yer, məkan,*
*Mənimsə qəlbimdə birdi Zəngəzur.*
*Dolanam başına Kəbə daşıtək,*
*Ocaqdı Zəngəzur, pirdi Zəngəzur.*

*Dağlarının sinəsində qar yatar,*
*Yaylağında dövlət yatar, var yatar,*
*Tər güllərin qucağında yar yatar,*
*Sevincə çevirər dərdi Zəngəzur.*

*Zirvələri ağ çarşaba bürünər,*
*Yamacıyla qatı duman sürünər.*
*Bulaqları ayna kimi görünər,*
*Hələ açılmamış sirdi Zəngəzur.*

*Dağların sirrini çobanlar bilir,*
*Arılar çiçəyin gözünü silir.*
*Gölünə yaşılbaş sonalar gəlir,*
*Qonaq qarşılayan yerdi Zəngəzur.*

*Koroğlu nərəsi var qayasında,*
*İldırım iz qoyub hər qayasında*
*Qoymaz məskən sala sar qayasında,*
*Dəyişməz namərdə mərdi Zəngəzur.*

*Gözüm yolda qalıb qulağım səsdə,*
*Hicrinə dözməyib olmuşam xəstə.*
*Nə qədər bülbülüm qaldı qəfəsdə,*
*De, kimə söyləyim dərdi ,Zəngəzur?*

*Hələ sərt küləklər əsir qoynunda,*
*İgidlər saxlanır əsir qoynunda*
*"Çobanbinə" haylar gəzir qoynunda,*
*Kim səni güdaza verdi, Zəngəzur?*

*İnsafsız, mürvətsiz zamana gəldi,*
*Namərdin oxları köksünu dəldi*
*Sərçə qəh-qəh çəkib qartala güldü,*
*Sənə də çaqqqallar hürdü, Zəngəzur.*

*Ağdü Zəngəzurun kilid-açarı,*
*Ox kimi atılar düşmənə sarı*
*Yağı aşa bilməz bizim hasarı,*
*Yağı qabağında nərdi Zəngəzur.*

*Lələdağ, göz yaşı tökmək əbəsdir,*
*Edilən sitəmlər yurduma qəsdir*
*Zəngəzur sağdırsa, o sənə bəsdir,*
*Günəş parçasıdır, nurdu Zəngəzur!*

## *Ağdamda Ümummilli Liderimizin xatirəsinə həsr olunmuş Unversal Döyüş turneri keçirilib*



**14-17 Oktyabr 2021-ci il tarixlərdə Ağdam rayonunda Unversal Döyüş İdman növü üzrə Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə həsr olunmuş, Respublika Turniri təşkil olunmuşdu , Həmin turnirdə bütün yaş qrupları uzre 400-ə yaxın idmançı iştirak edirdi .**

Turnirin açılışı mərasimindən öncə, federasiya rəhbərliyi, fəxri qonaqlar, hakimlər və idmançılar ,Ulu öndərimizin Ağdam rayonundakı abidəsinin önünə əklil və gül qoyma mərasimində iştirak etmişdilər. Həmin mərasimdə idmançılar üzərində Ümummilli Liderimizin şəkilləri olan geyimlərdə olmuşlar .

Yarışda qalıb gələn İdmançıların hər birinə üzərində Ulu öndərimiz Heydər Əliyevin şəkili olan diplomlar, üzərində Ulu öndərimizin büstü olan medallar və xarı bulbul yaxa nişanları ilə mukafatlandırılmışlar. Yarışın təntənəli açılış mərasimində Ağdam Rayon İcra Hakimiyyətinin başçısıda iştirak etmiş, ürək sözlərini İdmançılarımıza bildirdikdən sonra, Federasiyanın Prezidenti Azər Həsənov tərəfindən turnir açıq elan edilmişdir .

## *Mourinyonun karyerasında acınacaqlı ilk*



**"Roma"nın baş məşqçisi Joze Mourinyonun baş məşqçilik karyerasında bir ilk yaşanıb.**

Qol.az xəbər verir ki, bu, "Roma"nın Avropa Konfrans Liqasının qrup mərhələsinin 3-cü turunda Norveçin "Budo Qlimt" klubuna 1:6 hesabı ilə məğlub olduğu oyunda baş verib. İlk dəfə portuqaliyalı mütəxəssisin çalışdırdığı bir komanda qapısından 6 top buraxıb.

**Qeyd edək ki, Joze Mourinyo məşqçilik karyerasına 2002-ci ildə başlayıb. 58 yaşlı mütəxəssis bu müddət ərzində "Benfika", "Uniao de Leyrya", "Porto", "Çelsi", "İnter", "Real", "Mançester Yunayted" və "Tottenhem"i çalışdırıb. Mourinyo baş məşqçi kimi 1008 matçda komandalarının başında olub.**

# "HAMİLƏ" QIZ



*ZAKİR BAĞIR*

**Hekayə**

### *Proloq*

Bu hadisə Sovet dövründə baş verib. Uzun illər keçməsinə baxmayaraq bu mövzuda heç nə yazmamışam.

Bu yaxınlarda onu görəndən sonra hər şey dəyişdi.Mən Bakı şəhərində olarkən boş vaxtlarımda kitab mağazalarına, kitab evlərinə gedirəm. Özümə kitab alıram. Bu vərdiş tələbəlik illərindən məndə qalıb.

Kitab evində idim. Bir qadın bir uşağın əlindən tutaraq onun üçün kitab seçirdi. Qadın məni görəndə gülümsədi. Mənə yaxınlaşdı:

-Sən Seyidqızının nəvəsi deyilsən?

Nənəmin adı Seyidbanu idi. Amma hamı onu Seyidqızı çağırırdı.

-Bəli,nəvəsiyəm.

-Məni tanıyırsan?

-Əlbəttə, tanıyıram.

-Sənin kitablarını oxumuşam. Mətbuatda çap olunmuş əsərlərinizi də izləyirəm. Amma mənim haqqımda heç nə yazmamısan.

-Düzdür, heç nə yazmamışam.

-Sənin nənən Seyidqızı mənə çox yaxşılıq edib. Heç mənim qohumlarım mənə belə yaxşılıq etməyib. Mən onun qayğısı sayəsində arzuma çatmışam. Halbuki, Seyidqızı ilə heç bir qohumluğum yoxdur. Seyidqızı necədir?

Mən susdum. Haçandan-haçana:

-Seyidqızı dünyasını dəyişib.

Onun gözləri doldu.

-Allah rəhmət eləsin. Qəbiri nurla dolsun. İndi belə adamı tapmaq çox çətindir. Sən mütləq mənim haqqımda yazmalısan. Qoy Seyidqızının da ruhu şad olsun.

-Gülyanaq xanım, yazaram.

-Doktor Gülyanaq xanım. Axı indi mən ali təhsilli həkiməm.

***

...Müəllimlər müşavirədən qanıqara çıxdılar. Maarif şəöbəsinin müdirinin çıxışı onları razı salmamışdı. Şərqiyə müəllimə əsəbiliklə dedi:

-Bu nə danışır? Məktəbliləri yığıb sovxoza kömək etməliyik. Bizim üçün yer də ayırıblar. Plan da veriblər. Belə çıkır ki, məktəbi bağlayıb...

Şərqiyyə müəllimə Bakının kəndindən idi. Təyinatla bu rayona göndərmişdilər.

O biri müəllim:

-Şagirdlərə necə deyək? Daha məktəbə gəlmiyin, sovxoza kömək etməliyik. Direktorumuz öz etirazını bildirməli idi.

Şərqiyyə müəllimə əsəbiliklə:

-Onun haçan öz sözü olub? Tutuquşudu da. Deyilənləri təkrar edir.

Bütün narazılıqlara baxmayaraq sovxozda məktəblilər üçün sahə ayrıldı.

Bir fəhlə o birisindən soruşdu:

-Şagirdlərə pul da verəcəklər?

-Rəhmətliyin qızı, biz sovxozun qanunu işçiləriyik. Neçə vaxtdır halalca maaşımızı ala bilmirik. Ğündə bir bəhanə tapırlar. Şagirdlərə pul verəcəklər?

Gözətçi sahənin qırağında budaqlarla alaça düzəltmişdi. Üstündə örtmüşdü. Burada sovxozun fəhlələri fasilə vaxtı evlərindən gətirdikləri yeməyi yeyirdilər.

Məktəblilər bir-bir iki - bir sahəyə gəlirdilər. Qəribə idi. Şagirdlər məktəb formasını geymişdilər. Məktəbli çantasını götürmüşdülər.

Məktəbin direktoru "Tutuquşu" hirslə onlara baxdı:

-Deyəsən, bunlar məktəb yolu ilə sahə yolunu qarışıq salıblar.

Şagirdlərdən biri soruşdu:

-Müəllim,daha məktəb olmayacaq? Biz söz veririk, yaxşı oxuyacağıq, Gülyanaq kimi. Məktəbi bağlamayın.

Gülyanaq səkkizinci sinifdə oxuyurdu. Dərs əlaçısı idi. Sinifkom seçilmişdi. Şəkli məktəbin şərəf lövhəsinə vurulmuşdu. Həkim olmaq istəyirdi. Bu onun uşaqlıq arzusu idi.Rəfiqələri ilə oynayanda həmişə həkim olurdu.

Məktəb direktoru briqadirə yaxınlaşıb ona nə isə dedi. Tez sahədən çıxdı. Briqadir narazılıqla başını yellədi. Müəllimlərin, şagirdlərin qaldığı yerə gəldi:

-Buradan başlayın-dedi.- Mən idarəyə gedirəm.

Müəllimlər, şagirdlər işə başladılar. Artıq günəş isti şüalarını torpağa səpələmişdi. İstidən nəfəs almaq olmurdu. Başlarını, üzlərini örtmüş fəhlələr öz işlərində idilər. Deyəsən, bu istiyə öyrəşmişdilər. Amma şagirdlərin halı yaxşı deyildi. Öyrəşmədikləri iş, istilik onlara təsir edirdi.

Kasıb ailədə anadan olmuş, bədəncə arıq olan Gülyanagın halı lap pis idi. Sinif rəhbəri onu gözətçinin düzəltdiyi alaçaya apardı. Ona özü ilə gətirdiyi yeməkdən verdi.Qız iştaha ilə yeməyə başladı. Deyəsən, ac idi. Sonra Şərqiyyə müəllimə onu yerə uzatdı. Gülyanaq tez yuxuya getdi. Müəllimə ona baxdı. Şağirdi ağzını açıq saxlayaraq yuxuya getmişdi.

"Bu yatanda ağzını niyə açıq saxlayır? Görünür buna vərdiş edib"

Günlər keçirdi. Gülyanağın vəziyyəti pisləşirdi. O, qarnından şikayətlənirdi. Qarnı şişmişdi.

"Görəsən bu uşağa nə oldu?"-Sinif rəhbəri düşündü.

Kirayə qaldığı evə gələndə Gülyanağın bibisini gördü. O, ev sahibəsi ilə qonşu idi. Vəziyyəti ona danışdı

-Qardaşınla danış. Qoy uşağı həkimə aparsın.

-Qardaşımla? O, qardaşım olsaydı, mənim sözümə baxardı. Özbaşınalıq etməzdi.

Sinif rəhbəri heç nə başa düşmədi:

-Deyəsən qardaşınla problemin var. Bunun qardaşın qızına nə dəxli var?

Gülyanağın bibisi dinmədi.

Sonra məlum oldu ki, atası qızından imtina edib. Onu evdən qovub. Kənddə bəziləri qız haqqında pis sözlər söyləyirdilər.

Məktəb müəllimlərindən biri sinif rəhbərinə dedi:

-Nahaq bibisinə demisən. Sən gəlməsən, çox şeylərdən xəbərin yoxdur. Gülyanağın bibisi qardaşından inciyib. Bir-biri ilə danışmırlar. Səbəbdə budur ki, bacısı qardaşına deyib:

-"Baldızımı al. İmkanlı ailədəndir. Kasıbçılığın daşın birdəfəlik atarsan."

Qardaşın razılaşmayıb. "Mən heç vaxt onunla xoşbəxt ola bilmərəm. Onun xasiyyətinə yaxşı bələdəm..."

-Gərək bibisinə deməzdən qabaq bizimlə məsləhətləşəydin. Bəlkə, Seyid qızı ilə məsləhətləşəsən?

Sinif rəhbəri sevindi. Səhvini düzəldə bilərdi.

O, Seyidqızını şəxsən tanımırdı. Amma onun haqqında çox şey öyrənmişdi. Öyrənmişdi, onun adı Seyidbanudur. Hamı onu Seyidqızı çağırır.İkinci Dünya müharibəsi illərində altı kəndi əhatə edən kolxoz sədri işləyib. Kolxoz cəhbəyə kömək edib. Seyidqızı kolxoz işçilərinin qayğısına qalıb. Sədr olmasına baxmayaraq sağıcılıq da edib. Yer də şumlayıb. Qəzetlər onun haqqında çox yazıblar.Çoxlu orden və medallarla təltif olunub. Əmək veteranı fəxri adını alıb.

Qaranlıq düşəndə Şərqiyyə müəllimə Seyidqızıgilə yollandı.

Seyidqızı onu mehribanlıqla qarşıladı.Çay gəldi. Çox keçmədi ki, stəkanları yığışdırdılar. Yemək üçün qab, qaşıq gətirdilər

-Sağ olun, Seyidqızı, mən toxam.

-Müəllimə, hələ indiyə kimi heç kim Seyidqızının evinə gəlib, çay içməmiş, yemək yeməmiş getməyib.

Yeməkdən sonra sinif rəhbəri gəlişinin səbəbini söylədi. Seyidqızı onu diqqətlə dinləyirdi.

-Müəllimə, gərək əvvəlcə mənim yanıma gələydin. Uşağın başına gələnləri bibisinə söyləməkdə böyük səhv etmisən.İndi onun əlinə fürsət düşüb...Qaldı uşağa kömək etmək? Kömək etmək Həzrəti Əlidən qalıb. Bəlkə eşitmisən? Bir bacım Bakıda yaşayır. Qızı böyük bir xəstəxananın baş həkimidir. Uşağı ona göstərək. Oğluma deyərəm, tanış maşın tapsın.

-Seyidqızı, tanış maşın tapmaq lazım deyil. Sabah qardaşım gələcək Mənim ev kirəmi gətirəcək. Elə sabah da gedəcək. Onun maşını var. Haraya desəniz, sizi aparacaq. Seyidqızı, Gülyanaq üçün narahatam.

-Narahat olma, tapşıraram uşağı taparlar. O, bizdə qalacaq. İstəsən sən də bizdə qala bilərsən. Qonağa hörmət etmək borcumuzdur.

***

Seyidqızının bacısı qızı əlində tutmuş şəkillə içəri girdi.

-Doktor, (Seyidqızı bacısı qızına belə müraciət edirdi) qorxulu bir şey yoxdur ki?

-Yox xala, qız hamilə deyil.

-Bəs qarnı?...

Bacısı qızı rentgendə çəkilmiş şəkli xalasına göstərdi.

-Bu nədir? Uşağın qarnında ilan var? Bu boyda ilan onun qarnına necə girib?

-Bu boyda ilan yox, təzə doğulmuş ilan. Bacısı qızı barmağı ilə göstərdi. İlan balası doğulanda bu boyda olur. - Seyidqızı sinif rəhbəri Şərqiyyə müəllimənin dediyini xatırladı."Uşaq yatanda ağzını açıq qoymuşdu".

-Bəs indi nə etmək fikrin var?

-İlanı Gülyanağın qarnından çıxartmaq.

-Əməliyyat edəcəksiniz?

-Əməliyyata ehtiyac yoxdur. İlanın qarnından çıxması üçün qız elə bir yerdə yatmalıdır ki, orada heç kim olmasın. Xəstəxanada buna şərait yoxdur. Seyidqızı fikrə getdi. Çox çəkmədi,öz fikrini bacısı qızına bildirdi.

-Allah özü kömək etsin.

***

Pirin sahibi bildirdi.

-Gecə burada qalmalısınız. Qızla birlikdə bu otaqda uzanmalısınız. Elə ki, uşaq yuxuya getdi yavaşca yerinizdən durub yan otağa keçməlisiniz. Yan otaqla bu otaq arasında pəncərə var. Hər şey görünür. Seyidqızı deyilənlərə əməl etdi.

Qız yuxuya gedən kimi astaca yerindən durdu. Uşaq ağzını açıq saxlayaraq şirin yuxuya getmişdi.

Seyidqızı həyacanla pəncərədən yan otağa baxırdı. Əllərini göyə tərəf qaldıraraq dua oxuyurdu. Dəqiqələr, saatlar keçirdi. Birdən ilanın başı göründü. O, oyana -buyana baxdı. Yavaşca Gülyanağın ağzından çıxdı. Otaqdakı çuxura girdi.

Seyidqızı əlini göyə qaldırdı.

-Kəräminə şükür, Allah.Həmişə tez duran qız şirin-şirin yatırdı. Seyidqızının bacısı qızı nigaran idi.O, sürücünü xalasının yanına pirə göndərdi. Yalnız gunorta çağı gəldilər. Seyidqızı da, Gülyanaq da şən idilər.

...Xala, qızdan analiz götürmüşük. Qorxulu bir şey yoxdur. Tapşırmışam, indi mədə-bağırsağını yuyurlar.

- Nə edək, doktor? Atası onu övladlıqdan çıxarıb. Evdən qovub.

-Xala, bu barədə darıxma. Deyirdin, qız uşaqlıqdan həkim olmaq istəyirdi. Sənədlərini Bakıdakı tibb məktəbinə verər. İnanıram ki, qəbul olunacaq. Məktəbin yataqxanasıda var. Şagirdləri əsasən qızlardır.

-O, hələ buraxılış imtahanı verməyib.

-Xala, məktəbdən Nazirliyə şikayət məktubu daxil olub. Nazirlikdə oraya komisiya göndərəcək. Komisiyanın sədri də rəfiqəm, sinif yoldaşımdır.

Komisiya məktəbi yoxlamaqla bərabər buraxılış imtahanının gedişini də izləyəcək. Gülyanaq da onlarla gedəcək. Onlarla bərabər mehmanxanada qalacaq.

...İmtahana girməzdən qabaq məktəbdəki şərəf lövhəsinə baxdı. Onun şəkli yox idi. Kimsə Gülyanağın şəklini şərəf lövhəsindən çıxartmışdı. Gözləri doldu.

İmtahan uğurlu keçdi. Gülyanağın cavabları komisiya üzvülərini razı saldı. Komisiya üzvüləri işlərini bitirdikdən sonra, Gülyanağın sənədlərini də alıb onunla birlikdə Bakıya yola düşdülər.

Gülyanaq tibb məktəbinə daxil oldu. Məktəbin direktoru onu yataqxanaya apardı. Bir otağa daxil oldular.

-Burada üç qız yaşayır. Tapşıraram, sənin üçün də çarpayı qoyarlar.

Yaxşı oxuduğuna görə əlaçı təqaüdü alırdı. Qrup nümayəndəsi seçilmişdi. Tibb məktəbinin bir müəlliməsi təqaüdə çıxmışdı. Bir neçə gün keçdi.Tibb məktəbinin direktoru bir nəfərlə sinifə daxil oldu.

Üzünü tələbələrə tutdu.

-Bu gündən Şərqiyyə müəllimə bizim məktəbdə işləyəcək. O, ali məktəbi bitirdikdən sonra təyinatla Günəşli rayonuna işləməyə gedib. İndi təyinat vaxtı qurtarıb.

Gülyanaq sevinclə:

-Şərqiyyə müəllimə...

Direktor da, Şərqiyyə müəllimə də Gülyanağa baxdılar.

Direktor soruşdu:

-Gülyanaq müəllimәni tanıyırsan?

-Əlbəttə, tanıyıram. Məktəbimizdə dərs deyib. Sinif rəhbərimiz olub.

Şərqiyyə müəllimə dedi:

_Gülyanaq, nəhayət arzuna çatdın.

-Tam yox, əlli faiz.

-İnanıram, tibb universitetinə də daxil olacaqsan. Yaxşı həkim kimi ad qazanacaqsan.

### *Epiloq*

Gülyanaq tibb məktəbini fərqlənmə ilə bitirdikdən sonra Tibb Universitetinə daxil oldu. Ali məktəbi də fərqlənmə ilə bitirdi. İndi o, Seyidqızının baş həkim olduğu xəstəxanada həkim işləyir.

Günlərin bir günü o, xəstəxananın arxivində işlə əlaqədar bir sənəd axtarırdı. Gözləri bir qovluğa sataşdı. Qovluğun üstünə baxdı. Onun adı yazılmışdı. Maraqlandı. Qovluğu açdı. Burada bir şəkil gördü. Şəkildə səkkizinci sinif şagirdi Gülyanaq ona baxırdı. Şəkildən aydın olurdu ki, onun qarnında ilan var. Başına gələnləri xatırladı. Gözləri doldu:

"-Dünyanın işi çox qəribədir. Adam çətinə düşəndə doğma adamlar ona kömək etmək əvəzinə" uzaq gəzirlər. Hətta ona böhtan da atırlar. Beləcə yadlaşırlar. Elə yadlar var ki, sənin qayğına qalırlar. Əzilməyə qoymurlar. Beləcə doğmalaşırlar. Özlərini "doğma" sayanlar vicdan əzabı çəkirlərmi? Bilirlərmi vicdanlarında ləkə var?

**Elanlar**

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Dekorativ Tətbiqi Sənət fakültəsi, Bədii keramika ixtisası, magistr, 2-ci kurs tələbəsi Fərid Mehman oğlu Rəhimovun tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

*******

**Həsənov Cavanşir Qurban oğlu Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi DYMX Neftayırma Müəssisələri üzrə Yanğından Mühafizə dəstəsi 18 nömrəli YMH 37/37-234 saylı xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 134**
Çapa imzalanmışdır:
22.10.2021